Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Medianın İnkişafı Agentliyində xarici jurnalistlərlə görüş keçirildi



**Medianın İnkişafı Agentliyində (MEDİA) Tərəfsiz (Parlament) Jurnalistlər İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycanda səfərdə olan Böyük Britaniya, Albaniya və Gürcüstanın nüfuzlu media orqanlarının təmsilçiləri ilə görüş keçirilib. Bu barədə Adalet.az-a MEDİA-dan məlumat verilib.**

Görüşdə Böyük Britaniyanın "Daily Mail", "Daily Star" və "Avrupa News Agency" platformalarını təmsil edən Alpaslan Duven, Albaniyanın "infowebmedia" rəqəmsal platformasının təmsilçisi Anisa Bahiti və Gürcüstanın "geodigest.ge" və "newsday.ge" xəbər saytlarının nümayəndəsi Avtandil Otinaşvili iştirak edib. Xarici jurnalistlərə ölkəmizdə media sahəsində həyata keçirilən islahatlardan, jurnalistlərin peşəkarlığının, cəmiyyətin media savadlılığının artırılması istiqamətində görülən çoxşaxəli və kompleks tədbirlərin mahiyyəti və əhatə dairəsindən bəhs edilib.

Görüşdə media sahəsində əlaqələrin gücləndirilməsi, səmərəli əməkdaşlıq və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Bakı Fransanın yardımını buraxmadı



**Fransa şəhərlərindən Qarabağdakı ermənilər üçün göndərilən və bu gün Azərbaycanla şərti sərhədə çatan "humanitar yardım"dan ibarət 10 TIR-ı Azərbaycan sərhəddən buxarmamaq barədə qərar verib. Adalet.az xəbər verir ki, bu barədə erməni Teleqram kanalları məlumat yayıb.**

Qeyd edək ki, Fransa şəhərlərindən toplandığı iddia edilən və Paris merinin də müşayiət etdiyi "humanitar yardım" maşınları bundan əvvəl Ermənistanın göndərdiyi 21 TIR-ın yanında yer alıb. Ermənilər TIR-ların dayandığı yerdə "humanitar yardım mərkəzi" yaradaraq, yükləri qəbul edəcəklərini elan ediblər. Görünür, bir TIR-ın günlük saxlanma xərcini çəkmək o qədər də asan deyil. Ermənistan isə bu "humanitar böhran" şousunu davam etdirməkdə israrlıdır.

*Aqil ABBAS*

## O BAYRAĞIN DİRƏYİNİ ADAMIN BİR YERİNƏ...

Bax:səh-3

## TEKNOFEST yenidən Bakıda keçirilə bilər



**Bakıda yenidən TEKNOFEST keçirə bilərik. Adalet.az-ın məlumatına görə, bu sözləri Türkiyənin "Baykar" şirkətinin texniki dirktoru Selçuk Bayraktar jurnalistlərə açıqlamasında deyib.**

"Qarabağ zəfərindən sonra Azərbaycanda möhtəşəm TEKNOFEST festivalı keçirdik. Bunu qısa zamanda təkrarlamağı planlaşdırırıq", - deyə o vurğulayıb.

Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibətilə bu gün paytaxt Ankarada TEKNOFEST keçirilib.

## Ermənilər Azərbaycanın Livandakı səfirliyinə hücum etdi

**Azərbaycan Respublikasının Livan Respublikasındakı Səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın erməni əsilli şəxslər səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri səfirliyin inzibati binasına atıblar. Bu barədə Adalet.az-a Xarici İşlər Nazirliyindən bildirilib. Qeyd olunub ki, hücum nəticəsində səfirliyin heyəti xəsarət almayıb.**

Nazirlikdən bildirilib ki, hadisə barədə diplomatik nümayəndəliklərin mühafizəsinə cavabdeh olan quruma məlumat verilən kimi hüquq-mühafizə orqanları hadisə yerinə gəlsələr də, həmin vaxt təxribatçılar ərazidən uzaqlaşmağa müvəffəq olublar: "Səfirliyə qarşı törədilən bu hücumla əlaqədar cinayətkarların aşkarlanması və həbs edilməsi məqsədilə, Livanın Xarici İşlər Nazirliyinə müvafiq nota təqdim edilib və aidiyyəti üzrə tədbirlər həyata keçirilir. Hazırda səfirliyin mühafizəsi daha da gücləndirilib və törədilmiş cinayətlə bağlı araşdırma aparılır".

## Vilayət Eyvazov bu tarixdə vətəndaşları qəbul edəcək



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il sentyabr ayının 28-də Masallı Rayon Polis Şöbəsinin inzibati binasında Masallı, Yardımlı, Lerik, Astara və Lənkəran şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.**

Adalet.az xəbər verir ki, qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 27.09.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## PRİQOJİN SAĞDIR



**Rusiyanın etibarsız mənbələrinin yazdığına görə, "Vaqner"in qiyamçı sərkərdəsi Priqojin sağdır. Eyni vaxtda onun iki özəl təyyarəsi Şeremetyevdən havaya qalxıb - biri Peterburqa, digəri isə naməlum səmtə. İkinci təyyarənin hətta Bakıya istiqamət götürdüyünü yazırlar.**

Belə hadisələr çox olur. Bəzi məşhur adamlar, cinayətkarlar, mafiya başçıları öz ölümlərini saxtalaşdırırlar. Bunu filmlərdə də çox görmüşük.

Hətta Hitlerin də ölümünün saxtalaşdırıldığını indiyədək deyirlər və yazırlar. Guya müharibədən sonra da Argentinada yaşayıbmış.

**İndi görək Priqojinin səsi hardan çıxacaq. Çıxacaqsa?!**

Hər kəs ədalətli olacaq
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 33 (6026) 1 sentyabr 2023-cü il | Qiyməti 40 qəpik

## ELƏ İLK OYUNUNDACA...




**"Qarabağ"ın bəh-bəhlə aldığı yeni qapıçısı elə ilk oyunundaca Şahruddinlik etdi. Amma Şahruddindən fərqli olaraq onun bəxti gətirdi.**

# Hikmət Hacıyev:
# "Bakı bunu qəbul etməyəcək"



**Ermənistan Azərbaycanla razılaşdırmadan populizm məqsədilə müxtəlif yük maşınlarını Azərbaycan sərhədinə - "Laçın" sərhəd-keçid məntəqəsinə gətirib. Dünən də bəzi erməni lobbisinin tərəfdarı və təsiri altında olan korrupsioner Avropa siyasətçiləri də bu teatr xarakteri daşıyan dramanın tərkib hissəsi olaraq Azərbaycan sərhədinə doğru gəliblər.**

**Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib.**

**Onun sözlərinə görə, bu kimi addımların heç bir mənası yoxdur:**

**"Bu kimi şou xarakterli addımlardansa, real məsələləri yerində həll etmək lazımdır. Azərbaycan öz ərazisində hər hansı bir boz zonanın olmasını qəbul etməyəcək".**

## TÜRKİYƏ RESPUBLİKASININ AZƏRBAYCANDAKI BÖYÜKELÇİSİ CAHİT BAĞCI CƏNABLARINA



**Sayın Böyükelçi!**

Türkiyənin möhtəşəm Zəfər bayramının münasibətilə Sizi və bütün Türk xalqını ürəkdən təbrik edirik. Bu təkcə Türkiyənin deyil, bütün dünya türklərinin Zəfər bayramıdır. Qazi Mustafa Kamal Atatürkün 1922-ci il avqustun 30-da dünyada ağalıq iddiasında olan böyük dövlətlərin üzərində çaldığı Zəfər qələbəsi bu gün də sayın Rəcəb Tayyib Ərdoğanın cümhurbaşkanlığı ilə davam edir.

Şair Vaqif Cəbrayılzadə yazır:

"Türk min illərin gün işığıdır, nə qədər basdırsan yenə torpağın üstündə qalar". Biz min illərin gün işığıyıq, bizi basdırmağa kimsənin gücü çatmaz.

**Yaşasın Türkiyə!**
**Tanrı Türkü qorusun!**

**Hörmətlə:**
**Aqil ABBAS,**
**Millət vəkili**

## ELƏ BELƏCƏ DƏ ÜRƏYİNİZ PARTLAYACAQ



**30 il həftə səkkiz, mən doqquz sallana-sallana durub Bakıya gələn, əmlik kababı, asetrin kababı yeyən, kürünü xörək qaşığı ilə qaşıqlayan, Gəncə konyakından vurub məst olan, şellənən, o Avropada görmədikləri günləri Bakıda yaşayan ATƏT-in həmsədrləri qaldılar ortalıqda. İndi baxıram Anji Kasprşik gəlib İrəvanda sülənməyə, ordan da gəlib sərhədə - Laçın dəhlizinə. Ordan da durbinlə Azərbaycana baxır. Əlləri Azərbaycandan çıxsa da hələ bədbəxt Ermənistandan çıxmayıb.**

Bax, yaxşı bax. Bir də ayaqların murdarlamayacaq Azərbaycan torpaqlarına yaxşı bax. Elə beləcə də ürəyiniz partlayacaq.

## SÜLHMƏRAMLILARIN ERMƏNİLƏRƏ GÜCÜ ÇATMIR



**Məlum videoda da görmüsünüz, ermənilər sülhməramlıların avtomobilini saxlayır, sənədlərini yoxlayır və buraxmırlar, onlar da məcbur olub geri qaçır. Bir sözlə, Qarabağdakı sülhməramlıların ermənilərə gücü çatmır. 10 noyabr məlum Bəyannaməyə görə, sülhməramlıların birinci vəzifəsi Ermənistanın silahlı qüvvələrini Qarabağdan çıxarmaqdır ki, ya çıxartmaq istəmədilər, ya da gücləri çatmadı.**

Sülhməramlıları qınamaq da olmur, onların ərazidə iki minə yaxın əsgəri var, amma Ermənistanın Qarabağda 10-15 min silahlı qüvvəsi var.

Belə getsə, Azərbaycan ordusu sülhməramlıları öz himayəsinə götürmək məcburiyyətində qalacaq.

*Rüstəm Hacıyev*

## Ukrayna dronları rusların qorxulu yuxusuna çevrilir

Bax:səh-3

## HƏR ŞEYƏ MÜTLƏQ BİR MIZ QOYMALIYIQ



**Bir xanım Şuşada girib Gövhər ağa məscidinə, sidq ürəklə Allaha dua edir. Sosial şəbəkələr də şəkillərini yayıblar ki, ayıb olsun, ay nə bilim burnunda nə var, barmaqları manikürlü və şərhlərdə də nələr yazırlar, nələr...**

Adamı məscidə girib dua eləməsinə peşman edirlər.

## ACINDAN ÖLƏRİK, TÜRK ÇÖRƏYİ YEMƏRİK



**Bir video paylaşıblar, çöldə qalmış bir erməni qadını yekə-yekə deyir ki, acından ölərik , türk çörəyi yemərik. Bizim göndərdiyimiz yardımları nəzərdə tutub.**

Elə isə 91-92-də Süleyman Dəmirəlin göndərdiyi çörəyi niyə yediniz?

## ALLAHIN YARATDIĞINA DÜZƏLİŞ VERƏNLƏR

**Əvvəllər "malış" yeyən uşaqlar bir-birinə oxşayırdılar. Bu da təbii idi. İndi bu plastik əməliyyat çıxandan bütün qızlar, xanımlar hamısı bir-birinə oxşayır. Bəhsəbəhsə hamı yüyürür Allahın yaratdığına düzəliş verən həkimlərin yanına. Bu da çox zaman faciə ilə nəticələnir.**



Səhər-səhər televizyonda baxıram, plastik əməliyyat keçirən bir bloqqer xanım ağlaya-ağlaya bildirir ki, bədəni çürüyür, həkimlər də əlac edə bilmir. Heç demə, bir ayda 7 dəfə plastik əməliyyat keçirib.

Allah insanı necə lazımdısa elə də yaradıb və hər insanın təbii gözəlliyi var. Təbii gözəlliyinizi Allahın yaratdığına düzəliş verən həkimlərə etibar etməyin. Axırı bu bloqqer xanımın gününə düşəcəksiniz.

## TOŞ-TOŞ, AY ÇOXQOHUMLU BƏXTƏVƏR



Abdal Qasım bəyin evinin yanından keçəndə eşşəyinə bir-iki çubuq vurub deyir:

**- Toş-toş, ay bəy, toş-toş.**

Bunu eşidən bəyin nökər-naibi tökülüb Qasımı döyürlər.

Qasım üst-başını təmizləyəndən sonra eşşəyinə bir-iki çubuq verib deyir:

**- Toş-toş, ay çoxqohumlu bəxtəvər.**

İndi Parisin meri İdalqo da iti-qurdu yığıb başına, gəlib Ermənistan-Azərbaycan sərhədinə - sərhəd-keçid məntəqəsinin qapısına. Və təbii ki, Azərbaycana buraxılmayacaq, o da bir az hürəcək və dünyadakı bütün çaqqallar da ona qoşulub bir az hürüb bir neçə gün baş-beynimizi ağrıdacaqlar.

Bundan sonra ermənilərin ümidi qalır Kim Kardaşyana, gələ dalıyla sərhəd-keçid məntəqəsini aça.

## SİZ ALLAH, BİRCƏ DƏQİQƏ SUSUN

**Azərbaycan futbolunda çox maraqlı və xoş bir ənənə yaranıb. Oyunun 44-cü dəqiqəsində bütün stadion hayqırır: "Şəhidlər ölməz, Vətən bölünməz!" Çox təəssüf ki, şərhçilər həmin dəqiqədə də oyunu şərh edirlər. Bu da bu xoş hayqırtını eşitməyə qoymur.**

Nə olar, 44-cü dəqiqədə bircə dəqiqə susun, qoyun bütün Azərbaycan xoş anlar yaşasın. 90 dəqiqəlik oyunda almadıqları həzzi o 1 dəqiqədə alsınlar. Bilmirəm kimə müraciət edim AFFA-yamı, yoxsa PFL-əmi və yaxud telekanalların prezidentlərinəmi?

Yox, ən yaxşısı elə şərhçilərin özlərinə müraciət etməkdir.

Onu da qeyd edim ki, həqiqətən Azərbaycanda çox güclü futbol şərhçiləri yaranıb. Hətta ən zəif oyunu elə şərh edirlər ki, gözünü yumsan elə bilərsən ki, "Barselona" ilə "Real" oynayır.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## MEHRİBAN ƏLİYEVA AD GÜNÜNÜ LAÇINDA LAÇINLILARLA KEÇİRTDİ



*Cənab Prezident İlham Əliyev özünün 50 illik yubileyini Ağcabədidə laçınlıların məskunlaşdığı Taxta körpüdə ev-eşiklərindən didərgin düşmüş Laçın qaçqınları ilə keçirtdi. Bu görüşdə çox vacib və ciddi bir çıxış da etdi və Laçın camaatının tezliklə öz yurd-yuvalarına qayıdacaqlarını qətiyyətlə bildirdi. Həmin vaxt Taxta körpüdə yeni tikilmiş qəsəbənin açılışını da etdi.*

*Möhtərəm Prezident həmişəki kimi sözünü tutdu. Onun sərkərdəliyi ilə Milli Ordumuz Laçın şəhərini və kəndlərini düşmən işğalından azad etdi. 2022-ci il avqustun 25-də axırıncı erməni namərdcəsinə evini yandırıb Laçını tərk etdi. Qısa bir müddətdə - 8 ay ərzində Laçın şəhəri yenidən tikildi və bərpa olundu.*

*Eləcə də Zabux kəndi yenidən inşa edildi. Və laçınlıların Laçına böyük qayıdışı başladı. Doğma yurd-yuvalarına qayıdan insanların üz-gözündəki sevinci sözlə ifadə etmək çətindir. Onun necə bir hiss olduğunu yalnız o hissi keçirənlər bilir.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ



Aqşin Dadaşoğlunun əmisi 1945-ci ildə atasına (Aqşinin babasına) belə bir məktub göndərir: "Ata, gözün aydın müharibə qurtardı.

Tezliklə evə qayıdıram. Gələndə özümlə bir "nemka" da gətirirəm". Aqşinin babası oğluna belə bir məktub göndərir:

**- Oğul, bir nemka da mənə gətir, amma razmeri bir az böyük olsun, əynimə yaxşı otursun.**

# İlham Əliyev "Total Energies" şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.**

Adalet.az xəbər verir ki, görüşdə "Abşeron" yatağında hasilatın başlanılması vurğulandı və layihənin parametrləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Qeyd edildi ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən "Abşeron" yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparıldı, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olundu. Ölkə ərazisində, o cümlədən Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi perspektivi və potensialı müzakirə edildi.

# Prezident dövlət başçılarını təbrik etdi

**Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarova təbrik məktubu ünvanlayıb.**

Adalet.az bildirir ki, təbrikdə deyilir:

"Hörmətli Sadır Nurqojoyeviç,

Qırğız Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram. Keçən il qardaş Qırğızıstana dövlət səfərim zamanı Sizin rəhbərliyiniz altında aparılan genişmiqyaslı islahatların və quruculuq işlərinin ölkənizin hərtərəfli inkişafına və rifahına xidmət etdiyini görməkdən məmnun oldum.

Diplomatik münasibətlərimizin qurulmasından ötən otuz ildə qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Qırğızıstan dostluq əlaqələri möhkəmlənmiş, qarşılıqlı maraq doğuran əməkdaşlığımız davamlı şəkildə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, ortaq köklərə, qardaşlığa, qarşılıqlı inam və etimada əsaslanan dövlətlərarası münasibətlərimizin genişləndirilməsi, yüksələn xətlə inkişaf edən strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Malayziyanın XVI Ali Başçısı əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

"Əlahəzrət,

Malayziyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu il biz Azərbaycan-Malayziya əlaqələrinin tarixində əlamətdar ildönümünü - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdik. Əminəm ki, Azərbaycan ilə Malayziya arasında dostluq əlaqələrini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı maraq doğuran əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Malayziya xalqına daim rifah və firavanlıq arzulayıram".

# XİN Paşinyana cavab verdi

**31 avqust tarixində hökumət iclasında çıxışı zamanı növbəti dəfə Azərbaycanı "soyqırımı" həyata keçirməkdə təqsirləndirən Ermənistanın baş naziri Nikol Paşinyanın heç bir əsas olmadan bu kəliməni bu qədər ucuzlaşdırması Ermənistanın məsuliyyətsiz manipulyasiya fəaliyyətinin təzahürüdür.**

Bu barədə Adalet.az-a Azərbaycan XİN-dən məlumat verilib.

Ehtiyac olacağı təqdirdə erməni sakinlərə yüklərin çatdırılması üçün Ağdam-Xankəndi yolundan istifadə ilə paralel olaraq, Laçın yolundan hərəkətin intensivləşməsi təklifinə qarşı çıxan ermənilərin bəzi nümayəndələrinin təxribatçı addımlarına etiraz etmək əvəzinə, Azərbaycanın erməni sakinləri ac saxladığı ilə təqsirləndirən Baş nazirə xatırlatmaq istərdik ki, hal-hazırda, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Ağdam-Xankəndi istiqamətinə göndərilmiş yük maşınları ərazidə Xankəndinə keçidi gözləyir. Erməni tərəfinin əgər həqiqətən aparılan yüklərə ehtiyacları olsaydı, sülhməramlı kontingent tərəfindən yolun bloklanmasını tələb edərək bu yüklərin əraziyə keçidinə mane olmazdılar.

Erməni sakinlərin yanaşması bir daha göstərib ki, Ermənistanın və erməni sakinlərin bəzi nümayəndələrinin "humanitar vəziyyət" ilə bağlı iddiaları siyasi manipulyasiyadan başqa bir şey deyil.

Laçın yolunun birtərəfli qaydada açılması və erməni sakinlərin qovulması planları barədə iddiaya gəldikdə bildirmək istərdik ki, hal-hazırda erməni sakinlərin Laçın sərhəd buraxılış məntəqəsindən hər iki istiqamətdə keçidinə şərait yaradılır və Azərbaycan tərəfinin bölgədə etnik təmizləmə siyasəti həyata keçirməkdə təqsirləndirilməsi absurddur.

Görünür, 30 ilə yaxın müddətdə nəinki işğal etdiyi Azərbaycan ərazilərindən, hətta 1980-ci illərin sonunadək indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı soyqırımı, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirən Ermənistan tərəfi hər bir dövlətin eyni yanaşma tətbiq etdiyini və eyni anlayışa sahib olduğunu düşünür.

Azərbaycanın ərazi bütövlüyünü sözdə dəstəkləyən Ermənistan Baş naziri yaxşı olardı ki, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətini də dəstəkləsin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı müdaxilələrdən çəkinsin.

Ümidvarıq ki, Ermənistan tərəfi post-münaqişə dövründə bölgədə formalaşmış reallıqları düzgün qiymətləndirəcək və sülhün bərqərar olunması üçün Azərbaycanla danışıqlarda konstruktiv mövqe sərgiləyəcək.

# Milli dövlətçiliyin bərpası

**"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm" - Ulu Öndər Heydər Əliyev (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası 3 sentyabr 1991-ci il).**

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra 22 iyul tarixində Naxçıvana yola düşüb. 30 sentyabr 1990-cı il tarixində Ulu Öndər Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrın 17-də Naxçıvan Ali Soveti müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda, həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Sessiyada qəbul edilən cəsarətli qərarlardan biri də Naxçıvan Muxtar Respublikasının adından "sovet" və "sosialist" sözlərinin götürülməsi idi. Eyni zamanda həmin sessiyada Heydər Əliyevin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə redaktə xarakterli düzəliş deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 yanvar hadisəsinə düzgün siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı respublika rəhbərləri Vəzirovun, Mütəllibovun və b. günahkar olduqlarını qeyd etdi, xalqa kimlərin ona rəhbərlik etmək istədiyini göstərdi.

Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu.Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasındakı çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etdi, böhranın, habelə Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar Ermənistana qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etdi. Onun çağırışını xalq ruh yüksəkliyi ilə qarşıladı. Həmin sessiyadadövlətin adı dəyişdirilərək"Azərbaycan Respublikası"adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Ulu Öndər Heydər Əliyev 1991-ci il iyulun 19-da Kommunist Partiyasından çıxdı.O, SSRİ Nazirlər Kabineti partiya təşkilatına ərizəsində qeyd edirdi: "Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir... bütün bunlar "humanist ideologiyalı" Sovet dövləti üçün adi haldır". Xalq imperiyanın bərpası üçün cəhdlərə onun bu qəti etirazını razılıqla qarşıladı. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasındaUlu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin elan olunması təklifi ilə çıxış etmişdir. Bunun nəticəsində həmin sessiyada"Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyan-



namə qəbul edildi. Həmin ilin oktyabr ayının 18-də isə Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı günü məhz müstəqillik günü kimi dəyərləndirib və bunu obyektiv yanaşmalarla əsaslandırıb: "1918-ci ildə Azərbaycan xalqı müdrik oğullarının fəaliyyəti nəticəsində öz müstəqilliyinə nail ola bildi və Xalq Cümhuriyyəti yarandı. Bununla da Azərbaycanda Şərq aləmində ilk dəfə demokratik, hüquqi dövlət yarandı. Xalq Cümhuriyyəti qısa, yəni 23 aylıq fəaliyyəti dövründə çox işlər gördü. Bu işlərin ən mühümü isə Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsaslarının qurulması oldu. İlk Azərbaycan dövlətinin, hökumətinin təsisatları məhz həmin dövrdə yarandı".

Ağır blokada vəziyyətində inkişafa, yüksəlişə aparan yolun əsası 3 sentyabr 1991-ci ildə qoyulub.1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilib və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. Bu hal qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməsinə meydan açıb. Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil edir.

Ulu Öndər Heydər Əliyev Ali Məclisin sədri vəzifəsinin icrasına başlayandan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul edildi. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların Muxtar Respublikada saxlanılması təmin olundu.

Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilib. Müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafın istiqamətləri məhz burada müəyyənləşdirilib.

1991-ci il 18 oktyabr dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi.Konstitusiya Aktında deyilirdi: "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir".

Dövlət müstəqilliyinin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də itirilməsinə gətirib çıxaracaqdı. Bir-birini əvəz edən Mütəllibov və AXC-Müsavat iqtidarları əslində dövlətçilik deyil, hakimiyyətlərini qoruyub saxlamaq maraqlarından çıxış edir və beləliklə, hələ kövrək olan dövlət müstəqilliyini təhlükə altına salırdılar. Həmin dövrdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər.

Ulu Öndər Heydər Əliyevin siyasi institutların inkişafına verdiyi dəstək sayəsində müstəqil dövlətçilik ənənələrinin inkişafı prosesi başlandı. Ulu ÖndərHeydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilmişdir.Partiya Ulu Öndər ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Ulu Öndərin təcrübəsi və siyasi peşəkarlığı sayəsində YAP ölkənin ən böyük və effektiv siyasi qüvvəsinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev ölkəni gözləyən bütün təhlükələri dəf etməklə Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu. Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra səmərəli dövlətçilik konsepsiyası, iqtisadiyyatın dirçəlişi strategiyası və azərbaycançılıq fəlsəfəsinin əsaslarına uyğun olaraq demokratik inkişaf reallaşdı.

İnsan hüquq və azadlıqlarının qorunması ilə davamlı demokratik islahatlar kursunun həyata keçirilməsinə başlanıldı. Bütün insan hüquqları, o cümlədən söz, mətbuat azadlığı, şəxsiyyətin toxunulmazlığı təmin edildi. Ölkəmizdə tarixən mövcud olmuş tolerantlıq mühiti daha da möhkəmləndirildi, vətəndaş cəmiyyətinin formalaşdırılması yolunda köklü irəliləyiş əldə olundu. Bütün bunlar Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyasında təsbit edildi.

Ulu Öndərin rəhbərliyi ilə başlanan islahatlar nəticəsində dövlət idarəçiliyinin bütün sahələri dünya standartlarına uyğunlaşdırıldı. Heydər Əliyevin uzaqgörənliyi ilə mütərəqqi dövlət quruculuğuna start verildi, dövlətçiliyin başlıca prinsipləri formalaşdırıldı, vətəndaşla dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan sosial sabitliyin təməli qoyuldu və dövlət cəmiyyətin bütövlüyünün tam təminatçısına çevrildi.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək, 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək,Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublika-sının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında konstitusiya qanunlarına əsaslanaraq,Azərbaycan xalqının müqəddəratı və azad inkişafının təmin olunması üçün məsuliyyətini dərk edərək,Milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulan bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək,Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq,Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutaraq,Respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək,Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək, SSR İttifaqına daxil olan bütün respublikalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək,Beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabər hüquqlu münasibətlər yaratmağa hazır olduğunu bildirərək,Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olduğunu elan edir.

**Hazırladı:**
**Mehriban Cəfərova**

*__Aqil ABBAS__*

# MEHRİBAN ƏLİYEVA AD GÜNÜNÜ LAÇINDA LAÇINLILARLA KEÇİRTDİ

***Cənab Prezident İlham Əliyev özünün 50 illik yubileyini Ağcabədidə laçınlıların məskunlaşdığı Taxta körpüdə ev-eşiklərindən didərgin düşmüş Laçın qaçqınları ilə keçirtdi. Bu görüşdə çox vacib və ciddi bir çıxış da etdi və Laçın camaatının tezliklə öz yurd-yuvalarına qayıdacaqlarını qətiyyətlə bildirdi. Həmin vaxt Taxta körpüdə yeni tikilmiş qəsəbənin açılışını da etdi.***

***Möhtərəm Prezident həmişəki kimi sözünü tutdu. Onun sərkərdəliyi ilə Milli Ordumuz Laçın şəhərini və kəndlərini düşmən işğalından azad etdi. 2022-ci il avqustun 25-də axırıncı erməni namərdcəsinə evini yandırıb Laçını tərk etdi. Qısa bir müddətdə - 8 ay ərzin-***



***də Laçın şəhəri yenidən tikildi və bərpa olundu. Eləcə də Zabux kəndi yenidən inşa edildi. Və laçınlıların Laçına böyük qayıdışı başladı. Doğma yurd-yuvalarına qayıdan insanların üz-gözündəki sevinci sözlə ifadə etmək çətindir. Onun necə bir hiss olduğunu yalnız o hissi keçirənlər bilir.***

***Mən də bu hissləri hər dəfə Ağdama gedəndə keçirirəm və keçirdiyim hissləri də yazıram, "Ədalət" qəzetində çap edirəm. Hələ nəvələrimi də aparmışdım.***



***Mən Ağdamda özümü necə xoşbəxt hiss edirəmsə, laçınlılar da öz doğma şəhərlərində özlərini məndən ikiqat artıq xoşbəxt hiss edirlər. Çünki onların şəhərləri artıq tikilib və tikilməkdə də davam edir. Yəqin ki, bir gün mən də özümü laçınlılar kimi xoşbəxt hiss edəcəm.***

***İlham Əliyev öz 50 illiyini Taxta körpüdə məcburi köçkünlərlə keçirmişdi, Mehriban xanım Əliyeva isə öz ad gününü Laçında, 31 ildən sonra öz doğma yurd-yuvalarına qayıtmış laçınlılarla keçirtdi. Bundan da gözəl bir gün ola bilərmi?!***



***Mehriban xanım laçınlı anaları, gəlinləri, uşaqları bağrına basıb onlara gözaydınlığı verdi. Analar sevinc göz yaşlarını saxlaya bilmirdi.***

***Azərbaycanın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş şəhərlərimizdə, eləcə də Laçında gördüyü işlərin əvəzi yoxdur. Onun Azərbaycan təhsilinə, mədəniyyətinə, incəsənətinə verdiyi töhfələr indi də işğaldan azad olunmuş şəhər və kəndlərimizdə qızılgül kimi çiçəkləməkdədir.***

***Ad günü münasibətilə Mehriban xanım Əliyevanı ürəkdən təbrik edir, ona və ailəsinə can sağlığı, xoşbəxtlik arzulayırıq. Azərbaycanın müstəqilliyi, azadlığı, Azərbaycan təhsilinin, mədəniyyətinin, incəsənətinin inkişafı uğrunda apardığı xoş məramlı işlərdə daha böyük uğurlar arzulayırıq.***

***Və onu da arzulayırıq ki, növbəti ad günlərini Ağdamda, Füzulidə, Kəlbəcərdə və işğaldan azad olunmuş bütün Qarabağda keçirsin.***

# Ekspert: "Sərsəng su anbarı Azərbaycanın nəzarətinə keçməlidir"



**Qəza vəziyyətində olan Sərsəng su anbarında yaranmış fəlakət riski ilə əlaqədar bəyanat verilib. Azərbaycanın vətəndaş cəmiyyətini təmsil edən qeyri-hökumət təşkilatları birgə bəyanat verərək Sərsəng su anbarında yaranmış qəza vəziyyəti əlaqədar dərin narahatlıqlarını bildiriblər. Məsələ ilə bağlı**

Adalet.az-a açıqlama verən Yaşıl Dünya Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşən Sərsəng su anbarının qəzalı vəziyyətdə olduğunu bildirib: "Bununla bağlı Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü qeyri-hökumət təşkilatları beynəlxalq ictimaiyyətə müraciət edib. Hesab edirik ki, 47 ildir istismarda olan Sərsəng su anbarının bəndləri möhkəmdirilməli, hidrotexniki qurğuları yenilənməlidir. Sərsəng su anbarı 1976- cı ildə Tərtər çayı üzərində salınıb. İşğala qədər Azərbaycanın Ağdam, Ağcabədi ,Tərtər, Bərdə, Goranboy və Yevlax rayonlarının 100 min hektarlarla əkin sahəsi suvarma suyunu buradan götürürdü. 1993- cü ildə Tərtər-Kəlbəcər yolunun Ermənistan silahlı qüvvələrinin işğalı altına düşməsindən sonra Sərsəng su anbarı da düşmənin nəzarətinə keçdi. Ermənilər Azərbaycanın bütün təbii resursları barbarca talan etdiyi kimi Sərsəng su anbarını da normalardan kənar şəkildə istismar etdi. Qış aylarında anbardan buraxılan su Azərbaycanın əkinə yararlı sahələrini basır, torpağın şoranlaşmasına səbəb olurdu. Bizim tələbimiz odur ki, Sərsəng su anbarı Azərbaycanın müvafiq dövlət qurumlarının nəzarətinə verilsin. Təsəvvür edin normadan artıq yağıntı düşsə, anbar su ilə dolsa, daşqın təhlükəsi yaranacaq. 100-lə yaşayış məntəqəsi sel təhlükəsi ilə üz-üzə üzə qalacaq. Ermənilər əslində bizim üçün nəticəsi olduqca qorxulu ekoloji, humanitar fəlakət hazırlayırlar. Bunu önləmək üçün Sərsəng su anbarı Azərbaycanın nəzarətinə keçməlidir.

**Əntiqə Kərimzadə**

# "Yaxın günlərdə Qarabağda proseslər gərginlik xəttinə keçəcək..."



**"Ermənistanla sülh müqaviləsinin bağlanması sual altındadır. Ermənistan sülh üfüqdə belə görünmür. Fransa, İran və Rusiya Ermənistanı Azərbaycanla sülh müqaviləsinin bağlamasına imkan verməyəcək"**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq daha sonra bunları əlavə edib: "Ermənistan Baş naziri sülhə mane olan "Müstəqillik aktını" dəyişsə, sülh müqaviləsi tezliklə bağlanmayacaq. Ona görə də Azərbaycan hərbi cəhətdən güclənməli və erməniləri Qarabağdan tam çıxarmalıdır. Fransa Qarabağda ermənilərə "Humanitar yük" göndərəcək. Azərbaycan sərhəddinə tam nəzarəti bərpa edib. Heç bir ölkə Azərbaycanın icazəsi olmadan sərhəddən keçə bilməz. Fransanın bu siyasəti açıq şəkildə Azərbaycanın suverenliyinə təhdiddir. Yaxın günlərdə proseslər gərginlik xəttinə keçəcək.

Azərbaycan Ermənistandan tərəfindən tam girişi bağlamalı, yalnız Qarabağdan birdəfəlik gedənlərə icazə verməlidir. Azərbaycana qarşı bu təhdid siyasəti heç də Laçın yolu və guya blokada məsələsi deyil. Regionda sülhə mane olmaq və Cənubi Qafqazda qeyri-sabitliyi saxlamaqdan ibarətdir. Ermənilərdən alət olaraq istifadə edilir".

**Vasif Əlihüseyn**

# Politoloq: "Makronun diplomatik deyil, digər vasitələrdən istifadə edəcəyini vurğulaması..."



**"Azərbaycan Fransadakı səfirini məsləhətləşmək üçün Bakıya çağırmalıdır. Diplomatik əlaqələri aşağı səviyyəyə salınmalıdır. Rəsmi Paris Azərbaycana qarşı düşmən siyasəti ortaya qoyub. Bütün qırmızı cizgiləri keçiblər"**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloq Türkiyənin proseslərə müdaxiləsinin labüd olduğunu bildirib:

"Fransa prezidenti Makronun diplomatik deyil, digər vasitələrdən istifadə edəcəyini vurğulaması ölkəmizə qarşı təhdiddir. Fransanın Ermənistan ərazisindən Laçın nəzarət buraxılış məntəqəsin silahlı müdaxiləyə cəhd etməsi qalmayıb. Fransanın bu siyasəti dişsizdi. Türkiyənin proseslərə müdaxiləsi labüddür.

Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlunun yeri görünür.

Hər gün Azərbaycanla bağlı təhdidlərə qarşı Ankaranın mövqeyini ortaya qoyaraq dəstəkləyirdi. Yeni nazir Hakan Fidan səssiz diplomatdı, işinin kəşfiyyat işinin peşəkarıdır. Amma, xarici işlər naziri postu danışan və reaksiya verən diplomat üçündür. Hakan Fidan daha çox pərdəarxası məqamlardadı".

**Vasif Əlihüseyn**

*Rüstəm Hacıyev*



## Ukrayna dronları rusların qorxulu yuxusuna çevrilir

**Rusiyanın müdafiə nazirliyi və yerli hakimiyyət bildirir ki, Ukrayna hərbi qüvvələri 30 avqust gecəsi, Mockva, Pskov, Ryazan, Kaluqa, Bryansk və Orlov vilayətlərinə, həmçinin Sevastopola dron hücumları həyata keçirib. Pskovda dron hücumları zamanı FHN-nin İl-76 yük təyyarəsi yanıb, 4 təyyarə zədələnib. Şahidlərin dediyinə görə, aereporta hücumda 20-yə yaxın dron iştirak edib. ”Rusiya ilə birlikdə” hərəkatının sədri Vladimir Roqov bildirib ki, hava hücumundan müdafiə sistemləri dronları məhv etməyə çalışıb. Hadisə baş verdikdən sonra, Pskov Vilayətinin qubernatoru Mixail Vedernikov Pskov hava limanından bütün uçuşların dayandırıldığını bəyan edib. Moskva şəhərinin meri Sergey Sobyanin bildirib ki, paytaxta tərəf uçan dron Ruzsk rayonu ətrafında zərərsizləşdirilib. Dronların hücumu ilə bağlı paytaxtın hava limanlarında 40-a yaxın təyyarənin havaya qalxmasına icazə verilməyib. Liman şəhəri Sevastonol da zərbələrə məruz qalıb. Şəhər rəhbəri Mixail Razvojayev bildirib ki, sualtı qayıqlara qarşı diversion qruplar, dənizdən dron hücumlarının aarşısını almağa müvəffəq olublar.**

**Rusiyanın müdafiə nazirliyi, Bryansk vilayətində təyyarə tipli dronların hücumlarının qarşısı alımıb.**

**Səhər saat 8:19-da iki pilotsuz uçuş aparatı teleqülləyə hücum etməyə cəhd edib. Görünən odur ki, Rusiya-Ukrayna müharibəsi təkcə Ukrayna ərazilərində deyil, həmçinin Rusiya ərazilərinə də keçir. Ukraynanın pilotsuz uçuş aparatlarının qəfil hücumları rusların qorxulu yuxularına çevrilir. Rusiya vətəndaşları çaşqınlıq və təlaş içərisindədirlər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov baş verən dron hücumları ilə əlaqədar bəyan edib ki, bu hücumların qarşıslnın alınması üçün Ukraynaya qarşı aparılan ”xüsusi əməliyyat” (əslində müharibə...) sinadək davam etdiriləcək.**

**Son isə görünmür, bir neçə günə Kiyevdə Rusiya bayrağının dalğalanacağını bəyan edən rus hərbi generaliteti, il yarımdı heç nə əldə edə bilməyib və bundan sonra da nəsə əldə edəcəyi inandırıcı görünmür.**

*Eminquey*



## Həkimi nəbatat Madam İdalqonun "humanist"liyi

**Həkimi-nəbatat Müsyö Jordan yadınıza düşür də. Guya səbəbi ziyarəti bu idi ki, bizdən bir növcavanı aparıb təhsilzad versin, yetişdirib 1 il içində yollasın təzədən Qarabağa. Bəylərin də övrəti bir Dərvişin sehri ilə Parisi darmadağın eləmişdi və Müsyö Əli aşından da olmuşdu, Vəli aşından da.**

**Mirzə Fətəli kişi elə-belə yazmamışdı ki bu əsəri.**

**İndi o Müsyö Jordan qiyafəsini, ismini, cinsini dəyişib Madam Ann İdalqo adı ilə gəlib çıxıb düz sərhəddimizin dibinə. Özünə humanist bir nitq də seçib. Parisin meri olan bu Madam İdalqo 9 ay ərzində ”təcrid olunan” 120 min ”artsax ermənisi”, 30 min uşağın ac qalmasına, hər şeydən məhrum olunmasına humanitar fəlakət adı qoyub və gəlib ki, öz tumanitar ”həmvətən”lərinin yaralarına təbiblik eləsin.**

**Öz Parisində həftə səkkiz, mən doqquz mitinqdi, gül bülbülə bağırır, bülbül polisə, gəlib ki mən Xankəndidəki erməni soydaşlarımın yaralarını aqunust, serastrum otları ilə sağaldacam.**

**Sənə Xankəndinə gəlmək üçün vizanı kim verib, ay Madam İdalqo? Yaxşı, indi özündə cəsarət tapmısan, gəlib çıxmısan sərhəddə. Nə olar, eybi yox, səni oradan dala qaytarmaq müşkül iş deyil. Bəs Gəncəyə, Tərtərə raket atılanda, insanlar vəhşicəsinə öldürüləndə harda idin, ay humanitar fəlakət mələyi? Siz avropalılar axı insanlıq üçün yaşayıb yaradırdınız?**

**Nə oldu, insanlıq ideyalarınız, humanitar yardımlarınızı ancaq erməniyə rezerv etmisiniz?**

**Əgər belədirsə, mən də sabah Parisdə etiraz edən yüzlərlə fransalıya, daha doğrusu, əzilən, döyülən yüzlərlə fransalıya yardım tırlarını da salım dalımca, gəlim Fransa sərhəddinə. Humanitar fəlakətin buynuzu olur?!**

**Bu necə humanitar yardımdı ki, biz göndərəndə ermənilər pıx deyir, siz göndərəndə əla?! Biz də şəhərimizin Merini göndərək? Bu xəmir çox su aparacaq. Və bu xəmirin unu da, suyu da bizlikdir. ”Erməniyə dayı de, çörəyinin xətrinə” dövrü keçib. İndi guya çörək qıtlığl yaşayan erməniyə lazımdırsa, çörəyi də biz veririk, dayı da bizik, əmi də.**

**Get, şəhərinin ununa, əppəyinə qol çırmala. Elə eləmə ki, Dərvişi işə salaq, ”Pağis dağıldi” deyib minməyə at axtarasan...**

# "Biz sabah da, biri gün də Qarabağdakı erməniəsilli şəxslərə yardım göndərə bilərik"

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməniəsilli şəxslər üçün humanitar yardım göndərib.Avqust ayının 29 - da yola düşən humanitar yardım karvanına ilkin mərhələ üçün 40 ton un məmulatları daxildir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan jurnalistlərə açıqlamasında bildirib ki, gələcəkdə qiymətləndirmə prosesini həyata keçirə bilsələr, erməniəsilli şəxslərin digər ehtiyacı olduğu ləvazimatları da çatdıra bilərlər.**

Humanitar yardım Ağdam-Xankəndi yoluna çatıb. Rusiya sülhməramlılarının rəhbərliyi Azərbaycan Qızıl Aypara Cəmiyyətindən yükün keçirilməsi ilə bağlı vaxt istəyiblər. Bölgədəki Azərbaycan postu ilə sülhməramlıların postu arasında çadırlar qurulub. Çadırlarda cəmiyyətin əməkdaşları, könüllülər gecələyir və istirahət edir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş katibinin müavini Elşən Səlimzadə jurnalistlərə məlumat verərərk bildirib ki, ”biz humanitar yardım gətirmişik, Qarabağdakı ermənilərə 40 ton un məmulatı şəklində humanitar yardım keçirmək niyyətimizi ifadə etmişik.

İndi Qarabağın erməni əhalisindən və Qarabağdakı sülhməramlı kontingentin rəhbərliyindən cavab gözləyirik.

Qızıl Aypara Cəmiyyəti üçün nə dəri rəngi, nə dil, nə də din önəmli deyil, biz hər kəsə, o cümlədən, Azərbaycanın erməni əhalisinə kömək etməyə borcluyuq”.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan jurnalistlərə açıqlamasında bildirib ki, texniki məsələləri həll edəndən sonra yardımları həyata keçirəcəyik: ”Texniki məsələlər həll olunandan sonra yardımları həyata keçirəcəyik. Bir çox mexanizmlər mövcuddur ki, biz bunu icra edə bilərik. Sülhməramlı qüvvələrlə mütəmadi olaraq danışıqlar gedir. Bizim tərəfdaşlarımız da prosesi izləyirlər və lazım olanda onlar da buna qoşula bilərlər”.

N.Aslan qeyd edib ki, biz sabah da, biri gün də Qarabağdakı erməniəsilli şəxslərə yardım göndərə bilərik. Onun sözlərinə görə, Qızıl Aypara Cəmiyyətinin




imkanları o qədər də az deyil: ”Bizim iki humanitar karvanı göndərməkdə əsas məqsədimiz ondan ibarət olub ki, görək vəziyyət necədi və burada hansı hadisələr baş verir. Hələlik işlər pis getmir. Əgər müsbət nəticə olarsa, qiymətləndirilmə keçirilərsə, insanların hansısa ərzağa və ləvazimatlara tələbləri olsa, Azərbaycan Qızıl Aypara Cəmiyyəti bunu da etməyə hazırdır. Biz sabah da, biri gün də yardım göndərə bilərik. Hər şey kommunikasiyadan asılıdır. Müvafiq danışıqlar getməlidir və ehtiyaclar müəyyənləşdirilməlidir”.

”Mən hesab etmirəm ki, Qarabağda erməniəsilli şəxslərin yaşadığı yerlərdə fəlakət var” - deyən cəmiyyətinin prezidenti bildirib ki, ”Bizim tərəfdaşlar soruşa bilərdilər ki, Qızıl Aypara Cəmiyyəti nə üçün gecikib? Biz orada problemin olub-olmamasını müəyyən etməliyik. Ancaq mən hesab etmirəm ki, Qarabağda erməniəsilli şəxslərin yaşadığı yerlərdə fəlakət var. Bu, mənim subyektiv mövqeyimdir. Ancaq bizim tərəfdaşlarımız tərəfindən müəyyən rəylər var. Onların rəylərinə əsasən, biz də müəyyən narahatlığın olduğunu və sülh məramımızı göstərmək üçün həmin insanlara yardım etmək qərarına gəlmişik”.

O bildirib ki, əgər çətinlik və böhran varsa, ərzaq yardımını qəbul etmirlərsə, çoxlu sual yaranır: ”Birinci sual yaranır ki, əgər ehtiyac varsa, humanitar yük nə üçün qəbul edilmir? İkinci sual, əgər biz insanıqsa, dəyərlərimiz varsa və Yaradanımız birdirsə, bu ədavət nə vaxta qədər davam edə bilər? Biz bunları nəzərə almalıyıq. Biz ortaya xoş məram qoyuruq. Azərbaycan Qızıl Aypara Cəmiyyəti olaraq missiyamız çərçivəsində ölkənin hər yerində, o cümlədən, Qarabağ iqtisadi zonasında, Xankəndidə həssas təbəqəyə yaxın olmağa hazırıq”.

Novruz Aslan bildirib ki, ”Bizim əraziyə girişimiz təmin olunsa, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin mütəxəssisləri tərəfindən bu qiymətləndirmə aparıla bilər.

Mən özüm də bu qiymətləndirməni keçirə bilərəm. Biz bu işə tərəfdaşlarımızı, xarici ekspertləri də cəlb edə bilərik. Mən burda heç bir problem görmürəm”. Onun sözlərinə görə, əsas məsələ kommunikasiya və dialoqun qurulmasıdır: ”Əsas bu xoş niyyəti tətbiq etməkdir. İki-üç nəfərin mövqeyinin Xankəndinin erməni əsilli əhalisinə heç bir aidiyyəti yoxdur. Mən inanıram ki, oradakı əhalinin böyük hissəsi artıq bu proseslərdən yorulub və onlar bütün dünyaya humanizm prinsiplərini göstərməlidir. Qızıl Aypara Cəmiyyəti xoş niyyətlə gəlibsə, onlar da buna təmkinlə, hörmətlə, səbrlə yanaşmalıdır. Biz heç kimə güclə yardım etmək niyyətində də deyilik. Bu, bir addımdır ki, dilindən, dinindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, bunu müsbət qarşılamaq hər kəsin borcudur. Belə fikirlər səslənir ki, bizə müraciət olmayıbsa, niyə yardım göndəririk? Biz niyə müraciət gözləməliyik? Biz bilirik ki, ehtiyac ola bilər, ona görə də bu addımı atırıq”.

Qeyd edək ki, Ermənistan hakimiyyəti başda olmaqla Qarabağdakı separatçı rejim qalıqları artıq uzun zamandır müxtəlif yollarla dünya ictimaiyyətini, beynəlxalq təşkilatları inandırmağa çalışırlar ki, guya Azərbaycan Laçın yolunda sərhəd buraxılış məntəqəsi qurmaqla Qarabağ ermənilərini blokadaya alıb, onlar üçün humanitar böhran vəziyyəti yaradıb, guya ermənilər ərzaq çatışmazlığı ilə üz-üzədirlər.

Bölgədə guya ”gərgin humanitar vəziyyət”, ”blokada”nın mövcudluğu ilə bağlı manipulyasiyalarını davam etdirən Ermənistanın erməni sakinlərin tələbatlarının ödənməsi üçün Laçın yolu və digər alternativ yollardan istifadə ilə bağlı məsələlərin həll olunması üçün əldə olunmuş razılaşmalara əməl etmək əvəzinə, sülh prosesinə maneə törədir.

Azərbaycan tərəfi isə növbəti dəfə humanist yanaşma sərgiləyərək Qarabağda yaşayan erməniəsilli vətəndaşlar üçün humanitar yardım göndərir.

**Nicat Novruzoğlu**

# Nankorluğu istedadını üstələyən rəssam Gündüz və ermənilər...

**Azərbaycanlı rəssam və karikaturaçı Gündüz Ağayev istedadsız deyil. Çox istedadlı və sahəsində uğur qazanmağı bacaran biridir. 1998-2002-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil aldıqan sonra İlk sərgisini 2004-cü ildə keçirib.**

Sayca ikinci sərgisi Bakı Muzey Mərkəzində baş tutub. Gündüz Ağayevin əsərləri yalnız Azərbaycanda deyil, həmçinin Rusiya (2008), Türkiyə (2011), Fransa səfirliyinin təşkilatçılığı ilə 2012-ci ildə ”Dostluq” və 2013-cü ildə Türkmənistanda beynəlxalq sərgilərdə sənətsevərlərə təqdim olunub. Amma bəzən başından yekə hərəkərləri, yaxşını- yamandan, doğrunu yalandan ayıra bilməmək cəhdləri onun istedadını da, bacarığını da heçə döndərir. 2014-cü ildən xaricdə yaşayan Gündüz biləsuvarlılıqdan çıxıb olub bir avropalı. Azərbaycanlıların əvvəllər demirəm son 35 ildə Qarabağda hansı problemlə yaşadığını, qız gəlinlərinin zorlandığının igidlərinin başının kəsilməsini, uşaqların, qocaların, xəstələrin oda atılaraq yandırılması, yurd-yuvalarının işğal edilərək talanması haqqında elə bil heç nə eşitməyib.




Amma eşitməmiş olmazdı. Ən azından həmyerlisi Mübariz İbrahimovun niyə şəhid olduğunu bilməmiş olmaz.

Bunları bilə-bilə Qarabağdan ermənlər tərəfindən qovulmuş köçkünlərə hörmətsizlik, Azərbaycanın Qarabağ siyasətinə, xalqına, dövlətinə nakorluqdur! Nankordursa, bu xalq üçün elə erməni qədər düşmənidir.

Azərbaycanşünas alimi Tatevik Ayrapetyan azərbaycanlı, istedadlı Gündüzün , nankorluq, hörmətsizlik ifadə edən karikaturasına öz facebook səhifəsində belə izah verir:”Hətta azərbaycanlılar öz hakimiyyətlərinin Artsaxa göndərdiyi ”humanitar” yardımı ələ salırlar. Azərbaycanlı karikaturaçı Gündüz Ağayevin bu şəklində belə yazılıb: ” Yol verin, humanistlər gəlir”. Gördüyünüz kimi, maşınların arxasında dəyənəklə silahlanmış azərbaycanlı polislər var”.

Hazırda həmin foto erməni sosial şəbəkə izləyiciləri tərəfindən sürətlə paylaşılır. Bəlkə, o fotonu ermənilər beynəlxalq təşkilatlara göndərib bəzi iddialarında doğru olduqlarını da təsdiqləyiblər. ”Bizim Cəbiş müəllim” filmində Namiq siçovulu yandıran Makedona bir şillə vurur. Cəbiş müəllim dava etməyə hazırlaşan gəncləri ayırıb üzünü Makedona tutur və deyir: ”Əgər bir vaxt başa düşsən ki, səni nə üstə vurdular, bəlkə onda səndən bir adam oldu”

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# O BAYRAĞIN DİRƏYİNİ ADAMIN BİR YERİNƏ...

***Məlum videonu görmüsünüz, erməni futbolçular zala girərkən Azərbaycan Bayrağını tapdalayıb keçirlər, hətta bəziləri Azərbaycan Bayrağına tüpürür. Alçaqlıqdır. Görünür, gəncdilər, Macarıstanda Bayrağımızla ayaqqabılarını silən erməni zabitinin Ramil Səfərov tərəfindən baltalanmağını ya eşitməyiblər, ya da unudublar.***

***Ümumiyyətlə, hər hansı bir millətin bayrağını təhqir eləməyi, yandırmağı əclaflıq sayıram. Sən o bayrağı tapdalaya bilərsən, yandıra bilərsən, amma millətin Bayrağı elə bir ucalıqdadır ki, ona əlin çatmaz.***



***Atatürk İzmirə ayaq basarkən qərargaha qalxanda görür pilləkana Yunanıstanın bayrağını səriblər. Soruşur ki, bu nədi? Cavab verirlər:***

***- Paşam, yunan generallar bu qərargaha qalxanda ayaqlarının altına bizim bayrağı sərmişdilər və böyük şövqlə tapdalayıb keçirdilər.***

***- Qaldırın o bayrağı, o, bir millətin bayrağıdır!***

***İndi siz İrəvanda Bayrağımızı tapdalaya bilərsiniz, yandıra bilərsiniz, amma Qarabağda, Şuşada, Laçında, Ağdamda və sair ucaltdığımız bayraqları endirməyə, təhqir eləməyə filan yeriniz çatmaz. O bayraqların dirəklərini sizin filan yerinizə soxarıq. Necə ki 44 günlük müharibədə bunu etdik. Hətta Möhtərəm Prezident İlham Əliyev də Paşinyana xitabən Qarabağda qaldırdıqları və bizim əsgərlərin endirdiyi Ermənistan bayraqlarını neyləmək lazımdır əl jesti ilə göstərdi.***

***İndi Laçın sərhəd keçid məntəqəsində saxlanılan üç idmançını gənc olduqlarından və etdikləri əməldən peşmançılıq çəkdiklərinə görə bağışladıq. Çünki biz böyük millətik. Və yəqin onları da başa saldıq ki, o Bayrağın dirəklərini sizin filan yerinizə...***

***Yadınıza düşürsə, Şimali Kiprdə yunanlarla sərhəddəki bayrağı endirmək üçün bir yunan dirəyə dırmaşmışdı. Əli bayrağa çatanda türk əsgəri onu təpəsindən atdı ki, murdar əli bayrağa dəyməsin. O da təpəsi üstə gəldi yerə.***

***Baxıram Amerikanın bayrağını yandırırlar, Rusiyanın bayrağını yandırırlar, hansı axmaqsa ”Quran”ı yandırır. Sən kitabı yandıra bilərsən, amma o kitabdakı Allahın sözlərini, o sözlər ki iki milyarddan çox insanın beyninə hopub, ruhuna hopub, qəlbindədir, onu yandıra bilməzsən. Mənim həmişə dediyim bir söz var, o məşhur şeirdə deyilir ki: ”Bayrağı bayraq edən üstündəki qandır”.***

***Mən də deyirəm ki, bayrağı bayraq edən üstündəki qan deyil, bayrağı bayraq edən onu başının üstündə ucaldan və enməyə qoymayan millətdir. Necə ki bir millət kimi o bayrağı Şuşada, Laçında, eləcə də Birləşmiş Millətlər Təşkilatının önündə ucaltmışıq.***

***Heç yadımdan çıxmaz. 93-cü ildə Amerikaya səfər edəndə BMT-nin qabağında ucaldılan bayrağı görəndə həmin bayraq asılan dirəyi qucaqlayıb sevincdən ağlamışdım ki, ay Allah, gör bizim millətin bayrağı harda ucaldılıb.***

***Tanrı Milləti qorusun!***

***Tanrı Bayrağımızı qorusun!***

***Və Tanrı o Bayrağı ucaldanları qorusun!***

## *Hərbi ekspert: “Qarabağda ərzaqla bağlı hansısa bir problemlər mövcuddursa...”*

**”Otuz illik işğal dövründə ermənilər azərbaycanlılara qarşı kifayət qədər çox sayda cinayətlər törətdilər. Lakin bütün bunlara baxmayaraq Azərbaycan yenə də Qarabağda olan vətəndaşlarını nəzərə alaraq onlara humanitar yük göndərməklə nə qədər humanist bir dövlət olduğunu bir daha dünyaya nümayiş etdirdi”**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Ekspert daha sonra bunları əlavə edib:

”Azərbaycanın göndərdiyi humanitar yardım artıq Əsgəran rayonunun girişində rus kontingentinin nəzarət-buraxılış məntəqəsinin yaxınlığında dayanıb. Əgər həqiqətən də Qarabağda ərzaqla bağlı hansısa bir problemlər mövcuddursa, o zaman erməni icmasının nümayəndələri həmin bu yükü almaq üçün Ağdam-Xankəndi yolunun açılmasını təmin etməlidirlər.

Yəni biz öz yardım əlimizi uzatmışıq, erməni tərəfi istəyərsə, bunu qəbul edər, istəməzsə, etməz. Bu, onların öz işləridir. Amma əgər bu təklif qəbul edilmirsə, deməli Qarabağda ərzaq qıtlığı ilə bağlı bu günə qədər qaldırılan hay-küyün heç bir əsası yoxdur”.

**Vasif Əlihüseyn**

# *Ekspert:* "Qızıl Ay"a maneə də, Fransanın 10 TIR yardımı da siyasi əxlaqsızlıqdır"

**Xəbər verdiyimiz kimi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Xankəndiyə göndərdiyi humanitar yardım ötən gündən Ağdam-Xankəndi yoluna çatıb. Amma ”acından ölən” ermənilər yardımı qəbul etmək fikrində deyillər. Bundan başqa Fransa şəhərləri 10 TIR-la Qarabağ erməniləri üçün ”humanitar yardım” göndərib, hətta ”yardımı” Paris meri şəxsən müşayiət edir. Artıq yük Laçın dəhlizinə yaxınlaşıb. Ermənilər bununla nə demək istəyir? Dünyaya hansı mesajı göndərmək fikrindədir.**

Adalet.az xəbər verir ki, hüquqşunas, İqtisad üzrə fəlsəfə doktoru, ekspert Cavid İsmayıl mövzu ilə bağlı suallarımızı cavablandırdı. O, bildirdi ki, Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələr var:”Azərbaycanın şanlı tarixinin 44 günlük Vətən savaşı səhifəsini həzm edə bilməyənlər və eyni zamanla bu şərəf tarixinin yazıldığı dövrdən regionda yeni reallıqlar yaradan və bu reallığı diktə edən Azərbaycanın olduğunu qəbul edə bilməyən mənəviyyatdan, insani keyfiyyətlərdən, beynəlxalq hüquqdan uzaq olanlar az qala Azərbaycana bu aspektdə dil uzadırlar. Anti türk, anti islam və ümumiyyətlə insanlığa, haqqa, ədalətə və beynəlxalq hüquq və normalara








qarşı olan ”demokratiya” və ”insan hüquqları müdafiəçiləri” indi də başlayıblar ”humanitar yardım” adı altında siyasi əxlaqsızlığa. İndi Azərbaycan ”Qızıl Ay”ın vasitəsi ilə, Xankəndi ermənilərinə yardım göndərsə də, onlar bunu qəbul etmir və əksinə olaraq publik şəkildə yenə də təhdid dili ilə danışırlar”.

**- Maraqlıdır ki, separatçıların müraciət etdikləri beynəlxalq aləm onlara: ”acsınızsa, niyə 40 ton undan imtina edirsiniz” demir?**

-Bəli, hər kəsə aydındır ki, Xankəndidə kifayət qədər ərzaq var və onların əsas məqsədi heç də ərzaq məsələsi deyil. Sadəcə bu xətt üzərində öz aləmlərində beynəlxalq təziq vasitəsi olaraq Azərbaycana qarşı istifadə etmək və öz çirkin əməllərinə nail olmaqdır. Təbii ki, bu xülyadır və buna onlar nail ola bilməyəcəglər.

Hər kəs anlamalıdır ki, Azərbaycn güclü dövlətdir və onun dəmir iradəyə sahib olan güclü lideri var.

Cənab prezident dəfələrlə bütün mötəbər kürsülərdən səsləndirib; ”Bizə heç kim təziq edə bilməz!” Ermənilər anlamalıdırlar ki, onlar tarixən siyasi masa üzərində sadəcə olaraq siyasi məqsədlər üzərində istifadəyə çıxarılan bir toplumdur. Bu masa üzərində isə müftəlif dövrlərdə əsrlərdir istifadə edildiyindən artıq üfunət iyi verirlər. Bir qədər sonra isə bunlar istifadə müddətini keçən bir tullantı kimi kənarda qalacaqlar, mütləq qalacaqlar- deyə ekspert vurğulayıb.

Qeyd edək ki, hazırda içərisində 40 ton un məmulatları olan iki TIR dünəndən etibarən Ağdam-Xankəndi yolunun üzərindəki Rusiya sülhməramlılarının postunun qarşısında gözləyir.

**Əntiqə Rəşid**

# Bu humanitar yardımı 44 ton elə, qoy çartlasınlar də...

**Deməli, bu gün Bakıdan Xankəndi şəhərinə 40 ton humanitar yardım göndərilib. Dünyaya üzünü- başını cıraraq ”acından ölən”, ”Holokosu Xankəndidə yaşayan”, blokada ”soyqırım”ına məruz qalan erməni separatçı və terrorçuları Azərbaycanın humanitar yardım addımına qarşı aqressiv münasibət göstərməyə başlayıb.**

Qarabağda yaşayan separatçılar sosial şəbəkə hesabında yardımı rədd edəcəklərini yazırlar. Hələ bir separatçı var. David Minasyan! O özünün Feysbuk səhifəsində ”Türk çörəyinə əsla ehtiyacımız yoxdur. Əgər ”artsax”a girsələr, bu maşınları məhv edəcəyik” paylaşımını edib.

Minasyan eyni zamanda Azərbaycanın humanitar yardımının Xankəndiyə girişini əngəlləmək üçün hamıya çağrış edib. Yenildiklərini , dalana dirəndiklərini qəbul edə bilməyən bu erməni soysuzları doğma torpağımızda bizə ”qabaqdan gəlmişlik” edirlər.

Bayaqdan düşünürəm ki, ac adamlar, ”aclıqda maşın vurub öldürən” adamlar əslində gələn 40 tonluq yardıma sevinməli , hələ bir Azərbaycan hökümətinə xeyir-dua etməliydilər.

Bayaqdan fikirləşirəm ki, bu aqressiya nədəndir? Gözümü döndərib Xankəndiyə göndərilən TIR-a baxanda nə görsəm yaxşı-






dı? TIR-n seriya nömrəsi 44. Xırdalamağa ehtiyac yoxdur də, 44 nə deməkdir. Sən demə biçarə David Minasyan ona görə, sinəsin -başın yırtırmış... Mən əliqurumuş da dinc durmadım, bunun paylaşımının altında yazdım ki, Davit, toxtaq ol e, bizdə Masallı rayonu var 44 onun seriyasıdır. Yəni ki, sən düşündüyü məsələ deyil. Yardımı qəbul edin, sakitcə də ağulanın...Erməni dilində mənə nəsə yazdı, sonra da məni blok elədi.

Bayaqdan hökümətimizin əleyhinə ”alıb-verirəm”, Allah sizə kömək olsun, ə, bu humanitar yardımı 44 ton elə də...Qoy partlasınlar, çartlasınlar!

Bu lətifəni də yazıram ki, kefiniz açılsın!

Günlərin birində Molla evə gəlib baxır ki, içəridə oğru var. Oğru Molladan qorxur, Molla oğrudan. Bir müddət ikisi də donub qalırlar. Handan-hana oğru özünə gəlib qaçmaq istəyir. Molla çar-naçar atılır oğrunun üstünə. O, bunu yıxır, bu, onu yıxır, axırda Molla oğrunu üstələyir, ayaqlarını bağlayır, uzadır evin ortasına. Özü də gedir hakimin yanına ki, xəbər versin, gəlib tutsunlar. Hakim Mollanı ətraflı danışdırıb əhvalatı öyrəndikdən sonra soruşur:

**- Bəs indi oğrunun yanında kim var?**

Molla deyir:

**- Heç kim.**

Hakim soruşur:

**- Yaxşı, sən deyirsən ki, onun ancaq ayaqlarını bağlamısan, yanında da heç kəs yoxdur. O, indi ayaqlarını açıb qaçar ki...**

Molla fikrə gedir. Görür ki, hakim haqlıdır. Deyir:

**- Hakim ağa, sən tamam haqlısan. Ancaq bu ki mənim ağlıma gəlməyib, heç onun da ağlına gəlməyəcək. O da bizim yerlidir.**

Doğrudan da gedib görürlər ki, ayaqlarını açıb qaçmaq oğrunun ağlına gəlməyib.

***P.S.** 44 ton bizimkilərin ağlına gəlməyib.. Heyf...*

**Əntiqə Rəşid**

Əntiqə Kərimzadə



## Aqil Abbasın sənə dediyi "yalan" doğru oldu, sənətkar

*Hər payızda üşümək qorxusu var. O qorxuların içində bir həsrət var. O həsrətin içində isə bir vətən var. Çiliklənmiş həsrətin içində yaralı bir yurdun uyuduğunu yaxşı bilirdi Qədir Rüstəmov.*

*Özü qışda dünyaya göz açamsına baxmayaraq, nəğmələrində dediyi kimi, o, yazı çox sevərdi : -"mən yaza vurğunam, qışı neynirəm". Fikrimi onun nəğməsi ilə ifadə etsəm , "o getdi, Ağdam boş qaldı" deyərdim. Hələ illər öncə Ağdamda oxuduğu bütün nəğmələrindən vətəndə olarkən vətənsizlik yağırdı. Sanki bir gün vətənin ağır günlərinin olacağını hiss edirdi. Təbiətcə fərqli olan Qədir Rüstəmovun ifaları da fərqli idi. Hər ifasından bir "dəlisovluq", bir "çılğınlıq" boylanırdı. Özü deyirdi ki, mən həbsxanada olduğum vaxtı heç qəfəs sanmaram, amma qalustuku qəfəs sanıram. Onu dərk etmək üçün gərək ki, bir balaca çılığın olaydın, bir az da özün kimi yaşamağı bacaraydın. Həmişə deyirdi ki, Quzanlıdakı musiqi kollecinə gedəndə anasının sözünə baxmayan körpə uşaqlar kimi oradan qaçıb Ağdama getmək istəyirəm. İki addım atan kimi gözümün qarşısında o boyda sinəsi dağlı dağ dayanır. Onu görüb geri çəkilirəm. Bilirsən niyə geri çəkilirəm? Qorxuram ki, o dağlar mənə sinəsin açmasın. Deyəsən, məndən dağlar da küsüb- deyib fikrə getdi. Bir az da kövrəlmişdi. Hə, onu da deyim ki, rəhmətlik çox kövrək insan idi. Deyəndə ki qeyri-adi səsiniz var, gözəl oxuyursunuz. Cavabı belə olardı;- "bala, qeyri-adi səs yoxdu. Hərə bir cürə oxuyur. Kim də nəyə istəyirsə, ona qulaq asır. Mən də ki özüm üçün oxuyuram da". Bu qədər uca səsin qarşısında özünü sadələşdirib cılız edən adamın səmimiliyinə inanmamaq olarmı? Çoxları bəlkədə bilmir. Onun şeir deməyi də vardı. Təbii ki, hər kəsin yanında bu bacarığını göstərməzdi. Belə deyərdi;-" Gərək adam bir məhzəbə qulluq eləsin. Ta mən oxuyuram da. Mütləqdi ki, şeir də deyim? Nə olsun ki, bacarıram." Amma buna baxmayaraq, ondan bir-iki bənd mütləq eşidirdim (məcbur olsa da). Deyəndə də vətən bayatıları deyərdi…*

*Könlü pərvazlananda tez gözünün qarşısına qolu-qanadı qırıq Ağdam gələrdi. Qəlbindəki şaqrarq gülüşlər gözündən yerə düşürdü. Hər payızın gəlişini çinarın başından sezərdi. Deyirdi ki, çinar payızın göstəricisidir. O özü bir dünya idi. Nələri bilmirdi ki, İlahi… Onun əbədi gedişi ilə dağlar təkcə taleyindən yox, həm də "sona bülbüllərdən" küsdü. Hər payız küləyinə "neçün gəlməz" deyəndə, cavabımı "sən getdin" deyə verir küləklər…*

*Qədir Rüstəmov Türkiyə xəstəxanalarından birində komada olanda, Aqil Abbas Qədirə baş çəkməyə gedir. Orada Qədirin qulağına qışqırır: "ay Qədir, Ağdamı aldıq". Qədir Rüstəmov xəbərə reaksiya verir- əlləri tərpənir.*

*Ruhun şad, sənətkar, Aqil Abbasın sənə dediyi o "YALAN" doğru oldu. O nigaran qaldığın doğma yurdun işğaldan azaddır . Qarış-qarış gəzdiyin o Ağdam torpağında, o Şuşa torpağında Azərbaycan bayrağı dalğalanır. Tək nisgilim budur ki, ömür də dünya kimi vəfasız oldu, sən bu günləri görə bilmədin…Özün görməsən də, amma ruhun görür.*

# Nota verməklə separatizm durmaz: «Talış-Muğan» xəyanətinin 30 ili

**Min illərdir türklər və talışlar bir arada mehriban yaşayırlar. O qədər qaynayıb qarışıblar ki, hər bir talışın türk, hər bir türkün də talış qohumu var, qız alıb, qız veriblər, qanlarını qanlarına qarışdırıblar. Azərbaycanın ərazi bütövlüyü uğrunda bir səngərdə düşmənə qarşı döyüşüblər.**

İndi adlarını sadalayacaqlarımın talış xalqı ilə heç bir əlaqəsi yoxdu. Xainin, satqının nə milliyyəti olur, nə ləyaqəti.

Rusiyanın, İranın, Azərbaycanın varlığını sinirə bilməyən digər dövlətlərin əlində oyuncağa dönmüş ermənilərin əlində oyuncağa dönmüş Ələkram Hümmətov, Fəxrəddin Abbaszadə, Ataxan Əbilov, İsmayıl Şabanov, Adil Nəsirov kimi Azərbaycana dönük çıxanları ən çox elə talışlar lənətləyir.

Təsəvvür edin, bir var Rusiyanın , İranın buyruq qulu olasan, bir də var Rusiyanın, İranın buyruq qulunun qulu olasan! Bu fakt elə adlarını sadaladıqlarımın itdən də aşağı, tuladan da aşağı bir səviyyəsizliyə aid olduğu görünür.

Əvvəlcə xatırladım ki, separatizmin və xəyanətin özü olan Əlikram Hümbətov 1948-ci ildə Lerik şəhərində anadan olub. 1992-1993-cü illərdə Azərbaycan müdafiə nazirinin müavini olub.

Separatizmi gücləndirmək üçün dövlət məmuru olmaq planını beləcə həyata keçirməyə şərait yarada bildi.

Bu vəzifədə olarkən 1993-cü ildə qondarma "Talış-Muğan Respublikası"nı elan edib. Bölücü, murdar "ideyalarını" yaymaqla, "talış zonası"nın iqtisadi dircəlişinə yardım edilməməsi,






onların hüquqlarının pozulması, assimilyasiya olunmaları geniş təbliğ olunurdu. Bu dövrdə Lənkəran və Astara rayonlarında mitinqlər və etiraz aksiyaları təşkil edilirdi. Məlumatlarda deyilir ki, 1993-cü ilin iyun ayının ortalarında siyasi vəziyyətdən istifadə edərək öz ambisiyalarını təmin etmək üçün sərəncamında olan hərbi hissələri döyüş xəttindən çıxararaq, cənub bölgəsində yerləşdirdi.

1993-cü ilin iyun ayında Ələkrəm Hümmətovun rəhbərliyi ilə "Talış Xalq Partiyası"nın, eləcə də separatçı-millətçi yönümlü ictimai-siyasi təşkilatların nümayəndələrinin və 704 saylı hərbi hissənin qulluqçularının iştirakı ilə Lənkəranda mitinq keçirildi və Milli Məclisin buraxılması tələb olundu. Bundan sonra "Talış Muğan Respublikası"nın (TMR) yaranması elan olundu, bu qurumun "konstitusiyası" hazırlandı. Xəyanət artıq bütöv bir xalqı narahat edir, hamını təşvişdə saxlayırdı. Belə olan halda xəyanətkar Ə.Hümbətov AR Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən ömürlük həbs cəzasına məhkum edildi. 03 sentyabr 2004-cü il tarixdə AR Prezidentinin əfv fərmanına əsasən Ələkrəm Hümmətov azadlığa buraxılsa da Azərbaycan vətəndaşlığından məhrum edildi.

Ötən il yaşadığı Hollandiyada ölən bu xain oğlanları Tural və Romalı da öz çirkin niyyətinə alət edib. Uzun sözün qısası, artıq 30 ildir bu xəyanət davam edir.

Beləki, 2023-cü il avqustun 7-də Yekaterinburqda(Rusiya) "Talış-Muğan Muxtar Respublikasının yaradılmasının 30 illiyi" münasibətilə tədbir təşkil olunub. Azərbaycanın Rusiyadakı səfirliyi həmin tədbirlə əlaqədar məlumat yayıb.

Səfirliyin internet səhifəsində yer alan məlumatda bildirilir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş bu tədbirin keçirilməsini nəzərə alaraq, səfirlik Rusiya Xarici İşlər Nazirliyinə etiraz notası göndərib.

Bundan əlavə səfir Polad Bülbül oğlu Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşev Azərbaycanın prinsipial mövqeyini və kəskin etirazını əks etdirən məktub ünvanlayıb.

Bununla yanaşı, Yekaterinburqda fəaliyyət göstərən Azərbaycan-Ural ictimai milli-mədəni təşkilatının rəhbəri Şahin Şıxlinski şəhərin müvafiq inzibati orqanlarına müraciətlər göndərib.

***P.S.** Bilmirəm, tədbir olub-bitəndən sonra etiraz etmək, nota vermək, müvafiq inzibati orqanlarına müraciətlər göndərmək işimizə nə qədər yarıyacaq, amma tədbirin qarşısı alınmış olsaydı, bu olardı , xəyanətə vurulan zərbə...*

**Əntiqə Rəşid**

Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az



## Bizdə elə həkimlər var ki...

**Nədənsə biz yerli həkimlərə bir o qədər də inanmırıq. Burada görünən və görünməyən məqamlar var. Gördüyümüz odur ki, bəzən elə həkimlərə və klinikalara rast gəlirik ki, onlar adamı soğan kimi soyur, müalicələrinin isə yaxşı təsiri olmur.**

**Hələ bu azmış kimi, bir çox halda pasientlər onların savadsızlığının və təcrübəsizliyinin qurbanı olurlar. Ona görə də, əksər vaxtlar imkanlı adamlar müalicə üçün xaricə üz tuturlar.**

**Amma bu demək deyil ki, Azərbaycanda savadlı həkimlər yoxdur. Ölkəmizdə kifayət qədər savadlı, avropalı həkimlərindən heç də geri qalmayan mütəxəssislər var. Yaxım qohumumuzu Türkiyəyə müalicəyə aparmışdıq.Həkim Bakıda xəstə üçün yazılmış reseptə baxdı, üzündə təbəssüm yarandı. Dedi ki, bunu kim yazıbsa, halal olsun! Dərmanlar və müalicə düzgün aparılıb.**

**Mən bu həkimin adını və soyadını yazmıram, çünki bunu o həkim də istəmir. Dəfələrlə demişəm ki, həkim, sizdən bir yazı hazırlayım, amma razılıq verməyib. Bircə onu deyib ki, yaxşı həkimin reklama ehtiyacı yoxdur. Çox təəssüf ki, bir çox hallarda belə mütəxəssisləri baş həkimlər incidir və gözümçıxdıya salır. Nə var, nə var, başqaları kimi işləmir, onun dediyi ilə oturub-durmurlar. Amma xalqın gözü tərəzidir. Kimin hansı işlə məşğul olduğunu bu camaat yaxşı bilir. Baş həkim, həkim var ki, bütün günü pul qazanmaq haqqında düşünür, həkim də var ki, ömrü boyu təmiz adı və şərəfi puldan üstün tutur. Bax buna görə də belə həkimlər cəmiyyət və xalq tərəfindən sevilir. Təəssüf ki, onlar bir o qədər də çox deyillər!**

## Araik Arutunyan istefa verib

**Azərbaycanın Qarabağ iqtisadi rayonundakı terrorçu-separatçıların başçısı Araik Arutunyan istefa verib.**

Adalet.az-ın xəbərinə görə, o, bu barədə sosial şəbəkə səhifəsində yazıb.

O, 2020-ci ildən terrorçu-terrorçulara rəhbərlik edirdi.

## Yaponiya XİN-i vətəndaşlarına xəbərdarlıq etdi

**Bloomberg bildirir ki, Yaponiyanın xarici işlər nazirliyi, Cində olan vətəndaşlarına "Fokusima- 1" AES-nin tullatılarının okeana axıdılması ilə bağlı yaranan etirazlarla əlaqədar bu ölkədə bərkdən yapon dilində danışmamağı tövsiyə edib.**

XİN Çində yaşayan və bu ölkəyə ziyarətə gələnlərə bəyan edib ki, səfirlik və konsulluğa gələrkən diqqətli olsunlar. Yaponlara məsləhət görülüb ki, mitinqlər keçirilən ərazilərdən kənar olsunlar və heç bir foto-video çəkilişlər aparmasınlar. Daha əvvəl isə, Yaponiyanın xarici işlər naziri Komeyto Nasyo Yamaquti, "Fokusima-1" AES-in tullantılarının okeana axıdılması ilə bağlı yaranan insidentə görə, Çinə rəsmi səfərini təxirə salmaq məcburiyyətində qalıb. Avqustun 28-30-na nəzərdə tutulan səfər, Pekin tərəfindən hazırda bu səfərin münasib olmamasını bildirməsindən sonra baş tutmayıb.

**Rüstəm Hacıyev**

## ABŞ Konqresi Baydenə qarşı...



**Zhe Hill mətbu orqanı bildirir ki, nümayəndələr palatasının bir neçə respublikaçı deputatı, Senatda ABŞ prezidenti Co Baydenin imiçment məsələsi ilə bağlı sentyabr ayında prosedurlara başlamağa hazırlaşırlar.**

"Bizim əlimizdə impiçment üçün kifayət qədər material var"-deyə nümayəndələr palatasının üzvü, Cənubi Korolinadan olan respublikaçı deputat Ralf Norman bəyan edib.

Mətbu orqanın məlumatlarına görə, bəzi respublikaçı deputatlar bəyan ediblər ki, hələ ki, impiçment məsələsinin qaldırılmasına hazır deyillər. Nebraska ştatından nümayəndələr palatasının üzvü Don Bekonun sözlərinə görə, impiçment prosedurunun aparılması üçün, ciddi cinayət və yaxud qanun pozuntularını sübut edən təkzibolunmaz faktlar olmalıdır. Hələ otən ilin noyabr ayında ABŞ prezidenti Co Bayden, ona qarşı impiçment hazırlanmasını komediya adlandırmışdı. Onun sözlərinə görə, amerikan cımiyyəti istəyir ki, ABŞ administrasiyası " irəliyə getsin və nəticə əldə etsin".

**Rüstəm Hacıyev**

# Türkiyə və Azərbaycanın "başağrısı": Rafael Lemkin və institutu – ARAŞDIRMA

**Birinci Dünya müharibəsi ərəfəsində ruslara qoşulan ermənilərin türklərə qarşı savaşması nəticəsində Osmanlı dövləti 27 may 1915-ci ildə "Köç" qərarı çıxartdı. Bu qərar öncəsində isə bu gün ermənilərin soyqırımı günü kimi qəbul etdikləri 24 aprel günü 2345 erməni lider həbs edildi.**

Onların böyük əksəriyyəti kəndlərə hücum edərək silahsız əhalini qıran cinayətkarlar idi. Ermənilər aprelin 24-nü ona görə "soyqırımı günü" kimi qeyd edirlər ki, köç haqqında qərardan sonra onların dövlət yaratmaq istədikləri 6 vilayətdə onsuz da azlıq təşkil edən ermənilərin sayı minimuma endirildi. Yəni, onların Türkiyə ərazisində dövlət yaratmaq xülyaları boşa çıxdı.

### Beynəlxalq aləm Türkiyəyə çatanda hər şey "baş-ayaq" görür...

Odur ki, 100 ildən çoxdur ki, erməni ideoloqları öz iyrənc yalanları, iblisanə hiyləgərlikləri ilə dünyanı türk toplumuna qarşı nifrətlə doldurmaqda davam edir və üstəlik türklər tərəfindən "soyqırımı"na məruz qaldıqları iddiası ilə hər il 24 apreli matəm günü kimi qeyd edirlər.

Ermənilər iddia edirlər ki, guya 1915-ci ildə türklər 1,5 milyon ermənini qırıblar. Türk Tarix Qurumunun keçmiş başqanı Yusif Halacoğlu Osmanlı arxivlərinə istinadən belə nəticəyə gəlibdir ki, ermənilərin köçürülməsi zamanı yollarda hücumlara məruz qalaraq öldürülən ermənilərin sayı təqribən 8,5 min nəfər olub. Qalan ermənilər döyüş cəbhələrində əllərində silah türklərə qarşı vuruşarkən öldürülublər.1919-cu ilin yayında Paris sülh konfransının gedişində ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları ərazilərdə və Cənubi Qafqazda vəziyyəti öyrənmək məqsədi ilə prezident Vudro Vilson ABŞ ordusunun Fransadakı baş qərargahının rəisi general Ceyms Harbordun başçılığı altında regiona xüsusi missiya göndərib. General Ceyms 16 oktyabr 1919-cu ildə ABŞ Senatına təqdim etdiyi raportunda yazırdı ki, Qara dənizdən İran sərhədinədək uzanan ərazini gəzdik, lakin ermənilərin iddialarını doğruldacaq heç bir fakta rast gəlmədik. General Harbordun bu məruzəsi ermənilərin Şərqi Anadoluda heç zaman çoxluq təşkil etmədiklərini və soyqırıma məruz qoyulmadıqlarını təsdiqləyirdi.

Amerika Birləşmiş Ştatları Loisville Universitetinin müəllimi, tarixçi yazar Prof. Dr. Castin Makkartın: "Erməni soyqırımı" deyilən bir şeyin olması mümkün deyil. O dövrdə yaşayan 1,5 milyon erməni yox idi. Bu rəqəmin cəmi erməni əhalisindən daha çoxdur. Bu tamamilə səhv. Bu "soyqırım"ın həqiqət olması vəziyyətində hər bir ermənının iki dəfə ölmüş olması lazımdır. 1912 - 1921 illər arasında 3 milyon müsəlman və 100 min erməni ölüb. Aclıqdan, susuzluqdan və ya xəstəlikdən ölənlər də oldu. Bütün ölənlərin türklər tərəfindən öldürüldüyü deyilir, amma bu xəstəlik ayrı-seçkilik etmədən hər kəsi öldürdü .Tarixçilərin araşdırmalarını sərbəst şəkildə etmələri, mübahisələrin, tapıntıların müqayisə edilməsi lazımdır. Ancaq bu şəkildə tarixi məlumatın doğruluğuna əmin ola bilərik."

Amma Türkiyəni cəzalandırmaq üçün beynəlxalq qanunlar yaratmaq lazım idi və ondan sonra olmayan cinayəti Türkiyənin boynuna qoymaq mümkün olacaqdı.

### Meydana Rafael Lemkin çıxarılır

Türkiyəyə qarşı kin və düşmənçilik aparan imperialist dövlətlər bu yalanın ucundan tutub ucuzluğa getməyi, bu "faktla" Türkiyəni gözüqıpıq etməyi artıq məqsəd seçmişdilər. Ermənilərin dünyaya püflədikləri "1915-ci ildə türklər 1,5 milyon ermənini qırıblar " yalanı yəhudi əsilli polşalı hüquqşünas Rafael Lemkini gündəmə gətirdi. Lemkin beynəlxalq təşkilarların tədbirlərində "...Otuz il əvvəl türklərin ermənilərə qarşı törətdiyi vəhşilikləri nəzərdə tuturam. Ancaq bəziləri belə düşünmədiklərini deyəcəklər. Bu, zəmanəmizin faciəsidir. Çox tez unuduruq. Dünən qurbanlar "yalnız" ermənilər, bu gün "yalnız" yəhudilər, həm də polyaklar və digər Avropa xalqları idi. Bəs sabah kim olacaq..." tipli çıxışları ilə ermənilərin müdafiəsinə qalxdı.

Türkiyənin təməlini qoyan və böyük xilaskarlarından olan, Anadoluda türk millətinin əbədi əmin-amanlığını təmin edən Tələt Paşa 1921-ci il martın 15-də Berlində Daşnaksütyun Partiyasının təşkil etdiyi "Nemezis" əməliyyatı çərçivəsində Soğomon Teyliryan adlı erməni terrorçusu tərəfindən qətlə yetirildi. Bu hadisədən sonra Lemkin ermənilərin uğrunda daha inala mübarizəyə qalxdı. 1930-cu illərin əvvəllərində türklərin cəzalandırılmamasından qəzəblənən Lemkin beynəlxalq hüquqda bu mövzuda fəal lobbiçilik etməyə başladı. Beləliklə "soyqırım" termininin və BMT-nin Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya layihəsinin müəllifi oldu.



### Axı , kimdi bu ermənipərəst?

Rafael Lemkin 24 iyun 1900-cü ildə anadan olub. 14 yaşında Lemkin 14 dildə, o cümlədən fransız, ispan, ivrit, yəhudi və rus dillərini mükəmməl bilirdi. Bialystokdakı peşə məktəbini bitirdikdən sonra Lvovdakı Con Casimir Universitetində dilçilik üzrə təhsil almağa başladı .

İkinci Dünya Müharibəsindən sonra Lemkin ABŞ -da yaşamağa davam edir . 1948-ci ildən Yale Universitetində cinayət hüququndan dərs deyir. Lemkin bir sıra dövlətlərə Soyqırım Konvensiyasının ilkin qətnaməsini təqdim edir və onları onu dəstəkləməyə inandırmaq istəyir. ABŞ-ın dəstəyi ilə qətnamə Baş Assambleyada müzakirə olunur. 1951-ci ildə soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya 20 ölkə onu ratifikasiya etdikdən sonra qüvvəyə minəndə Lemkin öz məqsədinə yalnız qismən nail oldu. Konvensiya soyqırımın yalnız fiziki aspektini əhatə edir ki, bu Konvensiya milli, etnik, irqi və ya dini qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş hərəkətlər kimi müəyyən edir. Lemkinə görə, soyqırım termini soyqırımın təkcə fiziki deyil, xüsusilə psixoloji təsirlərini ehtiva edir. Qəlbi türklərə qarşı barışmaz kinlə dolu olan, bütün beynəlxalq tədbirlərdə Türkiyənin cəzalanmasını tələb edən Lemkin 1959-cu ilin bu günü- 28 avqustda 59 yaşında Nyu-Yorkda vəfat edib. Qəribədir ki, həyatını milyonlarla soyqırım qurbanının xatirəsinə həsr etmiş insanın dəfnində cəmi 7 nəfər iştirak edib. Buna isə "ermənilərin sədaqəti" deyək.

### Mazandaranda çaqqal az idi, biri də gəmi ilə gəldi...

Rafael Lemkinin adı ilə yaradılmış "Lemkin Soyqırımların Qarşısının Alınması İnstitutu" isə Türkiyə ilə bərabər Azərbaycanı da hədəf aldı. 30 ildir Qarabağın ermənilər tərəfində işğal edilməsinə və talan edilib dağılmasına susan institut son 3 ildə yeri gəldi gəlmədi Azərbaycan dövlətinə nifrinlər yağdırır, onu ittiham edir, cəzalanmasını tələb kimi beynəlxalq təşkilarlardan istəyir: " Hazırkı vəziyyət Qarabağ ermənilərinin Azərbaycan prezidentinin soyqırım rejimi qarşısında həssaslığını açıq şəkildə göstərir. İkinci erməni soyqırımının qarşısını almaq üçün dünya dərhal hərəkətə keçməlidir".

İnstitut bu ilin yanvarında iddia edirdi ki, Azərbaycan Qarabağı (Artsaxı ) 23 gündən artıq blokadada saxlayır: "120 min insan düşmən ölkə tərəfindən mühasirəyə alınıb. Yanvarın 3-nə keçən gecə da müntəzəm olaraq elektrik enerjisi kəsilirdi ki, bu da Azərbaycan hakimiyyəti tərəfindən ərazidə elektrik enerjisinin kəsilməsi qorxusuna səbəb olur. Azərbaycan Prezidenti Əliyev on ildən artıqdır ki, erməni soyqırımı ideologiyasını təbliğ edir, azərbaycanlılarda zorakılıq və vəhşiliklərlə ifadə olunan ermənilərə nifrət hissi aşılayır. Azərbaycan cəzalandırılmalı, erməniləri qorumaq, insanların və malların sərbəst hərəkətini təmin etmək üçün bağlanan yollara BMT sülhməramlıları yerləşdirilməli, Azərbaycana hərbi yardım dərhal dayandırılmalıdır. Lemkin adına Soyqırımın Qarşısının Alınması İnstitutu hesab edir ki, bu soyqırımda şərik olan millətlər və təşkilatlar məsuliyyətə cəlb edilməlidir".

Yuxarıda bildirdiyimiz kimi 1943-cü siyasi termin kimi tanınan və 1948-ci ildə ildə isə beynəlxalq status alan "soyqırım" kəlməsinin yaranması uydurma "erməni soyqırımı"nın tanınması uğrunda böyük bir hərəkata imza atıb. Beləki, ermənilər ABŞ-ın bütün statlarında qondarma soyqırımını rəsmən tanıtmağa nail olublar. Bu azmış kimi həm də sosial şəbəkə hesablarında : "Lemkin İnstitutu, dünyadakı erməni diasporasını 50 ABŞ əyalətinin tamamında soyqırımın tanınma prosesini tamamladıqlarına görə təbrik edir!' yazaraq paylaşım ediblər.

Qeyd edək ki, yeni ilin ilk günlərində də "şüvənlik" tamaşasını yüksək artistlik qabliyyəti ilə oynamış Lemkin istitutu həmin vaxt ikili standartlardan çıxış etdi. Azərbaycan cəzalandırılmalı, erməniləri qorumaq, insanların və malların sərbəst hərəkətini təmin etmək üçün bağlanan yollara BMT sülhməramlıları yerləşdirilməli, Azərbaycana hərbi yardım dərhal dayandırılmalıdır. Lemkin adına Soyqırımın Qarşısının Alınması İnstitutu hesab edir ki, bu soyqırımda şərik olan millətlər və təşkilatlar məsuliyyətə cəlb edilməlidir". Bütün erməni mediası institutun çıxışını tirajlamaqla məşğul oldu. Lemkin insitutu anlayandan sonra ki, Azərbaycan Qarabağ ermənilərinin nə qazına, nə də elektrik enerjisinə heç bir problem yaratmayıb, hətta Qarabağa - Xankəndiyə gedən humanitar yardm maşınlarna, eləcə də İrəvana cərrahi əməliyyata gedən xəstələrə, mülki əhaliyə yol verib, yenə də səbəbsiz yerə bağırır, öz "missiyasını"yerinə yetirməklə məşğuldur. Əslində Lemkinin də onun adına yaradılmış istitutunda missiyası heç də erməniyə dəstək olmaq yox, erməni lobbi və diasporasında böyük məbləğdə pul qoparmaqdı .

**Bəli, "Lemkin adına Soyqırımların Qarşısının Alınması İnstitutunun" Azərbaycana münasibəti birbaşa qərəzlidir. Yəqin, adıgedən qurumun əməkdaşları xatırlamır ki, Qarabağda soyqırım olub, özü də 1992-ci ilin 26 fevralında" İndi Lemkin Soyqırımların Qarşısının Alınması İnstitutu zəhmət çəksin, fərqi özü araşdırsın!**

**Əntiqə Rəşid**

## 50 nömrəli avtobuslar niyə tez-tez yarıyolda qalır?

**Yeni Günəşlidə yaşayan sakinlərin marşrut sarıdan heç bəxtləri gətirmir.**

Üzün illərdir ki, bu yaşayış məntəqəsinə hərəkət edən və sərnişin daşıyan 50, 36, 104 nömrəli marşrutlar əhaliyə lazımi səviyyədə xidmət göstərə bilmir. Bilirsiniz , niyə? Çunki həmin avtobuslar köhnədir və istismar müddətini başa çatdırıb. Sərnişinlər yayda istidən bişir, qışda soyuqdan donur. Kondinsioner sistemi olmayan avtobuslarda isti yay günlərində mənzilbaşına getmək çox çətindir. 50 nömrəli marşrutda işləyən avtobus-



larda vəziyyət daha pisdir.

Çünki bu avtobusların hamısı istismar müddətini çoxdan başa vurun. Elə bir gün olmaz ki, bu avtobusların biri qrılıb yarıyolda qalmasın . Hələ üstəlik, isti və soyuq havalarda yolda qalan sərnişinlər olmazın əziyyətləri ilə üzləşirlər. Belə hadisələr sürücüləri narahat eləsə də, amma marşrutun sahibi olan şirkətin rəhbərliyini qətiyyən düsündürmür.

Onların məsuliyyətsiz hərəkətlərinin altını sərnişinlər çəkir. Bizə elə gəlir ki, onlar düzələn deyil. Ona görə də bu marşrut həmin sahibkarın əlindən alınmalı və digər şirkətə verilməlidir. Bəlkə bundan sonra bu marşrutda vəziyyət düzələ! Gözləyək görək Bakı Nəqliyyat Agentliyi bu addımı nə vaxt atacaq?!

## İt gəzdirənlər

**Bu gün Bakı şəhərində tez-tez it gəzdirən oğlən və qızlara rast gəlmək olur.**

Onların əksəriyyəti mövcud qaydaları pozur, parklarda, xiyabanlarda insanlar, xüsusən də uşaqlar arasında qorxu və xof yaradırlar. Hansı ki, it gəzdirən adamlar o heyvanların ağzına buruntağlar bağlamalı və bundan sonra onları gəzməyə aparmalıdırlar. Bununla yanaşı, o itləri hər parlasa aparmaq olmaz və onların gəzdirilməsi



üçün insanların az olduğu yerlər seçilməlidirm.

Təəssüf ki, biz çox vaxt bunun əksini görürük. Bəzi cavan oğlan və qızlar qaydalara məhəl qoymur, itləri ağzıaçıq parklarda gəzdirir, bundansa oradakı insanlar qorxuya düşur və it gəzdirənlərlə dava-dalaş eləyirlər. Bu yaxınlarda Yeni Günəşlidə " Fatmeyi-Zəhra" məscidinin yanındakı parkda it gəzdirən oğlanla orada istirahət edənlər arasında mübahisə yarandı.

Yaşlı qadın it gəzdirən oğlana dedi ki, ay oğul, bura müqəddəs yerdir, get o iti başqa yerdə gəzdir. İnsafən o gənc bir söz demədi və parkdan çıxıb getdi. Bir faktı da xatırladaq ki, parklarda və əhalinin çox olduğu yerlərdə gəzdirilən itlərin ağzında buruntaq olmasa, onun sahibi İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə olunur. Ona görə də it gəzdirənlər zəhmət çəkib, qanunlara əməl etməlidirlər!

## Qiymətlər atlı olub, biz piyada

**Beş-on il bundan əvvəl müxtəlif ərzaq və sənaye mallarının qiyməti ayda, ildə bir dəfə bahalaşardı və biz də buna normal baxardıq.**

Amma indi isə tam başqa cürdür. Yəni axşam yatıb, səhər yuxudan oyanıb, bazara, markete, dükana gedib, görürük ki, dünən aldığımız məhsulların qiyməti yenə bahalaşıb.



Ətin, yağın, şorun, qəndin, şəkər tozunun, müxtəlif şirniyyat məhsullarının, mineral və şirəli suların qiyməti tez-tez artır. Qarpız- yemişin qiyməti isə avqust ayında belə 50 qəpikdən aşaga düsmədi, bu gün avqustun son günləri olsa da, həmin məhsulların bir kiloqramının qiyməti 70- 80 qəpik arasındadir. Hələ biz dərmanların bahlaşmasını demirik.

Çünki son günlər apteklərdə dərmanlar da bahalaşıb.Düzdür, bahalaşma dünyanın bütün ölkələrində var, ancaq bizdə ildırım sürəti ilə gedir.

Dünyanın heç bir ölkəsində dərmanlar bizdəki kimi, baha deyil. Ona görə ki, hər sahədə monopoliya mövcuddur və eyni zamanda dərman biznesində də monopoliya var. Nə vaxta qədər ki, ölkəmizdə monopoliya olacaq , bax onda qiymətlərin aşağı düşməsindən söhbət gedə bilməz!

## Bu gün düzələn yol sabah yenidən dağıdılır

**Nə qədər qəribə olsa da , biz belə hadisələrin tez-tez şahidi oluruq.**

Hər hansı rayonun icra başçısı dəyişən kimi, qısa zamanda parklar, xiyabanlar, yollar sökülür və yenidən inşa edilir. Hansı ki, o parkın, xiyabanın və yolun salınması üçün dövlət büdcəsindən küllü miqdarda vəsait xərclənib , keyfiyyəti də lazımi tələb-



lərə cavab verir. İcra başçıları görüntü yaratmaq, eləcə də işgüzar adam təsəvvürü yaratmaq üçün bu adımı atır.

Bir müddətdən sonra görülmüs keyfiyyət iş özünü büruzə verir. Camaat da yaxşı hiss edir ki, köhnəni dağıdıb, yenisi ilə əvəz edilən tikinti abadlıq yox, pul mənimsəməyə xidmət edir. Elə həbs olunmuş icra başçılarının fəaliyyətində də bu işlər özünü açıq-aydın göstərir. Düzdur, bir çox halda, böyük adadlıq və quruçuluq işləri də görülur və buna dövlət, xalq yüksək qiymət verir.

Amma bu xalq, bu millət gözə kül üfürənləri də yaxşı tanıyır. Bəzi hallarda təmir ,tikinti və bərpa adı altında küllü miqdarda dövlət vəsaiti də mənimsənilir. Bax belə hallara qarşı mübarizə gücləndirilməlidir!

## Piyadalarla bağlı hadisələr artıb

**Hər bir hərəkət iştirakçısı birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməlidir. Təəssüf ki, nə bəzi sürücülər, nə də piyadalar bir çox halda bu qaydalara biganə qalırlar. Nəticədə isə piyadaların vurulması halı qaçılmaz olur.**

Baş Dövlət Yol Polisi İdarəsinin verdiyi məlumata görə son vaxtlar pespublika yollarında və



Bakı şəhərində piyadavurma hadisələri çoxalıb. Xüsusən də Bakıda baş vermiş yol-nəqliyyat hadisələri zamanı piyadavurma faktları 55 faizə çatıb. Təbii ki, burada həm puyadaların, həm də sürücülərin günahı var. Bir çox halda hər iki tərəfdən heç biri güzəştə getmək istəmir və sonda piyadavurma hadisələri baş verir! Bizə elə gəlir ki, sürücülərin və piyadaların maariflənməsinə böyük ehtiyac var. Amma buna onlar çox vaxt anlamaq istəmirlər. Məsələn, piyadalar üçün nəzərdə tutulmuş yerd zolaqlı keçidlərdə çov sürücülər piyadalara yol vermir, piyadalar isə avtomobilləri gözləmədən ordan keçmək istəyirlər. Belə olanda onlar bir-birini karıxdırır və piyada maşınla vurulur.Yaxşı olar ki, piyadalar tək-tək yox, on, on beş nəfər olanda yol keçələr. Bu deməkdir ki, bu zaman sürücülər əsəbləşməz, piyadaya yol verər və onların həyatı üçün təhlükə yaranmaz ,eyni zamanda piyadavurma hadisələri çoxalmaz!

**Emil Faiqoğlu**

# "Qərb 500 il əvvəl türkçülüyü parçaladı: Sultan niyə Təbrizdən qaçdı?"

*509 il əvvəlin avqust ayı türk dünyası üçün sözün həqiqi mənasında ən qaranlıq bir dönəm, ən dəhşətli bir ay idi. 30 avqust isə o mənasız savaşın nəticələrinin iflasını göstərirdi. Bəli, söhbət Səfəvilər və Osmanlılar arasında 1514-cü il avqustun 23-də Çaldıran düzündə (Maku şəhəri yaxınlığında) baş vermiş Çaldıran savaşından gedir.*

*Həmin ilin 30 avqustda nələr baş verdiyini oxucularımıza çatdırmamışdan əvvəl savaşın bəzi məqamlarını siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevlə müzakirə edəcəyik.*

**- Zaur müəllim , tarixçilər, elm adamları, filosoflar deyirlər ki, tarixin ən qanlı qardaş qırğını Çaldıran döyüşü Yavuz Səlim üçün böyük zəfər sayılsa da, əslində Türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə qələbəsi olub. Siz necə düşünürsünüz?**

- Əslində mən də əksini düşünmürəm. Bəli, türk dünyasının məğlub-Vatikan Britaniya sisteminin qalib olduğu Çaldıran döyüşü Türk dünyasınn ən acı günü sayılan 23 avqustda iki nəhəng dövlət döyüş meydanında üz-üzə gəldi. Məhz bu tarixdən etibarən Vatikan-Britaniya sistemi türk dünyasını və coğrafiyasına qarşı planlarını həyata keçirməyə başladılar. Çünki bu gün Sultan və Şahın yan-yana deyil, üz-üzə gəldiyi Çaldıran savaşı baş verib. Bu döyüş olmaya bilərdimi- sualına hər iki tərəfin dini yox milli kimlik üzərində münasibəti olsa idi, bəli.

**-Sözünüzdən belə çıxır ki, hər iki hökmüdar türkçülükdən daha çox məzhəbçilik yolunu tutublar?**

- Nə Şah İsmayılın, nə də ki, Sultan Səlimin inamı özününkü deyildi: onları birləşdirən vahid türk inamı yox idi. İslama tapınırdılar və bir-birlərini də elə ən çox bu yöndən qəbul etmirdilər. Şah İsmayıl şiəliyi, Sultan Səlim isə sünniliyi qoruyur, yayırdı. Hər ikisinin türklüyün yayılması ilə bağlı gözəl istəkləri də vardı.

**- Məzhəbi dəyərli bilmək hara, türklüyü yaymaq hara?**

- Bəli məhz belə hər iki hökmüdar türkçü idi. Şah İsmayıl yeni Turan yaratmaq, Sultan Səlim isə Avropanı türkləşdirmək istəyirdi. Amma çox heyf ki, sünni-şiə söhbəti bir milləti dünyaya hakim edə bilmədi.

Osmanlının ən üstün ordusu sayılan yeniçəriləri Anadoluda yaşayan qızılbaşlar (Azərbaycan Tayfaları) yetişdirirdi. Belə ki, onların bağlı olduğu sufi təkkəsi bektaşi idi.. Buna görə də, Sultan Səlim Şah İsmayılın üstünə gələndə minlərlə yeniçəri bundan imtina etmişdi

Şah İsmayıl Çaldıran döyüşü ərəfəsində Sultan Səlimin təhqiredici və döyüşə çağıran məktubuna şeirlə belə bir cavab yazır (Şahın Yavuzdan fərqlərindən biri o idi ki, xəttat olduğu üçün məktubları, şair olduğu üçünsə şeirləri özü yazırdı)

***Mən pirimi haqq bilirəm,***
***Yoluna qurban oluram,***
***Dün doğuldum bu gün öləm,***
***Ölən gəlsin, budur meydan.***

Və Səlimə sanki deyir ki, Mən ölümə belə hazıram bəs sən ,Səlim, hazırsanmı ? Çox keçmir ki sualın cavabı gəlir belə ki Səlim döyüşə girmir yəni ölümü gözə almır baxmayaraq ki əyər ölsə ondan sonra şahzadəsi vardı.

**- Zaur müəllim, bəzi fars mənbələr yazır ki, Şah İsmayıl Xətai döyüşdən bir gün əvvəl qoşun -ləşkəri ilə ova çıxıb, yorğun düşüb deyə uduzub. Sabah qanlı bir döyüş olacaq və hökmüdar ova çıxır... Bu nə qədər doğru məlumatdı?**

- 1514-cü il avqust ayının 22-də Çaldıran düzündə hər iki tərəfin döyüşqabağı hazırlıqları başa çatdırıldı. Bu döyüşün mərkəzinin Çaldıran düzünün hansı məkanında qərar tutması dəqiqliklə təsbit edilməmişdir.

Amma ehtimal edilir ki, bu döyüş Çaldıran düzündən keçən çayların arasında baş vermişdir. Çünki çayların yaxında olması hər iki tərəfin içməli suya olan ehtiyacını aradan qaldıra bilərdi. İkinci tarix elmində Osmanl və fars "qaynaqlarına" istinad edənlər guya Şahın döyüşdən bir gün öncə, 22 av-



qust 1514-cü ildə ov etdiyi deyilir.

Əzizlərim "Aləmara-yi Şah İsmayıl"da Səfəvi qoşunlarının Çaldıran düzünə Osmanlı qoşunlarından gec çatdığı bildirilir.

Məlumdur ki, Osmanlı qoşunları istirahətə dayanmadan səhəri gün döyüşə başladılar. Səfəvi qoşunları isə Çaldıran düzünə daha gec çatandan sonra qoşun başçılarının və əmirlərinin toplantısı keçirildi və buna yəqin ki, xeyli vaxt ayrıldı.

Bundan sonra isə qoşunların döyüşqabağı qruplaşdırılması aparıldı. Əslində, Şah İsmayılın həmin gün ovla məşğul olması üçün heç vaxt qalmırdı. Xeyli sayda adamın iştirakı ilə həyata keçiriləcək ov isə yəqin ki, beş-on dəqiqəlik bir tədbir olmazdı. Bu mənada ov söhbətinin ortaya atılması mümkün deyildi. Şahla birlikdə olan min nəfərin iştirakı ilə olan ov, 100 min nəfərlik düşmən qoşunu yaxınlığında kifayət qədər təhlükəli bir iş ola bilərdi.

**- Demək olar ki, bütün mənbələrdə məhz Sultan təhrikedici hərəkətləri, məktubarı, atmacaları haqqında məlumatlar var. O, Şah İsmayılı savaşa təhrik edən 4 məktub göndərmişdi.**

- Döyüşdən bir gün öncə Sultan Səlim öz elçisi vasitəsilə Şah İsmayıla bu sözləri çatdırdı: "Belə güman edirdim




ki,
mən hələ bu torpaqlara daxil olmamışdan əvvəl sən İraqa tərəf qaçacaqsan. Bərəkallah. Mərhəba olsun ki, qarşımızda dayanmısan. İndi buyurun ki, biz sizinlə hansı üsulla müharibə edək. Hansı üsulla desən elə də müharibə edək"

1514-cü il avqust ayının 23-ü, çərşənbə günü səhər saat 09.30. Şah İsmayıl Səfəvi döyüş günü önə çıxıb onun məktubunu xatırladaraq Sultan Səlimi tək-bətək kişi kimi döyüşməyə çağırdı. Şah ucadan qışıqıraraq- "Səlim aləmin mərdliyindən səndə bir nişanə varsa toplardan istifadə olunmasına qadağa qoy və bundan sonra döyüş meydanında mərd də namərddən fərqlənə bilsin" deyir. Səlim isə buna cavab vermir.

Eyni zamanda özü döyüşə girmək istəmir, verdiyi sözü danır və döyüşə Osmanlının ən güclü döyüşçüsü və sərkərdəsi Malkoçoğlu Tur Əli bəyi göndərir.Şah isə şahzadəsinin olmamasına rəğmən doğurdan da dediyin edib ölümü gözə alaraq döyüşə girir.O döyüşə girəndə hər iki tərəfin ordusu mat qalır.Şahın ordusu arasında belə bir söz çox yayılır

***"Anda ki şah mindi ata***
***yezid(Osmanlı)döndü mata"***

Hər iki tərəfin əsgərləri hətta Sultann özü də Şahın qılınc oynatmağına mətəl qalır.

**- Amma Sultan Səlim açıq döyüşə girməyə ürək eləməyib...**

- Osmanlı tarixində əvəzolunmaz qəhramanlarından biri olub: Malkoçoğlu. Avropada onun adı bütün saraylarda qorxu ilə çəkilirdi. Osmanlı ordusunun da qəhraman saydıqları Malkoçoğlu bir döyüş ruhu idi.

Malkoçoğlu zirehlənib Şahla görüşə getməzdən öncə Səlimin önündə diz çökür və döyüşdə qalib gələcəyini deyir və ordunun içərisindən keçəndə bütün hər kəs qılncın göyə qaldırıb onu alqışlayır.

Sultan Səlim 1200 yeniçərinin (xüsusi mühafizə) arasında, çadrının yanında böyük bir top qoydurub və uca bir taxtdan döyüşü izləməyə başlayır. Şah İsmayılın ətrafı onunla döyüşə getməyə razı olmur: "Şaha bir sərkərdə ilə vuruşmaq yaraşmaz" dedi. O isə cavab verdi - "İstəmirəm sonra döyüşə qorxub çıxmadı desinlər".

Şah Babamızla üz-üzə gələndə Malquçoğlundan Şahımız soruşur:

-Səlim hardadır, niyə mənimlə qarşılşamaqdan çəkinir

Malkoçoğlu özündən razı halda qılınc çəkərək deyir ki, "ilk həmləni sən et". Şahımız deyir ki, "Siz hücuma gəlmisiniz, ilk zərbə vurmaq haqqı da sənə verirəm".

Şah İsmayıl ilə Malkoçoğlu əvvəlcə nizəyə əl atdılar. Hər iki tərəfin qoşunları və əmirləri tərəfindən müşahidə olunun bu döyüş zamanı Şah İsmayıl nizəsi ilə Malkoçoğlunun nizəsini vurub parçaladı.

Bu zərbədən vahiməyə düşən Malkoçoğlu tez əlini qılıncına atdı və döyüşü qılıncla davam etdirdi.

Şah İsmayıl da əlini qılınca atdı və Malkoçoğlunun başına güclü bir zərbə endirdi. Mənbədəki məlumata görə, Şah İsmayılın qılıncının zərbəsi elə güclü idi ki, Malkoçoğlunun başından qurşaq yerinə qədər bədəni iki yerə böləndü.

Sultan Səlim dərhal ayağa qalxır və qəzəblə 500 nəfər atlını mərkəzə hücuma keçərək Şahı öldürməsini əmr edir. Lakin Şah bir az da Səlimə tərəf atını sürərək qılıncın göydə oynadır və geri çəkilir.

Ardnca düşən 500 atlı isə Səvəvi qızılbaşları tərəfindən geri qaytarılır. 1783-cü ildə Paris şəhərində nəşr edilən "Osmanlı İmperatorluğu Tarixi" kitabında yazılır:

"Şah İsmayıl Türklərin əfsanəvi qəhrəmanı Malkoçoğlunu döyüşdə məğlub edəndən sonra 500-ə yaxın tüfəngli türk əsgəri onun ardınca atəş açsalar da güllələrin heç biri onu tutmadı. Bundan təsirlənən Osmanlı əsgərlərindən bəziləri gecə ikən Səfəvilərin ordugahına gedərək Şah İsmayıl tərəfindən vuruşmağı istədiklərini bildirdilər!"

**- Zaur müəllim, deyilənə görə, savaşın taleyini toplar həll edib Bəs elə bir qüdrətli şah niyə top alıb cəbbəxanasını zənginləşdirməmişdi?**

- Çaldıran döyüşü zamanı Səfəvilərin də topları var idi və Osmanlılara qarşı istifadə edə bilmədilər. Məlumdur ki, Çaldıran düzündə döyüşdən bir neçə gün qabaq ordular strategiya qururdular.

Səfəvi topları yaxınlıqda yerləşən təpələrdə qoyulmuşdur. 8 top olaraq bir neçə təpədə istehkam qurulmuş idi. Lakin döyüşdən bir gün öncə Osmanlı kəşfiyyatı gecə ikən Səfəvi ordusuna hücum edərək topçuları qətl etmişdilər. Buna görə də döyüş zamanı Səfəvi topları istifadə edilə bilinmədi. Düzdü döyüş zamanı az sayda olmalarına baxmayaraq Səfəvi döyüşçüləri Osmanlıların müdafiə xəttini qıra bilsələr də, 300-ə yaxın Osmanlı topları döyüşün taleyini həll elədilər. Çaldıran döyüşü odlu silah üstünlüyü sayəsində qazanıldı və ələ keçirilən qənimətlər arasında 20-dən çox Səfəvi topu və 100-dən çox tüfəngi ələ keçmiş idi.

Riçard Knoles özünün "Osmanlı Tarixi" kitabında belə yazır:

Bu arada yaralanmış Səfəvi Şahı İsmail döyüşdə mərdlik göstərməsinə baxmayaraq Fransız topları son sözü Çaldıran savaşında bildirdi." Lakin çoxları bu döyüşün Səfəvilərin məğlubiyyəti kimi qəbul edirlər. Hazırda Türkiyədə Osmanlı tarixi muzeyində Şahın Sultana məktubu var. Orda yazılır: "qoşunum az olduğundan mən müvəqqəti geri çəkildim". Heç məğlub oldum da demir, deyir ki, geri çəkildim.

Çaldıran döyüşü Səfəvilərin məğlubiyyəti deyil, bu döyüşdən sonra qızılbaşlar müvəqqəti olaraq geri çəkiliblər. Məğlubiyyət olsaydı, Səfəvilər dövləti süqut edərdi.

Ən azından hakimiyyət dəyişikliyi baş verərdi. Bu müvəqqəti məğlubiyyət olmasaydı, Sultan Səlim elə Təbrizdə qalardı, möhkəmlənərdi.

**- Osmanlı ordusunun Çaldıran döyüşündən sonra Təbrizdə qala bilməməsi də buna sübutdur. Osmanlılar Təbrizdə cəmi bir həftə qala bildi.Yəni, 1514-cü ilin bu günü Sultan Səlim Təbrizdən çıxır. Bunun iki səbəbi vardı, birincisi Təbriz əhalisi müqavimət göstərirdi, ikincisi Sultan Səlim Osmanlı ordusunda bəktaşilərin qiyamından qorxmuşdu. Ona görə tələm-tələsik Təbrizdən qaçdı.**

- Sultan Səlimin Təbrizi tələm-tələsik tərk etməsinin bir səbəbi də bu idi, Şah İsmayılın daha böyük qüvvə ilə gəlib onu mühasirəyə sala bilərdi. Ona görə Sultan Səlim geri çəkildi. Geri çəkiləndə Qarahisar istiqamətində də, Qoçhisar istiqamətində də qızılbaşlarla döyüş olur.

Ondan sonra Sultan Səlim çəkildi, Misir istiqamətində yürüşə başladı. Və İsmayıl Təbrizə qayıtdı, Təbrizdə yenə eyni təntənə ilə qarşılandı. Bundan sonra Şah İsmayıl ona xəyanət etmiş keçmiş müttəfiqlərini cəzalandırır. Şirvan, Şəki hakimliyi və Kaxetiya, Kartli hakimliyi üzərinə yeriyir. Və onları özünə tabe etdirir. Şah İsmayılın bu yürüşləri 1518-24-cü illəri əhatə edir. 23 may 1524-cü ildə Şahın qəfil ölümü onun Sultandan intiqam almasına şərait yaratmır.

**- Oxucularımız da bildi ki, bu döyüşdə həqiqətən də nə məğlub var, nə qalib. Məğlub olan türkçülüyümüz, qalib olan isə Avropa diplomatiyasıdır.Zaur müəllim maraqlı araşdırma və müsahibə görə oxucularımız adından sizə təşəkkür edirik!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

# Arxivdə yaşayan ömürlər

## Həyat naminə

**Azərbaycan Respublikası Dövlət Elm və Texnika sənədləri Arxivində (ARDETSA) tibb sahəsində ölkəmizdə, onun hüdudlarından kənarda tanınmış həkimlərin şəxsi arxiv fondları saxlanılır. İndi onların heç biri həyatda yoxdur, haqq dünyasına qovuşublar. Şərəfli ömür yollarında xeyirxah və işıqlı əməlləri bu günümüzə, gələcək nəsillərə yadigar qalıb.**

Şükür Məmməd oğlu Həsənov sovet səhiyyəsinin veteranlarından biri olmaqla bütün ömrünü insanların sağlamlığına həsr etmişdir. O, 1903-cü il iyunun 25-də Şamaxı şəhərində dünyaya göz açmışdır. 1910-cu ildə gimnaziyaya daxil olmuşdur. Tibb sahəsinə maraq və həvəsini gerçəkləşdirmək məqsədilə 1920-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakultəsinə qəbul olmuş, 1925-ci ildə oranı bitirmişdir.

Həkim kimi rayonların birində işləmək arzusu həyata keçmir, onu Xalq Səhiyyə komissarlığının sosial xəstəliklər və sanitar xidmət bölməsinə müdir təyin edirlər. Burada Ş.Həsənov işi ilə əlaqədar olaraq tez-tez Azərbaycanın bölgələrinə səfər edir, professor Bayraşevskinin məsləhəti ilə xalq təbabətinə aid xeyli material toplayır. Materiallar 17 cildlik "Böyük Tibb Ensiklopediyası"nın (1-ci sovet buraxılışı), "Xalq səhiyyəsi" bölməsində dərc olunur. O, Leninqrad, Moskva, Kiyev şəhərlərinin klinikalarında ixtisaslaşmışdır. 1926-ci ildə Ş.Həsənov Azərbaycan Dövlət Universitetinin tibb fakultəsində asissent seçilir. Elmi-tədqiqat işləri ilə bərabər o, bir çox ictimai işlərdə də çalışmışdır. Xalq Səhiyyə komissarlıgında və kafedrada işləyərkən Ş.Həsənov "Azərbaycanda malyariya", "Azərbaycanda vərəm " və s. kimi bir sıra monoqrafiyalar yazmışdır.

Tükmənistan Xalq Səhiyyə Komissarlığının xahişi ilə o, 1933-cü ildə Türkmənistan Tibb İnstitutuna kafedra müdiri vəzifəsinə göndərilir. Türkmənistanda kafedrada elmi işləri ilə yanaşı, Ş.Həsənov bir cox səmərələşdirici təkliflərin, təsviri sənət nümunələrinin hazırlanmasını həyata keçirir. Onun təşəbbüsü ilə Türkmənistanda xüsusi elmi-tədqiqat laboratoriyası və təcrübə nümunələrinin yaradılması üçün emalatxanalar açılır. Ş.Həsənovun məruzəsi Moskvada keçirilən Ümumittifaq sərgisində böyük maraqla qarşılanır, tədbirdə iştirak edən ixtiraçı və səmərələşdiricilər onun təklif etdiyi ixtiraları, eksponatları həvəslə qəbul edirlər. Bu fəal, yorulmaz elmi işçi onlarca orjinal və qiymətli yeniliklər işləyib hazırlamış və həyata keçirilmişdir. Onun işləri ilə ittifaq miqyasında tanış olur, yüksək qiymətləndirirlər.

Professor Həsənov respublikada ilk dəfə yaradılmış S.M.Kirov adına Kurortologiya və Müalicənin Fiziki Üsulları İnstitutuna başçılıq etmişdir. Həmin sağlamlıq ocağını "Binada kurort" adlandırırlar. Lakin geniş institut Şükür Həsənova darısqallıq edir. O, çoxlarının açdığı ali yolla getmək istəməmiş. Müalicə korpusunun hüdudlarından xaricdə də fəaliyyət göstərməyə çalışmışdır.

Böyük enerjiyə malik olan Şükür Həsənov bir-birinin ardınca ekspedisiyalar təşkil edir, respublikanın müxtəlif rayonlarına gedir, zəngin kurort yerlərini tədqiq edir. Ona Naftalanda və Sirabda, Hacıkənddə və Gəmiyurdda, Darrıdağda və Badamlıda, Göygöldə və Çuxuryurdda rast gəlmək olardı.

Yenə də professor təcrübələr aparır, ixtira edir, axtarır. Naftalan müalicə palçığı tezliklə şöhrət qazanır. Professorun təklif etdiyi bu müalicə vasitəsi minlərlə xəstəni yenidən sıraya qaytarır. Ölkənin görkəmli kurortoloqu professor V. Aleksandrov bu müalicə üsulu haqqında öz rəyində yazırdı: "Professor Həsənovun biliyi çoxcəhətlidir.... Bu yeni müalicə vasitəsi balneo-fizioterapiya sahəsində yeni səhifələr açır və Vətənimizin müalicə vasitələri ehtiyatını genişləndirir".

Ümumittifaq Cəmiyyəti onun təkliflərini dinləyərək yaradıcılıq işlərinin sərgisini təşkil edir. SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində Ş.Həsənov "SSRİ-nin ən yaxşı səmərələşdiricisi"



döş nişanı və fəxri fərmanla təltif olunur.

1936-ci ildə Şükür Həsənovun təşəbbüsü ilə nümunəvi eksperimental müalicə klinikası yaradılır, az müddət ərzində bu şəfa ocağı böyük nüfuz əldə edir. 1938-ci ildə "Türkmənfilm" kinostudiyasında professor S.M.Həsənovun həyat və yaradıcılığı haqqında sənədli film çəkilir. Onun ixtiraları və səmərələşdirici təklifləri Türkmənistanda "Sovet səhiyyəsi" jurnalının 4 nömrəsində dərc edilib.

1939-cu ildə Ş.Həsənov Azərbaycan KP MK-nin tələbi ilə yenidən Bakıya çağırılır, S.M.Kirov adına Kurortologiya və Fiziki Müalicə Metodları İnstitutuna direktor təyin olunur. Böyük Vətən müharibəsi illərində ona 20-dən çox müalicə aparatı hazırlamaq sifarş edilir ki, bunlarla 116 min xəstə müalicə almışdı.

Professor Şükür Həsənov Azərbaycan Dövlət Tibb İnstitutunda, Sənaye İnstitutunda, Qırmızı Bayraqlı Neft İnstitutunda, Həkimləri Təkmilləşdirmə İnstitutunda, texnikum və kurslarda tibb elminin sirlərini tədris etmişdir. O, uzun illər respublikanın baş fizioterapevti və kurortoloqu olmuşdu. Onun qələminin məhsulu olaraq 268 elmi iş, dərsliklər, monoqrafiyalar, sərgi kitabları işıq üzü görmüşdür. "Böyük Tibb Ensiklopediyasın"da onun çox sayda məqaləsi vardır.

Ölkədə bədən tərbiyəsi və idmanın inkişafında da Ş.Həsənovun xidmətləri böyükdür. O, bu sahənin inkişafının ilk təbliğatçılarından biri kimi SSRİ Həmkarlar İttifaqları Komitəsinin bədən tərbiyəsi və idman işləri üzrə federasiyasının üzvü olmuşdur.

Onun yaratdığı sağlamlıq zonalarında müalicə işlərinin təşkili böyük şöhrət qazanmışdır.

Bu zonalarda 10 il ərzində on minlərlə xəstə müalicə almış, dünyanın 74 ölkəsindən, SSRİ-nin ən böyük şəhərlərindən gələn mütəxəssislər təcrübə mübadiləsi aparmışlar.

Şükür Həsənov şəhərdə "Sağlamlıq zonası" yaratmaq fikrinə düşdükdə çoxları bunun mümkün olub-olmayacağına şübhə ilə yanaşdı. Bu çox cəsarətli təşəbbüs idi. Axı hələ heç yerdə yanlız fiziki hərəkətlər, dəniz havası kimi vasitələrdən istifadə edərək müalicə müəssisəsi yaradılmamışdı. Lakin həmin təşəbbüsün tərəfdarları tapıldı. 1961-ci ildə Dənizkənarı parkla "Sağlamlıq zonası" yaradıldı, iki aydan sonra isə rəylər kitabına ilk rəylər edildi. Rəylər kitabında yazılırdı: "Qədim Yunanıstan əfsanələrində sağlam adam dəniz dalğalarının köpüyündən çıxan gənc allah şəkilində təsvir edilirdi. Mənim 80 yaşım var lakin "Sağlamlıq zonasında" müalicə olunduqdan sonra özümü elə hiss edirəm ki, güya dəniz dalğalarından qalxıram. Yeni işin təşkilatçısı və təşəbbüsçüsü olan professor Ş.M.Həsənova səmimi-qəlbdən öz minnətdarlığımı bildirirəm".

Yaxşı rəylərin sayı artırdı. Həyat, təcrübə professorun bu təşəbbüsün böyük fayda verdiyini təsdiq etdi.

Xəstələrin dərmansız müalicə olunduğu qeyri-adi müəssisənin şöhrəti respublikadan uzaqlara yayıldı. Mütəxəssislər, pensiyaçılar, idmançılar Bakıya çoxlu məktub yazdılar. Ölkənin bir sıra digər şəhərlərində də belə zonalar açıldı. Qəzet və jurnallarda, radio və televiziyada, bakılıların gözəl təşəbbüsünə çoxlu məqalə həsr edildi.

Bakı "Sağlamlıq zonası" hər gün 500 nəfərə xidmət edirdi.

Hər gün dənizkənarı parkın kölgəli xiyabanlarında "Sağlamlıq zonası" sakinlərinin fiziki hərəkətlər etdiyini, yüngül fiziki iş gördüklərini, terrenkur marşrut ilə gəzdiklərini görmək olardı.

"1942-ci ildə professor Ş.Həsənova "Əməkdar həkim", 1960-ci ildə "Əməkdar elm xadimi fəxri adları verilmişdir. Eyni zamanda o, Qırmızı Əmək Bayrağı, Oktyabr inqilabı, "Qafqazın müdafiəsinə görə", "Ən yaxşı ixtiraçı", "Səhiyyə əlaçısı" və s. kimi onlarla orden və medallara, fəxri fərmanlara layiq görülmüşdü.

Onu sovet səhiyyəsinin ağsaqqalı adlandıranlar səhv etməmişdilər.

**Şükür Həsənovun mənalı həyat yolu ölkəmizdə tibb elminin, səhiyyənin inkişafına öz töhfələrini bu gün də verməkdədir. Ş.M.Həsənov 1976-ci ildə vəfat etmişdir.**

**Rəna Namazova,**
**Azərbaycan Dövlət Elm və Texnika Sənədləri Arxivinin mütəxəssis arxeoqrafı**

***Səxavət Məmməd***

# İllər sonra hadisələr qaldığı yerdən davam edəcək...



**Ermənistan həm oynayır, həm oynadılır. Etiraf edək ki, Azərbaycandakı bəzi kəsimi də oynadır.**

**Ermənistan baş naziri Nikol Paşinyan dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Qarabağı Azərbaycanın tərkib hissəsi olduğunu deyib. Paşinyan bir neçə dəfə Azərbaycan ərazisinin 86.6 min kv/km olduğunu vurğulayıb. Həmin Paşinyan hökuməti Qarabağa dövlətlərarası kredit xətti vəsaiti ayırıb. Azərbaycanda nədənsə vəsaitin miqdarı müzakirə olunur. Əsas diqqət ediləsi məsələ hesab edirəm ki, "dövlətlərarası kredit xətti" olmalıdır. Necə olur ki, həm Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Qarabağın Azərbaycanın daxili işi olduğunu bəyan edir, ancaq separatçı rejimə dövlətlərarası kredit xətti ilə vəsait ayırır. Beləcə Paşinyan sözdə ərazi bütövlüyünü deyərək oynayırdı. Onun bu fikrinə güvənən bəzi azərbaycanlılar məlum oldu ki, oynadılıb və o kəsimin əsəbləri də oynamış oldu.**

**Paşinyan hökuməti bunun nə üçün edə bilər? Hesab edirəm ki, bu, təkcə oynayıb-oynatmaq deyil. Bu məsələnin arxasında ciddi planlar yatır. Belə ki, bunların hamısı rəsmiləşir və hesabatlara daxil edilir. Növbəti dəfə Azərbaycanı BMT-yə şikayət edəndə onlar bunu sübut kimi gətirəcəklər. Eynilə Ruben Vardanyan talonlar paylayanda bunu hesablamışdı. Bilirik ki, təkcə Azərbaycanda yox, elə dünyada da əsas məsələ sənədlərin düz olmasından keçir. Haqlı və ya haqsız qalır kənarda, əsas məsələ sənədlərin hesabatlara düşməsindədir.**

**Hesab edirəm ki, Paşinyanın Azərbaycan ərazisinin 86.6 min kv/km olduğunu vurğulamasının arxasında da bir siyasət yatır. Azərbaycan müstqilliyini elan edəndə özünü Cümhuriyyətin varisi elan edib. Yəni, Azərbaycan təkcə Cümhuriyyətin bayrağının, gerbinin, himninin varisi deyil. Həm də Cümhuriyyətin, ərazinin də varisidir.**

**Dolayısı ilə Azərbaycan ərazisinin 86.6 min kv/km olmasının vurğulamasında əsas səbəb məhz ərazi məsələsidir. Azərbaycan Cümhuriyyət ərazisinə iddialı olmamalıdır. Hesab edirəm ki, rəsmi Bakı bu məsələnin mahiyyətini bilməli və buna uyğun davranmalıdır.**

**Rusiya hazırda SSRİ tərəfindən ittifaq ölkələrinin bəzilərinə hədiyyə edilmiş ərazilərin davasını edir. Bunun hüquqi əsası da var. Çünki sonuncu SSRİ konstitusiyası buna imkan verir. Xatırlatma üçün qeyd edim ki, Rusiya prezidenti Vladimir Putin də Ukraynadan Krımı tələb edərkən hüquqi əsaslarının olduğunu dilə gətirmişdi.**

**Elə həmin konstitusiyadan hüquqi əsas gətirilərək Azərbaycan ərazisindən kəsilib, ermənilərə hədiyyə edilən yerlər gündəmə gətirilə bilər.**

**Rəsmi Bakının son zamanlar Qərbi Azərbaycan məsələsini gündəmə gətirməsinin də altında yatan mahiyyət bu ola bilər. Yəni, təkcə dədə-baba torpağı, oradan insanların qovulması yox, hüquqi əsasa görə belə davrana bilər. Məhz bu səbəbdən Azərbaycan sülh danışıqlarını uzatmaqda maraqlıdırsa, bu çox məntiqli və doğru yanaşmadır.**

**Rusiya Ukrayna müharibəsi son olmayacaq, dünyada və regionumuzda müharibələrin olma ehtimalı çox yüksəkdir. Bu, o anlama gəlir ki, dünyanın siyasi xəritəsi dəyişəcək. Bəzi ölkələrin ərazisi genişlənəcək, sıradan çıxan, ərazisi kiçilən dövlətlər də olacaq. Azərbaycan həm də bu prosesə hazırlıqlı olmalıdır.**

**Yeri gəlmişkən, Nikol Paşinyan bir neçə dəfə Ermənistan dövlətçiliyinin təhlükə qarşısında olduğunu bildirib. Dolayısı ilə Ermənistan da bilir ki, gələcəkdə hansı proseslər baş verə bilər və buna hazırlıqlı olmağa çalışırlar.**

**Ermənistan müharibənin nəticələrini öz üzərindən ata bilib. Müharibə zamanı əgər Ermənistanın harayına heç bir dövlət çatmırdısa, hazırda rəsmi İravan və erməni lobbisi Qarabağ məsələsini BMT-də müzakirəyə çıxara bildi.**

**Azərbaycan problemin həllini çözməyə çalışır. Ancaq diplomatik gedişlər nəticə vermir. Rəsmi Bakı hər dəfə yeni gündəmlə üz-üzə qalır. Ona görə də gərginliyin pik həddə çatması Azərbaycan tərəfinin də işinə yaramış olacaq. Niyə? Çünki Azərbaycan tərəfi sahədə daha uğurlu olduğunun fərqindədir. Ona görə də hərbi əməliyyatlar variantını daim gündəmdə saxlayır. Ermənistan tərəfi hər nə qədər silahlar sifariş etmiş olsa da, ordunun səviyyəsində ciddi dəyişiklik hiss olunmur. Buna heç insan resursu da imkan vermir. Ona görə də, rəsmi Bakı sahədə məsələni birdəfəlik həll etməyi üstün tutacaq.**

**Azərbaycanı düşündürən yalnız ərazidəki rus ordusunun varlığına rəsmi Moskvanın necə reaksiya verəcəyidir. Regionda və dünyada baş verən proseslər onu deməyə əsas verir ki, Azərbaycan real və həlledici addımlar ata bilər. Qarabağ problemi birdəfəlik həll olmalıdır. Problemin təxirə salınması, uzadılması, dondurulması, bəzi məsələlərə göz yumulub saxta humanizim, mərhmət hissi ilə yanaşılması məsələnin bitməsi anlamına gəlmir. İllər sonra hadisələr qaldığı yerdən davam edəcək...**

***Aqşin Yenisey***

# «Ağ atlı oğlan»ının eşşəyi öldü



***Cəmiyyətin fərdlərin yalnız şəxsiyyət faktı olub-olmamasına fokuslanması, şəxsiyyət faktını isə yalnız "ac ol, kişi ol" kimi məişət meyarı ilə ölməsi ölkənin ümumi peşəkarlıq səviyyəsinə ciddi ziyan vurur. Bizi problemlərini həll etmək üçün qəhrəman yolu gözləyən mifik toplum olmaqdan çıxıb, problemlərini həll edəcək peşəkar yetişdirən praktik cəmiyyət olmaq şansından məhrum edir.***

***Ölkə məişət səviyyəsində təsdiqlənmiş, ya da təsdiqə can atan şəxsiyyət simasının altında gizlədilmiş qeyri-peşəkarlarla doludur. Çox vaxt bu qeyri-peşəkar mühit adda-budda peşəkarları da əlindəki adını "şəxsiyyət" qoyduğu bu "məişət baltası" ilə öldürür.***

***Kamyunun "Taun" romanında doktor Riö vəba xəstəliyindən əziyyət çəkənlərin ağrılarını yüngülləşdirmək üçün gecə-gündüz çalışır, ancaq özünü bir qəhrəman hesab etmirdi.***

***Riöyə görə, vəba ilə mübarizə aparmağın yeganə yolu qəhrəman yox, əxlaqlı olmaqdan keçirdi.***

***Amma Kamyunun əxlaq anlayışı da fərqlidir.***

***Romanda xəstələrdən biri həkim Riödən soruşur: "Bəs əxlaqlı olmaq nədir?"***

***Doktorun cavabı: "Mənim gördüyüm işi görmək".***

***Riönün işi isə, sadəcə, öz üzərinə düşən vəzifəni protokola uyğun icra etməkdən ibarət idi.***

***Hər kəsin öz vəzifəsini nizamnaməyə, protokola uyğun icra etdiyi cəmiyyətdə kiminsə şəxsiyyət, xeyirxah, qəhrəman olmasının nə önəmi var ki?***

***Əslində, Hötenin Faustu mövhumata yuvarlanmış peşəkarın problemi idi və Faust sonda başa düşdü ki, insanın xoşbəxtliyi başqalarını xoşbəxt etməkdən keçir və bu iş miflə, mövhumatla olası iş deyil.***

***Faustun katarsisi ilə xristianlığın Avropa düşüncəsindəki "ağ atlı oğlan"ının eşşəyi öldü.***



*Əbülfət MƏDƏTOĞLU*

# Qora bişirən ayın pıçıltıları

Mənim inancıma görə həyatda elə an, elə məqam var ki, o təkcə bütün ömrünə bərabər olmur, həm də sənin doğum günün kimi yaddaşına yazılır. Və bu yazı heç vaxt pozulmur, hətta o yazının üstünə şeh də düşsə, toz da qonsa, onu birdəfəlik silmək, cırıb atmaq, unutmaq mümkünsüzdü. Axı, ömrə yazılıb, ürəyə yazılıb!.. Hə, mən bu bir cümləlik fikrimdə nə yazacağımı, nə deyəcəyimi öncədən çatdırmaq niyyətində deyiləm. Amma sadəcə bir içimdən gələn pıçıltını yazımın əvvəlinə çıxartdım...

Hər anı, hər dəqiqəsi olduğu kimi yadımdadı. Elə bil ki, kinoya baxıram. Fırlanır çarx gözümün önündə. Və mən də o fırlanan çarxla birlikdə dönürəm o günə, o ana. Gəlişini, ilk kəlməsini, hətta gözlərinin dibində gizlənib, oradan boylanan kədəri də görürəm... İlahi, o baxış, o kədər, o pıçıltı sanki qeybdən gəlirdi, qeybdən də görünürdü. Onu görməmək, onu duymamaq mümkünsüz idi. Mən nə qədər cəhd etdim, nə qədər görməmək, duymamaq istədim, mümkün olmadı. O anın özündə bir maqnit dalğası var idi. Yaxalamışdı məni, elə yerimdən tutmuşdu ki, tərpənə bilmirdim. Və bu günə qədər də maqnit dalğasının tutduğu yer mənə aid deyildi. Məndən qopub gedibdi. Elə məni də aparıbdı bəlkə də...

Hə, tarix elə bu yazının dünyaya gəldiyi günə təsadüf edir. Onda da avqust idi. Onda da qora bişirən öz işini görürdü. Və elə onda da mən başımı salıb aşağı kağız-qələmin ixtiyarına vermişdim özümü. Bilmirdim ki, bu kağız-qələm məni ona tərəf aparır, ona səmtləyir...

Və mən də qələmin, kağızın ətəyindən tutub gedirəm. Əslində getmirəm ey. Mənə tərəf gəlir, onu qarşılamağa çıxıram... Və həmin an qarşılaşırıq, öncə baxışlarımız görüşür. Sonra...

Bax, elə hər şey də o sonradan başlayır. Bu mənim doğum tarixinin yeni başlanğıcıdır. Soruşa bilərsiniz ki, nə baş verdi. Nədən dəyişdi doğum tarixi? Düzünü deyim ki, bu sualın cavabını hələ də tapa bilməmişəm. Ona görə də sizə heç nə deyə bilməyəcəm və məndən də yəqin ki, ağıllı bir cavab da ala bilməyəcəksiniz. Axı, insan niyə doğulduğunu özü bilmir və heç vaxt da bilməyəcək!

Sizi çox da maraqda qoymamaq, intizarda saxlamamaq üçün bircə anladığım bir gerçəyi, dərk etdiyim bir həqiqəti deyə bilərəm ki, həmin avqustda, həmin o qora bişirəndə mənim doğulmağım Allahın növbəti möcüzəsidi.

Çünki dünyaya mənimlə birlikdə bir sevgi də gəlmişdi. O sevgi yeni şeirlərimin, yeni pıçıltılarımın, yeni duyğularımın ünvanı, bəlkə də elə özü idi. Əslində elə də var. Özü də bəlkəsiz, filansız!..

Bax, onda mən əlimi göyə açıb şükür duaları ilə Allaha və sənə təşəkkürümü çatdırdım. İndi o duaları da, o şükürləri də içində təkrarlaya-təkrarlaya yazıram:

*Göydən düşən üç almayla*
*Bitdi mənim nağıl ömrüm.*
*Ondan nə mənə pay düşdü -*
*Nə də sənə ağıl, ömrüm!*

*Bədahətən söz deyərdim,*
*Öz yükümü çox bəyəndim.*
*Mən dəvə yox, mən küyəndim -*
*Belə gəldi, axır ömrüm!*

*De, o kimdi şəkili daşda?*
*Demirəm ki, başdan başla.*
*Gülə-gülə, əli qaşda -*
*Daş üstündən baxır ömrüm...*

*O həsrətə bu tabıyla,*
*Haqqa, sənə, xitabıyla...*
*Neçə-neçə kitabıyla -*
*Yüngül gəldi, ağır ömrüm!*

Bəli, mən bütün yazılarımın, bütün xitablarımın və bütövlükdə ömrümün mənasını həmin o gündə, o anda tapdım və qibləmi də bir daha müəyyənləşdirdim. Elə bilməyin ki, həmin ana qədər asi idim. Yox, mən onda Allahın adi, sadə, iddiasız başıaşağı bir bəndəsi kimi yaşayırdım ömrümü. Məhz, həmin o doğum günümdən içimdən bir iddia boy verdi. Bu iddianın adı Məcnundan artıq Məcnunluq idi.

Bugünə qədər də böyük Füzulidən min dəfələrlə üzr istəməklə, özümü Məcnundan böyük Məcnun sayıram. Düşünürəm ki, mənim sevgim, mənim səcdəm birmənalıdır, dəyişməzdir və onun hansı bucaq altında təqdim etməyimdən asılı olmayaraq, o, mənə aid olmaqla yanaşı, həm də təzədi, tərdi

Bəli, ürək kiməsə bir parsa ətdir, kiməsə yumruq boyda daşdır, kiməsə tez sınan şüşədi və kiməsə elə-belə heç nədi. Yəni, insan bədəninin bir əzasıdı. Amma ürək həm də bütöv bir dünyadı.

Duyğuların, hisslərin, ağrıların, sevinclərin, kədərlərin, vüsalların, həsrətlərin, bir sözlə, insana aid olan hər şeyin həm bələyidi, həm beşiyidi, həm də elə özüdür ki, var. Deməli, ürək həm də Allahın sənə tikdiyi evdi. Sən də o evin həm özüsən, həm də müsafiri, sakini. Deməli, elə ürək həm də Sənsən!

Sən olan yer heç vaxt qaranlıq ola bilməz, darısqal ola bilməz, soyuq ola bilməz, ümidsiz ola bilməz, işıqsız ola bilməz! Bilirsən niyə? Ona görə ki, Sən olan yeri Allah sənə aid edib!

Və Allahın aid etdiyi yerdə işıqsız, susuz, havasız olmur axı. Bax, bütün bu dediklərim, yazdıqlarım pafoslu da çıxa bilər, sərsəmlik kimi də görünə bilər, hətta bayağı da adlanmaq şansında da qorunmur. Amma kim nə deyir-desin, kim hansı qiyməti verir-versin, heç vecimə də deyil. Bilirsən niyə? Ona görə ki, səni Allah çıxartdı qarşıma. Sənə aid olan yeri Allah müəyyənləşdirdi. Və səni ömrümə Allah hopdurdu. Mən və bütün bəndələr Allah qarşısında həm acizik, həm də heç kimik. Ona görə də Allahın iradəsinə qarşı çıxmaq qeyri-mümkündür və mən bunu heç ağlıma da gətirmirəm. Çünki həyatımın bütün anları Allaha və Sənə aiddi!

Ona görə də mən nəyi nə vaxt yazmağı və necə yazmağı da heç kimdən soruşmuram. Çünki yazdıran da, pıçıldayan da Allah və Sənsən. Bax, elə indi yazdığım şeir də o pıçıltılardan biridir.

*Yenə təkliyimlə pıçıldaşıram,*
*Bir az dünənimdən, bir az bugündən.*
*Ağrı baltasını itiləyibdi -*
*Kəsib ümüdümə düşən düyündən...*

*Üst-üstə gəlməyən kipriklərimi,*
*Əyməyə çalışır nəm ağırlığı.*
*Ağırlıq barədə bildiklərimi -*
*Alt-üst eləyibdi qəm ağırlığı...*

*İçimdə-çölümdə külək at çapır,*
*Təklik qamçılayır zənnimcə onu...*
*Büdrəyən bəndəni, demək tez tapır -*
*Ölümdən tez gəlir adamın sonu...*

Bu pıçıltıların arxasında bir ömür dayanır. Əl barmaqlarının sayını keçmiş ömür. Yəqin o sayı sən də bilirsən.

Allahın bildiyi sayı deyirəm!.. Yəqin bu pıçıltıların arxasında sonu görünən ömrün kimə aid olduğunu da gözündən qaçırmırsan. Çünki onu Allah da artıq bilir və bir də ömrün alt-üst olması təzə bir fikir deyil və təzə söz də sayılmaz. Amma qəmin bütün ağırlığı ilə vücuda hopması hər adamın ömrünə yazılan yazı deyil. Buna birmənalı inanıram. Ona görə ki, ömrü yazan yer üzündəki bütün insanları fərqli yaratdığı kimi onların yazısını da fərqli qələmlə, fərqli fikir və cizgilərlə yazır. Kimi insan ömrü yaşayır, adidən adi. Kimi Məcnun ömrü yaşayır, aşiqdən aşiq və yaxud dəlidən dəli. Kimi də yenidən doğulur öz sevgisi ilə. Elə mənim kimi! Deyəsən, çox təriflədim özümü, çox "mənmən" dedim.

Bunu günaha yazma, günahdan sayma. Özündən razılıq hesab etmə. Bil ki, mən Allahın və Sənin nəzərlərinin altında olmaqla yanaşı, həm də sizdən aldığım impulsların işığında yazıram, danışıram...

Bütün bu yazı boyu mən içimdə sanki ələk əliyirdim. Bunu ona görə xüsusi qeyd edirəm ki, həmişəkindən fərqli olaraq sözü seçməyə, fikri təqdim etməyə bütün gücümlə çalışırdım. Məqsədim, məramım da bu ildi ki, artıq sözə, artıq fikrə yol verməyim, yer ayırmayım. Kimsə həmin o artıq sözdən, yersiz fikirdən yapışıb haralarasa gedib çıxmasın. Məhz bu səbəbdən yazının üstündə nanə yarpağı kimi əsmək dərəcəsinə gəlib çıxmışdım. Hətta özüm-özümə bir az acıyırdım da.

Özümün-özümə bir az yazığım da gəlirdi. Axı, heç kimə bəlli olmayan, heç kim üçün maraq doğurmayan, yenidən doğulmağımın, kağıza köçürməyimin nə mənası var? Amma yox, təkcə yazılanın yadigar olması, qalması baxımından yox, həm də yazılanın bir təbrik, bir xatırlatma, dünənə dönüş olmasıdır. Mən də məhz təbrik üçün, dünənə dönüş üçün yenidən həmin avqustdan bu ilin avqustuna gəlmək üçün düşüncələrimi sözə çevirdim və yazdım. Hər halda bu yazı ad günü təbriki kimi də oxuna bilər, xatirə kimi də!

Bəli, yazının əvvəlində dedim ki, heç kim doğum gününü doğulacağı andan öncə bilmədiyi kimi, təkrar doğulacağını da bilmir. Allah nəsib etdi, mən təkrar doğulmağımın şahidi oldum, elə Sən də! Və ömrümdəki Fərəh, Sevinc, Kədər, Ümid, Həsrət, bir sözlə, nə varsa hamısı həmin günlə bağlıdır. Və onların hamısı hər bir an mənimlə baş-başa, mənimlə birlikdədir. Mən də onlarla. Elə yəqin ki, Sən də!..

**P.S.** Yazını "19 avqust" şeirimin bir bəndi ilə bitirirəm. Həmin şeir "...ancaq O" kitabındandır.

*Kiminsə diqqətin qoy çəkməsin heç,*
*Mənim taleyimə vurulan möhür!*
*Əbədi sevgimdi - doğulsa da gec -*
*19 avqustdan boylanan şeir...*

Taleyim ağır oldu,
Yolum daşlı-kəsəkli.
Atam çox erkən öldü,
Gördüm çətinlikləri.

Çox ağır gəldi başa,
Çətin oldu qələbəm.
Əl uzatdım qardaşa,
İnandım mən qədərə.

Göy üzünə can atdım,
Çox dərdə gərdim sinə.
Dözdüm mən bu həyatın
Tufanına, selinə.

Ölçüb-biçdim yüz kərə
Atdığım hər addımı.
Tanıdı düşmənlər də
Sonda mənim haqqımı.

Qul olmadım heç kəsə,
Qürurumu qorudum.
Könül evimdə təkcə
Dostlara süfrə qurdum.

Yaxşılığa can atdım,
Ülfətdən vaz keçmədim.
İllər saçı ağartdı,
Xoş günüm az keçmədi.

Təcrübə böyük sərvət,
Həyatsa ağır yoldu.
Düz keçənlər var, əlbət,
Büdrəyənlər də oldu.

Poladdan əqidəsi,
Bir də həvəsi varsa,
Hədəfə çatır insan
Eşqi, nəfəsi varsa.

***

Bəzən xoşbəxt oldum, bəzən kədərli,
Sevgi qanadları könlümü qucdu.
Bu necə eşq idi, necə qədərdi -
Ruhumda al-əlvan çiçəklər açdı.

Dost-tanış dilinə düşməyim deyə,
Bəzən etinasız göründüm qəsdən.
Amma o canalan nəzərləriylə
Bu uşaq könlümü yaxdı eşq hərdən.

Şeir dəftərimi çevirdim külə,
Hələ qalır yanğı könül simində.
Məsumca köksümə sıxdım o gülü
Məktəbin son vida mərasimində.

Hərəni bir yana atır taleyi,
Bu böyük ölkədə ali məktəb çox.
Dağılır köçəri quş səfi kimi,
Burada heç kimin bir günahı yox.

Bir gün unudursan dost tənəsini
Bir canalan dilbər baxışı altda.
Vulkantək püskürən eşq nəfəsini
Duyursan cənnətin qapılarında.

Beləcə xoş olur filmin də sonu,
Bir ömür səadət - an kimi keçir,
İlahi səninçün yaratmış onu,
Sevginin nikahı göydə kəsilir.

***

Dostum, bu dünyada səntək kim ki var,
Nurdan yaranmışdır deyirlər ona.
Həyat da hamının üzünə gülür
Beləcə günəşli bir may ayında.

Sənin işığına qızınır hamı,
Sənə doğma, əziz kim varsa - hər kəs.
Gülən gözlərində qığılcım yanır,
Yanında tənhalıq adı çəkilməz.

Hamı sənin kimi olsa, nə vardı?
Qızıl kimi parlaq, dəyərli, əziz.
Dünyada davalar unudulardı,
Sülh içrə yaşardıq qəmsiz-qüssəsiz.

Bir bayramlıq qonaq gəldik dünyaya,
Beləcə bu ömrü yaşamaq lazım.
İstərdim ki, hələ bundan sonra da
Xoş günlər görəsən, mənim əzizim.

***

Bizi vəcdə gətirən bir neçə gözəl söz var,
"Alakay", "aynalayın" - sözlər könlü açırlar.
Qızılı naxışlarla yaddaşlara yazırıq,
Onları milyon kərə söyləməyə hazırıq.

Bilməz hər yoldan keçən bu sözlərin dadını
"Alakay", "aynalayın" - cəzb eləyir adamı.
Günün günortasında əldə çıraq axtarsan,
Başqa ləhcədə belə şirin sözlər tapmazsan.

Kaş ki həyatımızda tez-tez səslənəydilər,
"Alakay", "aynalayın" - yaxın ahəngli sözlər.
Dünya əsir düşərdi məğlub olub sevincə,
İşıqlı könüllərdə artardı nur min dəfə!

***

Hamıya bəllidir ki, heç kəsin kefi olmur
Buludlar toplananda, göy üzü tutulanda.
Elə bil batır səsi, yayın nəğməsi susur,
Sarı yarpaq görünür buxarlanmış aynada.

Qısa çəkəcək ömrü, sabah dönəcək yenə
Dodaqlara təbəssüm, könüllərə rahatlıq.
Sehrli çubuğunu Günəş hərləyir göydə,
Sabah hava buludsuz olacaqdır, rahatıq.

Taledən qaçmaq olmaz, pozu yoxdu yazıya -
Uğur da ola bilər, fəlakət də, bilirəm.
Neyləyək, xoş anları görmək üçün razıyam,
Yağmurlu günləri də yola verib gözləyəm.

***

Əfsanəvi qadın, gözəl Fərizə...
Onu bu ellərdə kim xatırlamaz?
Ciddi, ağıllıydı, həm də ki gözəl,
Gözləri elə bil üç karat almaz.

Həzin səsi, kəskin, iti ağılı,
Sözü, özü sanki təzə-tər külək.
Tulpartək çöllərə daim dartınır,
Azadlıqdan vəcdə gəlirdi ürək.

Yadımdadı qədim bir yuxu kimi -
Göstərdilər cavan igidi ona.
Açıqsözlü, azad bir oğlan idi,
Fərizənin igid gəldi xoşuna.

"Kimsən axı? Sənlə tanışıqmı biz?"
Oğlan dərhal verdi suala cavab.
"Sizlərdənəm, sizin qoyduğunuz iz
Mənimlə eləyir sənətdə davam".

"Yaxşı, bəsdir, dayan!" - anladım dedi
Şahanə ədayla bizim Fərizə.
"Babaların bir vaxt qoyduğu izi,
Bu gün tapdama gəl belə fərsizcə".

Qılınc kimi kəsdi sözlər atlını,
Bir cümlədən gəldi özünə cavan.
Sanki dəyirmanın ağır daşını
Fərizə un kimi üyütdü tamam.

Dərs götürdü oğlan həmin sözlərdən,
Elinə layiqli bir igid oldu.
Sözü üfürmədi heç vaxt küləyə,
İgidə hər işdə xalq ümid oldu.

Keçmiş zamanlarda işlər beləydi,
Nəhənglərin böyük yüksəliş dövrü.
"Ətəkli Maxambet" - belə deyirdi
Fərizəyə elə Axtanov özü.

***

Güclü qanadlarım ruhuma həmdəm,
Daim göy üzünə mən tələsirəm.
Həyatda nə ağrı, nə sevinc, nə qəm
Əbəs deyil, bunu çoxdan bilirəm.

Başımı əymədim heç zaman, heç vaxt.
Açdım dünyamızın bütün sirrini,
Sadə teoremmiş elə kainat,
Çözüb oldum mən də yüzlərdən biri.

Tunelin ucunda gördüm işığı,
Aydın, parlaq, alovtək qaynar idi.
Uduzduqlarımı, qazandığımı
Yüz dəfə ölçdümsə, bir dəfə biçdim.

Özümü dartmadım təkəbbürlə mən,
Olduqca sadə bir ömür yaşadım.
Həmişə səmimi oldum - ürəkdən,
Boş yerə heç zaman hay-küy salmadım.

Sevdim səhnədəki qəhrəmanları,
Sevdim dostları, doğmaları da.
Bir gözlə gördüm mən bütün hamını -
Nə bir şah tanıdım, nə də piyada.

Çox çətin olardı yaşamaq sizsiz,
Nə yaxşı, mənimlə siz də varsınız.
Siz mənə var-dövlət, xəzinəsiniz,
Şöhrətsiniz, şərəf, həm də şansınız.

Güclü qanadlarım ruhuma həmdəm,
Daim göy üzünə mən tələsirəm.
Həyatda nə ağrı, nə sevinc, nə qəm
Əbəs deyil, bunu çoxdan bilirəm.

**Tərcümə etdi:**
**Rəbiqə Nazimqızı**



Baktıkoja İzmuhaxbetov 1948-ci ildə anadan olub. Ufada Neft İnstitutunu bitirib. Dağ mühəndisi, texniki elmlər doktorudur. Neft-qaz sahəsində 36 il çalışıb, adi qazmaçıdan Qazaxıstanın energetika və mineral ehtiyatlar naziri vəzifəsinədək yüksəlib. 1983-87-ci illərdə Yəməndə sovet mütəxəssislər qrupunda çalışıb.

Nazir, iki vilayət hakimi, Qazaxıstan Respublikası Parlament Məclisinin sədri kimi müxtəlif dövlət vəzifələrində təmsil olunub. II dərəcəli "Kurmet" və "Barıs", "Ölkənin birinci Prezidenti - Ümümxalq lideri Nursultan Nazarbayev", "Otan" ordenləri ilə təltif edilib.

Qazaxıstan Respublikası Yazıçılar Birliyinin üzvüdür.

# Məzunlarımızın tələbəlik xatirələri

## "Tələbəlik illərində təmənnalı qiymət almamışam"

*Qısa tanışlıq. Sədirxan Sədirxanov 1955-ci ildə Qubadlı rayonunun Məlikəhmədli kəndində dünyaya gəlib. 1970-ci ildə 8-ci sinfi fərqlənmə ilə bitirərək Şuşa Pedoqoji Məktəbinə daxil olub 1974-cü ildə texnikumu tamamlayaraq doğma kəndindəki 8 illik məktəbdə pedaqoji fəaliyyətə başlayıb. 1975-77-ci illərdə Sovet ordusu sıralarında hərbi xidmət keçib. Əsgərlikdən qayıtdıqdan sonra kənd məktəbində işini davam etdirib. 1979-85-ci illərdə Dövlət Universitetinin Hüquq fakültəsinin qiyabi şöbəsini bitirib. 1982-91-ci illərdə Qubadlı rayon Xalq Deputatları Sovetinin (XDS) İcraiyyə Komitəsində ümumi şöbə müdiri, sədr müavini, daha sonra rayon XDA-də şöbə müdiri və sədr müavini, 1993-2001-ci illərdə Qubadlı hərbi prokurorluğunda böyük prokuror köməkçisdi və rayon prokuroru, 2001-2015-ci illərdə Baş Prokurorluğun Daxili İşlər Orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsində prokuror, Prokurorluqda istintaqa nəzarət idarəsində idarə prokuroru və böyük prokuror vəzifələrində çalışıb. 2015-ci ildə təqaüdə çıxandan sonra, 2016-2019-cu ilərdə Sumqayıt Şəhər İcra Hakimiyyətində hüquq şöbəsində məsləhətçi işləyib. Bir çağırış Qubadlı rayon Sovetinin deputatı seçilib. 2019-cu ildən təqaüddədir.*

**-Sədirxan müəllim, tələbəlik illərini necə xatırlayırsınız?**

-Tələbəlik illəri insan həyatının elə bir dövrünü əhatə edir ki, həmin illəri xoş xatirələrlə anıram və bəzən həmin illərin həsrətini çəkirəm. Mən tələbəlik illərini ömrümün ən gözəl çağları hesab edirəm. Tale elə gətirib ki, üç dəfə (Ali Partiya Məktəbində də müdavim olmuşam) tələbəlik həyatını yaşamalı olmuşam. Düzünü deyim ki, Şuşa Pedaqoji Məktəbində təhsil aldığım illər mənim üçün daha əzizdir. Mən həmişə Şuşa tələbəlik illəri ilə bağlı olan anları daha çox xatırlayır və o illərin həsrəti ilə yaşayıram.

**-Dərslərinizi necə oxuyurdunuz?**

-Mən istər orta məktəbdə, istərsə də adlarını çəkdiyim orta ixtisas və ali məktəblərdə yaxşı oxumuşam. Bakı Dövlət Universitetində birinci semestrdə bütün imtahanlardan əla aldığıma görə mənə və Mircavan adlı tələbə yoldaşıma "qiyabiçi - əlaçı" deyirdilər.

**-Təmənnalı qiymət almısınız?**

-Həmişə çalışmışam ki, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirim. Təmənnalı qiymət almamışam. Çatdırıb hazırlaşa bilmədiyim fənlərdən sonradan hazırlaşıb təmənnasız qiymət almışam. Ümumiyyətlə, mən təmənnalı qiymət haqqında düşünməmişəm.

**-Oxuduğunuz dövrdəki tələbələrlə indiki tələbələr arasında oxşar və fərqli cəhətlər varmı?**

-Bizim dövrümüzdəki tələbələrlə indiki tələbələr arasında böyük fərq var. Bizim vaxtımızda elmə, təhsilə böyük həvəs göstərilirdi. Oxuyanlar ali təhsil almaq xatirinə deyil, elmə yiyələnmək üçün oxuyurdular. Mən qiyabiçi tələbə olaraq sessiyaya gələndə xalamgilin mətbəxində oturub



gecənin yarısına kimi dərs oxuyurdum. Tədris vəsaiti tapılmayanda gedib kitabxanalardan axtarıb tapırdım ki, imtahanda suallara mükəmməl cavab verə bilim. İndiki tələbələr isə kitab oxumaqdan çox günlərini ancaq telefonda müxtəlif maraqsız və heç bir əhəmiyyəti olmayan oyunlarla keçirirlər. Oxşar cəhətlər isə tələbəlik illərinə xas olan bəzi vərdişlərin mövcudluğudur ki, bu da insanın yaş və dünya görüşü ilə bağlı fərqli də ola bilir.

**-Tələbələrin elmə, təhsilə marağı o zaman çox idi, yoxsa indi?**

-Tələbələrin elmə marağı o zaman çox idi. Son zamanlar elmə, təhsilə maraq çox azalıb. İndiki tələbələrimiz az oxuyurlar. Kitabdan qaçaqdırlar. Əlbəttə, bu hamıya aid deyil. Yaxşı tələbələrimiz də var. Halbuki internet resurslarının bolluğu onlara daha yaxşı oxumaq şansı verir. Bizim dövrümüzdə isə bir dərsliyi növbə ilə oxumağa məcbur olurduq.

**- Tələbəlik illərinin yadigarı olan dostlarınız varmı, onlarla görüşəndə əsasən hansı söhbətləri edirsiniz?**

. Düzü dostluq etdiyim tələbə yoldaşlarımdan rayonumuz təhlükədə olan zaman və məcburi köçkünlük dövründə lazımi qaydada mənəvi dəstək ala bilməməyim məni çox üzdü. Çünki biz qrupda bir neçə nəfər çox yaxın münasibətdə olmuşduq. Onlardan çox umurdum ki, heç olmasa, telefon əlaqəsi saxlayıb hal-əhval tutacaqlar. Ancaq, o dostların mənəvi dəstəyinə ehtiyacım olub. "Söhbət sosiskadan getmir e..."

**- Unudulmaz müəllimlərinizdən kimlərin adlarını çəkərdiniz?**

Dekanımız mərhum Məmmədxan Rəsulov, mərhum Lətif müəllim (məntiq), Məryəm müəllimə, Seyfəddin Qəndilov və İbrahim Vəliyev... Bu şəxsləri həmişə xoş xatirələrlə yada salıram. Allah dünyasını dəyişənlərə rəhmət eləsin. Yaşayanlara isə uzun ömür arzulayıram.

**-Sizcə şəxsi həyatın qapılarından keçmək asandır, yoxsa ictimai həyatın?**

-Əzizim, ictimai qınaq çox pisdir. Şəxsi həyatın qapısından keçmək olar. Bu həyat birinci növbədə özünə məxsusdur. Əgər sən özünə lazım deyilsənsə, bəs kimə lazımsan? Lakin əgər yalnız özünə lazımsansa, sən kimsən? Fərdi məxsusluğun özündə də bir ictimailik var. Axı, sən tək özün üçün yaşamırsan. Gərək elə yaşayasan ki, heç vaxt ictimai qınağa gəlməyəsən. Sürünmək üçün doğulanlar, heç zaman uça bilməzlər-kəlamına rəğmən deyə bilərəm ki, yalnız öz hissləri ilə yaşayanlar tarixin parlaq zirvəsinə ucala və bu zirvənin mahiyyətini anlaya bilməzlər.

**-Son olaraq indiki tələbələrə sözünüz?**

-İndiki tələbələrə sözüm odur ki, sosial şəbəkələrdə vaxt keçirməkdənsə, çoxlu kitab oxusunlar. Daim öz üzərlərində çalışsınlar. Şəxsiyyət kimi formalaşmaq üçün özünütərbiyə vasitələrindən istifadə etsinlər. Dövlətimizin, cəmiyyətimizin gələcəyi elmdən asılıdır. Ən böyük var-dövlət elmli olmaqdadır. Onlara tövsiyə edərdim ki. ən çox vətənpərvərlik, qəhrəmanlıq mövzusunda olan kitabları oxusunlar. Tariximizi yaxşı bilsinlər. Biz tariximizi nə qədər yaxşı bilsək, o qədər də güclü olarıq.

**Söhbətləşdi: Faiq Şükürbəyli,**
**"Qızıl qələm" media**
**mükafatçısı**



***Elman Qasımov,***
***"Zərdabi Nəşr" MMC-nin***
***direktoru***

# Coğrafi adlarımızın dəyişdirilməsi tariximizə vurulan zərbədir

**Tarixən insanlar bəşər cəmiyyətinin inkişafı ilə əlaqədar olaraq özlərinə ad verdikləri kimi yaşadığı yerlərə də müəyyən adlar vermişlər. Xalq heç bir coğrafi obyektə təsadüfi, yaxud mənası bilinməyən ad verməmişdir. Ola bilsin ki, bu gün müəyyən coğrafi adların həqiqi mənasını izah etməkdə çətinlik çəkirik. Baxmayaraq ki, həmin coğrafi adlar "dünyaya gələndə" konkret bir mənanı ifadə edib. Ancaq hər bir coğrafi ad tarixin daş yaddaşıdır. Bu adlar həmin ərazidə yaşayan xalqın tərcümeyi-halını özündə yaşadır. Tədqiqatlar sübut edir ki, Azərbaycanda minilliklərin yaşıdı olan coğrafi adların əksəriyyəti zaman-zaman təhrif olunub, dəyişdirilib, qondarma adlarla əvəz edilib, ya da tərcümə edilərək əvvəlki mənasını itirib.**

Sovet dövründə və ondan əvvəlki yüzilliklərdə rus imperiyasının xarici torpaqları zəbt etdiyi zamanlarda coğrafi adlarımız çox təhrif olunub. İndi bizim mütəxəssislərin əsas işi keçmiş adlarımızı tarixi mənbələr əsasında bərpa etməkdən ibarətdir, baxmayaraq ki, dəyişilmiş adların sonradan bərpası çətindir.

Coğrafi adlar xalqın milli sərvətidir. Qədim yer adlarının qorunub saxlanması həm milli, həm də dövlətin qədimliyi məsələsidir. Çünki xalqı yaşadan addır-A. A. Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır ki, əsrlər, hətta min illər boyu bu ölkənin bir çox yerlərinin və tayfalarının ilk adlarını məhv edə bilməmişdir.

Görünür bu humanist alim yer üzündə erməni adlı bir cığal millətin olduğunu unutmuşdur.

Çünki, onlar Ermənistanda yaşı eralarla ölçülən türk mənşəli oronimləri dəyişdirərək "özününküləşdirmişlər". Azərbaycanda isə son vaxtlar sığınacaq verdiyimiz ermənilər də öz çoxbilmiş babaları kimi hərəkət etmiş, Yuxarı Qarabağ ərazisində xeyli türk mənşəli coğrafi adları dəyişdirərək öz dillərində səsləndirmişlər.

Qarabağda olan erməni adlarının tədqiqi sübut edir ki, hazırda ermənilərin yaşadıqları kəndlərin vaxtı ilə həqiqi adları təmiz azərbaycab dilində olub. Çünki ermənilərin bu ərazilərdə sığınacaq tapması yaxın tarix olduğu üçün həmin yer adlarının bərpası o qədər də çətinlik törətmir.

Tarixi sənədlər sübut edir ki, ermənilər Azərbaycana sonradan gəliblər. Azərbaycanda elə adlar var ki, onlar gələndən sonra həmin adları tərcümə edərək həqqi adını unutdurublar.

Məsələn, Ağ kəndi-Spitakşen, Daşbulağı-Qaraxbür, Almalını-Xındzori və s. ediblər.

Faktlar sübut edir ki, Ermənistandakı coğrafi adların 90%-i Azərbaycan mənşəli adlardır. Lakin Ermənistan ərazisində olan türk coğrafi adlar ermənilər tərəfindən dəyişdirilib. Ermənilərin türk mənşəli toponimlərə sonradan verdikləri adların hamısı qondarma adlardır. Onlar bunu tərcümə yolu ilə ediblər. Elə ki, onlar adları tərcümə etməklə bir şey edə bilməyəcəklərini görüb sonradan bu adları ikinci etapda bir də dəyişiblər.

Lakin onları hafizələrdən silmək mümkün olmayıb. Çünki köhnə xəritələr dünya arxivlərində mövcuddur. Həmin xəritələr əsasında 900-ə qədər türk mənşəli adları araşdırılıb.

Onun 90%-i Azərbaycan, türk mənşəli addır. Bir hissəsi hibrid, yəni Azərbaycan-erməni, qalanları isə fars dilinə, rus dilinə məxsus toponimlərdir.

Müəyyən hissəsi isə mənası aydın olmayan adlardır. Ermənistanda lap az miqdarda erməni toponiminə rast gəlinir ki, bunların özləri də hələlik şübhəlidir. Bu da bir daha sübut edir ki, Ermənistan adlandırılan ərazi heç vaxt ermənilərin vətəni olmayıb.

Tarixin müxtəlif kəsimlərində Azərbaycanda yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi adi hal almışdır. Qarabulaq (indiki Füzuli rayonu) Qaryagin, Cəncə-Yelizavetpol-Kirovabad-Gəncə, Biləsuvar-Puşkin, İndiki Şirvan şəhəri-Zubovka, Sabirabad- Petropavlovka, Beyləqan-Jdanov, Şahbuz-İliç, Hacıqabul-Qazıməmməd, Xocavənd-Martuni, Ağdərə-Mardakert olmuşdu.

Belə xətalar xəritələrdə də öz əksini tapmışdır. Halbuki xəritə dövləti əks etdirir, onu dünyada tanıtdırır. Ona görə də coğrafi adların xəritədə əks olunmasına, yazılışına xüsusi fikir verilməlidir. Xəritəyə mənası məlum olmayan, qondarma adların yazılmasının qarşısı alınmalıdır. Xəritə tarixi sənəddir. Onun tərtibi zərgər dəqiqliyini sevir.

**Yer adlarımızın dəyişdirilməsi ulu tariximizə vurulan zərbədir.**

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

№ 33 (2357) 1 sentyabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# DÜNYA SÖZƏ QALACAQ

**Bəlkə də dünyada Sözdən qüdrətli və güclü bir şey yoxdur. Çünki sözün qüdrəti ilə bağlı böyük Füzuli də yaddaqalan fikirlər səsləndirib. Biz heç də böyük Füzulinin yaradıcılığından söhbət açmaq istəmirik. Biz sadəcə olaraq Azərbaycanda söz, mətbuat, fikir, plüralizm azadlığından danışmaq istəyirik. Heç kimə sirr deyil ki, Sovet dönəmində bütün mətbuat senzura nəzarətindəydi. Başqa sözlə demiş olsaq, ”qlavlit”in icazəsi və möhürü olmadan heç bir mətbuat orqanı çap oluna bilməzdi. Guya onlar mətbuatda dövlət sirlərini qoruyurdular. Əlbəttə, dövlət sirri deyil, millətin, xalqın ürəyindən keçən və onları düşündürə biləcək yazıların da çap olunmasına imkan verilmirdi. Təbii ki, bütün bunlar istər-istəməz mətbuatda bir boşluq yaradır, insanlar istədiyi və arzuladığı yazıları tapa bilmirdilər.**

Amma elə ki Azərbaycan müstəqillik dövrünə qədəm qoydu, senzura ləğv olundu və bir çox məhdudiyyətlər aradan götürüldü, bax, onda sözün, mətbuatın və fikir azadlığının inkişafına bir nəfəslik açıldı. Çünki Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra demokratik, hüquqi və sivill bir yol müəyyənləşdirmişdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk günlərdən Azərbaycan mətbuatına münasibət tamamilə dəyişdi. Ən azından ona görə ki, Ümummilli Lider Azərbaycan mətbuatının tarixini, bu gününü və sabahını çoxlarından yaxşı bilirdi.



Elə çoxlarından yaxşı bildiyinə görə də çap mətbuatında və eləcə də digər KİV-lərdə demokratik prinsiplərə, söz və mətbuat azadlığına böyük önəm verdi. Aydındır ki, Ulu Öndərin Azərbaycan mətbuatına səmimi və isti münasibət göstərməsi yaradıcı insanlar tərəfindən də çox böyük səmimiyyətlə qarşılandı. Başqa cür də ola bilməzdi, çünki Azərbaycan jurnalistləri sovet dönəmində hər hansı ədalətli bir yazını keçirmək üçün, eləcə də rejimin əleyhinə bir ifadə yazmağa görə olmazın əzab-əziyyətlə üzləşirdi. Hətta bəzi jurnalistlərdən hüquq-mühafizə orqanlarının əməkdaşları həmin yazılara görə izahat alır və xəbərdarlıq edirdilər ki, ikinci dəfə bu səpgili yazılar olsa onları bağışlamayacaqlar.

Əlbəttə, basqılar və sıxıntılar içində belə yazıları qələmə almaq üçün yazar insanlardan vətənpərvərlik və cəsarət tələb olunurdu. Bütün bunlar müstəqillik dövründən sonra zaman-zaman yumşalmağa başladı, Azərbaycanda mətbuat istədiyi mövzuda yazılar hazırladı və oxuculara təqdim elədi. Söz, mətbuat azadlığı ilə yanaşı, çoxlu sayda qəzet və jurnalların ”Azərbaycan” nəşriyyatına olan borcları da Ulu Öndər Heydər Əliyev tərəfindən bağışlanıldı.

Bu o deməkdir ki, çap olunmaqda çox böyük çətinliklərlə üzləşən maliyyə mənbələri məhdud olan qəzet və jurnallara yeni bir nəfəslik açıldı. Və bu nəfəslik imkan verirdi ki, ölkəmizdə söz və mətbuat azadlığı daha böyük uğurlara imza atsın.

Onu da qeyd edək ki, bu gün ölkəmizdə 5 minə yaxın qəzet qeydiyyatdan keçib və onların əksəriyyəti maliyyə problemi üzündən işıq üzü görməsə də, amma ictimai rəyə təsir edən, dövlətə, dövlətçiliyə və xalqa xidmət edən qəzetlərin nəşri üçün bu gün də dövlət tərəfindən hər bir şərait yaradılıb. Ən azından onu deyə bilərik ki, 20-dən çox qəzet və sayta hər il iki dəfə dövlət maliyyə yardımı göstərir. Bu isə o deməkdir ki, məmləkətimizdə demokratik fikirlərin aşılanması , hüquq və azadlıqların qorunması üçün mətbuatımızın heç bir problemi və sıxıntısı yoxdur. Təbii ki, mətbuat dördüncü hakimiyyət hesab olunur. Və dördüncü hakimiyyətə dövlət bu ”yaşıl işığı” yandırırsa, deməli, bunun üçün öncə mətbuat işçiləri və jurnalistləri dövlət başçısına minnətdar olmalıdırlar.



Azərbaycan prezidenti İlham Əliyev ölkəmizdə mətbuatın, KİV azadlığının, plüralizmin inkişafına hər zaman çox böyük dəstək verib və həmişə də bu fikiri səsləndirir: ”Mətbuat işçiləri mənim dostumdur”. Cənab prezident dostluqda çox sədaqətli bir şəxsiyyətdir. Deməli, bu şəffaflıq yaranıbsa, bu demokratik mühit varsa, Azərbaycan jurnalistləri hər bir mövzuda çox rahatdı, sakit tərzdə yazılar qələmə ala bilərlər.

Bu gün ölkəmizdə müxalifət mətbuatının inkişafına və onun maliyyələşməsinə də böyük önəm verilir. Heç bu maliyyələşmədə müxalif mətbuat iqtidar mətbuatından geri qalmır. Məsələyə bu cür münasibətin bəslənməsi onu deməyə əsas verir ki, Azərbaycanda sözün həqiqi mənasında söz və mətbuat azadlığı mövcuddur. Bunu tək biz demirik, həm beynəlxalq təşkilatlar, həm də onların Azərbaycandakı nümayəndəlikləri və başqa sözlə demiş olsaq, mətbuatımızı izləyən xarici həmkarlarımız səsləndirirlər.

Aydındır ki, dünyada sözdən qüdrətli heç nə yoxdur. Hətta Söz ən müasir silahdan belə güclüdür. Təsadüfi deyil ki, Lenin ”İskra” qəzetini yaratmaqla bolşeviklərin hakimiyyətə gəlməyini təmin elədi. Bax, bu gün də Azərbaycanda sağlam, demokratik mühitin formalaşması üçün haqqı, ədaləti hər şeydən üstün tutan, xalqa və millətə vətənpərvərlik, maarifçilik ideyalarını təbliğ edən qəzetlər lazımdır.

**Bu qəzetlər bu gün də var, sabah da olacaq. Üstəlik də hər bir Azərbaycan vətəndaşı istər televiziyalarda, istər sosial şəbəkədə, istərsə də qəzetlərdə və saytlarda öz fikirlərini azad şəkildə ifadə etmək hüququna malikdirlər. Yəni ölkəmizdə istənilən vəzifəli şəxs tənqid oluna bilər, onun barəsində fikirlər səsləndirmək bir o qədər də müşkül məsələ deyil, amma sadəcə olaraq bu tənqid ədalətli olmalı, şəxsiyyətin təhqirinə çevrilməməlidir. Çox təəssüf ki, bəziləri söz və mətbuat azadlığını təhqir və söyüş kimi düşünür, bu isə çox zərərli və təhlükəli bir mövqedir.**

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Gənc ailələrdə zorakılığın yaranma səbəbləri



*Zakir Bayramlı,*
*Şair-publisist, AYB və AJB-nin üzvü, qocaman təhsil işçisi*

**Ailə cəmiyyətin kiçik qrupu hesab olunmaqla nikah və qan qohumluğuna əsaslanır. Burada ailə üzvləri arasında məişət birliyi, bir-birinə qarşılıqlı inam, maddi və mənəvi kömək, ailə üzvlərinin hər biri tərəfindən hüquqi cəhətdən məsuliyyətin və cavabdehliyin daşınması əsas şərtlərdəndir. Qeyd edim ki, qanunvericiliyə əsasən cütlüyün hər ikisi ailənin normal yaşamasına, möhkəmlənməsinə və inkişafına cavabdehlik daşımalıdır. Əyər onların biri qəsdən və ya bilmədən bu qaydanı pozmuş olarsa onda, belə bir ailənin gələcəyi heç vaxt möhkəm və uzunömürlü, həyatı xoşbəzt ola bilməz.**

Gənclik ömrün qurub-yaradan, sevdiyi elmi biliklər öyrənməyin,xoşladığı sənətin, bəyəndiyi peşənin seçməyin əsl vaxtıdır. Bu dövr həm də gənclərin milli adət və ənənələrimizi, tarixi keçmişimizi, etik-əxlaqı dəyərlərimizi dərindən öyrənən və yaddaşlarına həkk edən məqamıdır. Bundan əlavə dilimizə,mədəniyyətimizə, ədəbiyyatımıza və incəsənətimizə, eləcə də günü-gündən möhkəmlənən və inkişaf edən yeni dövlətçilik ideyalarına dərin hörmət bəsləməli, onların təbliğinə öz töhfələrini verməlidirlər.

Gənclik insan həyatının ən məsul, həyəcanlı anlar, çoxlu imtahanlı və sınaqlı dövrüdü. Bu dövrdə onların gördüyü işlərlə , hərəkətlərlə və əməllərlə bağlıdır.

Gənclik ən yaxşını görüb-götürmək mərhələsidir. Bu vaxtlarda gənclər ən yaxşılardan nümunə götürmək, pis iş,hərəkət və əməlləri təkrar etməmək və onlardan uzaq qaçmaq üçün əsl fürsətdir. Mükəmməl ana-ata,müəllim və ya tərbiyəçi tərbiyəsini, ağsaqqal nəsihətini, ağbirçək öyüdünü hər kəlməsini böyük canıyananlıqla, istək və sevgi ilə beyinə əbədi həkk edən ən əlverişli vaxtıdır. Sağlam həyat tərzilə yola saldığım 75 illik ömrümün son 60 ilini təlim-tərbiyə sahəsində və ədəbi yaradıcılıqda keçirən bir ziyalı kimi mən həmişə gənclərə kömək göstərməyin tərəfində olmuşam.. Həmin kömək biznesmenlərin köməyindən daha qiymətlidir. Bu söz, nəsihətlə gənclərə göstərilən yardımın bir növüdür. Gənc ailələrdə elə bütün uğursuzluqlar ilk öncə sözün çəp gəlməsindən başlanır. Birinin sözü kal armuda dönüb o birinin boğazından keçmir. Çünki sözü söyləyən dildir. Dil isə dünya həm ən şirin, həm də dünyada ən acı şeydir. Ancaq söz yerinə düşəndə onun qiyməti ən nadir və qiymətli metaldan da bahadır. Mən də elə ” Söz” adlı şeirimin ən kiçik bir hissəsində göstərdiyim nümunədə də bunları demək istəmişəm:

*Söz var eşidəndə avazı xoşdur,*
*Söz var könüllərə dəyən bir daşdır.*
*Söz var mənasızdır, tutumu boşdur,*
*Söz də var, hikmətlə bəzər cahanı.*
*Başıuca eylər daim insanı.*

Əyər bütün valideynlər vaxtında öz övladıarına gözəl əxlaq , mükəmməl tərbiyə versələr, məktəblərdə müəllimlərimiz verilmiş tərbiyəni daha da təkmilləşdirərək dünyanın ən qabaqcıl tədris üsulları və texnologiyaları əsasında şagirdlərimizə canıyananlıqla təhsil verilməsini təmin etsələr, respublikamızda uğur qazanan gənclərin sayı daha çox olar.

Dünya təcrübəsinə və iqtisadi qanunlara əsasən cəmiyyətin iqtisadi bazisi necədirsə, ailə də ona uyğun inkişaf edir. Yəni cəmiyyətdəki istehsal münasibətləri və məhsuldar qüvvələr inkişaf etdikcə, adambaşına düşən məhsul istehsalı çoxaldıqca ailələrin gəlirləri də ildən-ilə artırılır.

Saf məhəbbət,sağlam təməl üzərində qurulmuş gənc ailələrdə elə ilk vaxtlardan tərbiyə işinin düzgün təşkili ailənin sakit, rahat və xoşbəxt yaşamasına, onun uğurlu gələcəyinə xidmət edir. Gənc ailədə inam, etibar, bir-birinə diqqət, qayğı, hörmət, qarşılıqlı sevgi, mehriban münbit şəraitin qurulması yeni ailənin möhkəm təməl üzərində möhkəmlənəcəyinə verilən ilk zəmanətdir. Çünki yeni yaranmış, hələ tam bərkiməmiş gənc ailədə hərtərəfli sağlam mühitin, səmimiyyətin və mehribançılığın,düzgünlüyün və saflığın, eləcə də normal psixoloji ab-havanın addım-addım bərqərar olunması ilk öncə vacib faktorlardan biridir.

**(İkinci söhbət)**

Cavan ailə başçılarının sağlam həyat tərzindən qidalanan, təmiz sevgiyə, saf məhəbbətə və qarşılıqlı hörmətə əsaslanan, hər gün yaranmaqda və möhkəmlənməkdə davam edən qarşılıqlı ailə münasibətləri cütlüyü, yəni, cavan ər və arvadı ürəkdən sevinməyə vadar edir. Gözlər gülür, üzlərə sevinc yağışı yağır, dodaqlara baldan şirin təbəssüm qonur.

Bir-birinin xasiyyətinə, xarakterinə olan psixoloji təsirlər, cütlüyün hər birinin müsbət və ya mənfi hərəkətlərinə qarşı oyanan cavab reaksiyaları evliliyin ilk illərində özünü öz çılpaqlığı ilə büruzə verməyə başlasa da yeni qurulan ailə həyatından hər iki tərəf çox razıdır.

Yeni körpənin dünyaya gəlməsi ilə təzə yaranmış valideynlik hüquqları, uşağın tərbiyə edilməsi işinə gənc ana və atanın məsuliyyətini daha da çoxalır. Körpənin fiziki və əqli cəhətdən bir kamil insan, saf və sədaqətli vətəndaş kimi formalaşmasına, onun təhsilli, bacarıqlı, Vətən, xalq və valideynlər üçün keyfiyyətli şəxsiyyət kimi yetişdirilməsi üçün gənc valideynlərin cavabdehliyi daha da artır.

Cütlüklərin bir-birini başa düşdüyü, hörmət etdiyi və bir-birə qarşılıqlı məhəbbət bəslədiyi, ailənin bütün məsuliyyətini, cavabdehliyini , bir sözlə hər cür ağır yükünü öz çiynlərində birgə daşımağa qərar vermiş gənc ailələr uğur qazanmağa və xoşbəxt olmağa layiqdirlər. Çünki bu gənc cütlük ailə adlı kiçik qurumun arzuları və amalları uğrunda məhəbbətin, mehriban ünsiyyətin və fəlsəfi təlim olan optimizm ideyalarının təsiri altında yumruq kimi birləşirlər

Məlum məsələdir ki, bir şəxsiyyət kimi gənclərin inkişafında bioloji və sosial amillərin rolu böyükdür. Statistik rəqəmlərdən bizə məlumdur ki, hər il dünyaya gələn körpələr içərisində bəziləri irsi xəstəliklərlə doğulurlar. Bundan əlavə yeni doğulan körpələr arasında doğuşun ağır keçməsi, ananın təcrübəsiz və ya xəstə vəziyyətdə olması, eləcə də digər səbəblər nəticəsində körpənin baş və digər nahiyyələrində yaranmış sıxılmalar nəticəsində o, kiçik zədələr alır. Bu kiçik qüsurlar uşaq böyüdükcə onun görməsində, eşitməsində və ya digər orqanlarında özünü açıq göstərir.

Belə demək olar ki, irsi xəstəliklər və tək-tək zədə alan uşaqlar istisna olmaqla bütün körpələr dünyaya sağlam gəlirlər.

İrsiyyət, tərbiyə və mühit amili gənclərin həyatında əsas amil olsa da hər bir gəncin şəxsi fəallığı əsas məsələ kimi qarşıda durur. Hər bir ağıllı və şüurlu insanın şəxsi həyatı onun özündən aslıdır.

Ona görə də ayın görünməyən tərəfi olduğu kimi ailə adlı qrumun da çətin yaşanan tərəfi vardır. Yəni dünya timsalında bəxti gətirən-gətirməyən, yəni uğurlu-uğursuz gənc ailələr vardır.

Bu əsasən gənclərin təqsiri üzündən bir-birini hərtərəfli tanımadan, real vəziyyəti kökündən məsuliyyətlkə araşdırmadan, nikaha girən gənclər bir-birinin xasiyyətini,xarakterik xüsusiyyətlərini, tutduğu hərəkətlərini yaxşıca öyrənmədən, təhlil etmədən təsadüfi tanış olurlar.

Həmçinin qohumların və ya tanışların araçılığı və ya vasitəçiliyi ilə tələm-tələsik baş tutan bu evlənmək məsələsi qısa zamanda yoluna qoyulur. Bir-birinə bələd olmadığı halda valideynlərin məsləhətilə, yaxın qohumların və tanışların dəstəyilə qurulan bu ailələr həqiqi mənada məhəbbət və sevgi üzərində deyil, təsadüfi və qısa tanışlıq üzərində qurulduğuna görə heç vaxt möhkəm və uzunömürlü olmurlar. Nəticədə bir neçə vaxtdan sonra sevmədiyi qızla evlənən oğlanın pis vərdişə qurşandığı məlum olur:

Məsələdən xəbər tutandan sonra əvvəlcə gənc cütlüklər arasında, daha sonra isə narazılıq, xırda söz-söhbət və nəhayət böyük dava-dalaş başlayır. Məsələyə hər iki tərəfdən qohumlar da kobud şəkildə müdaxilə edirlər.Bu zaman cavan ər isə qarşı tərəfi, yəni öz həyat yoldaşını qorxutmaq və susdurmaq üçün bir sıra qeyri qanunu təzyiqlərə əl atır. Yəni həyat yoldaşını döyür, söyür,təhqir edir, onu biabır etdiyi üçün öldürəcəyi ilə hədələyir. Heç bir təqsiri olmadığı halda cavan gəlinə olmazın cəzalar verirlər.Gör iş nə yerə çatıb ki, hər iki tərəfin adamları pis vərdişlərin qurbanına çevrilən gənc ailə başçısı-cavan oğlanı təqsirkar hesab etmək əvəzinə gəlini günahkar sayırlar. Ona səbrli olmağı, dözməyitəklif edirlər. Və ondan ömrünün sonuna kimi həyat yoldaşı ilə birgə yaşamağı- bu biyabrçılığa ölənədək dözməyi tələb edirlər.

Müsir dövrdə dünyada təkcə qadınlar deyil, azyaşlı uşaqlara qarşı zoraklıq halları da artaraq daha biabırçı və acınacaqlı vəziyyət almışdır.

Hələ dünyaya yetərincə göz açmamış, həyatda bərkiməmiş , təcrübəsiz və nadan azyaşlı uşaqlara qarşı aparılan zoraklıq - cinayət əməlləri bu gün dünya ictimaiyyətini olduqca sarsıdır. Hansı ki, ailədə, məktəbdə və cəmiyyətin ayrı-ayrı mədəni-kütləvi sahələrində uşaqların davranış məsələsinə ciddi diqqət verilməli, onların təhlükəsiz mühafizəsi məsələsi təmin edilməlidir.

**Sözümün əsas məğzi ondadır ki, gənc ailələrdə zoraklıq halları əsasən söz-söhbətli,uğursuz ailələrdə baş verir. Həmin ailələrdə pis vərdişlər hökm sürür,işsizlik problemi yaşanırvə s. Bunun əsas səbəbini isə həmin ailələrdə müxtəlif motivli pis vərdişlərin olması ilə əlaqələndirmək lazımdır. Bütün dünyada kabus kimi dolaşan və pis vərdişlərdən güc-qüvvət alan zorakılığın təsirini azaltmaq üçün ailədə, uşaq bağçaları-körpələr evində,məktəblərdə, iş yerlərində, bir sözlə bütün cəmiyyətdə təlim-tərbiyə təlim-tərbiyə işini gücləndirmək, gənclərin şəxsi fəallığını və məsuliyyətini daha da artırmaq vacib şərtlərdəndir.**

# *Yazıçı:* “Ermənilərin təkcə çörəyi yox, qeyrəti, namusu da dizinin üstündədir...”

**”Sözün açığı belə bir şeyi gözləyirdim. Başı bəlalar çəkmiş erməni tayfası hələ indiyənə qədər başa düşmür ki, türkün çörəyi adlı belə bir söhbət yoxdur. Çörək dünyanın hər yerində eynidir, çörəyin milliyyəti olmur”**

Bunu Adalet.az-a açıqlamasında yazıçı Seyran Səxavət deyib. Yazıçı Azərbaycanın Xankəndində yaşayan erməni əsilli vətəndaşlara humanitar yardım göndərməsini müsbət qarşıladığını bildirib:

”Bir də gördün ki, erməni tarixçiləri yazdı ki, çörəyi ermənilər kəşf ediblər. Bu sözə də inana bilərsən. Ac adam çörəyi qırx metrdən görəndə qaçır gözünə təpir. Deməli, bunların iqtisadi blokada adında şivən salmaqları yalan imiş. Özü də bu şivən elədir ki, onu dilimə gətirə bilmirəm, oxuculardan utanıram. Bu hamısı nə şivənidir. Avropa da buna inanırsa, kül halında deyə bilmərəm, amma ermənilərin nə şivəninə inandığı kəsimdə elə Avropa da lap müvəqqəti də olsa onların tayı olur. Gör-gör, kor-kor də. O çörək bunların burnunun deşiyindən irin, qan olsun gəlsin. Elə bunlar yüz illərdir ki, bizim çörəyimizi yeyirlər. Bunlar çörəyi dizinin üstündə olan bir toplumdur. Ermənilərin təkcə çörəyi yox, qeyrəti, namusu da dizinin üstündədir. Əgər erməni Allahı deyilən bir şey varsa, ona da şübhəylə yanaşıram və ayaq üstdə duran kimi Allah ordan tapılltıya yerə düşəcək. Amma erməni Allahı deyilən



bir şey yoxdur, Allah bütün bəşəriyyətə aiddir.

Biz belə faktları gördükcə, Ali Baş Komandanımıza zənglər gəlir. Biz bir az da möhkəm bir olmalıyıq. Çünki bu hamımızın taleyidir, hamımız bir gəmidəyik. Bu gəmini hamımız qorumalıyıq və bu gəmini də qorumağın yeganə, vacib və zəruri yolu həmin o gəmi kapitanının bütün əmrlərinə sözsüz əməl etməkdən keçir. Ona görə də belə şeyləri bizim xalqımız vecinə almasın. Ermənilər çörək yemir cəhənnəmə, gora yesin. Bu hadisələr milçək bulandıran kimi gərginlik yaradır. Amma bunlar o qədər lazımdır ki, o səviyyədə yaxın vaxtlarda daha ciddi addımlar atmaq üçün bizə əsas, bünövrə verir. Ona görə də bu gəmini hamımız qorumalıyıq və gəmi kapitanının bir sözünü iki etməli deyilik. Bir yumruq olmalıyıq və yumruqla gəmini qorumalıyıq”.

**Vasif Əlihüseyn**

# Bu yay da belə getdi...



**Qış elə qarlı, boranlı, sazaqlı, palçıqlı olurdu ki, bahar gələndə ürəkdən deyir, gülür, nə yaxşı ki, yaza çıxdıq deyə sevinirdik. Yazın gəlişi və istisi bizi gümrahlaşdırıb yaşamaq həvəsimizi artırardı.**

Qəfil yay gəldi. Nəhayət ki, sümüklərimiz iliyinə qədər qızar deyə, isti yayı acgözlüklə qarşıladıq. Çoxdan görüşməyənlər kimi, yayın qılığına girir, başına pərvanətək dolanırdıq. Yay da elə bil bir himə bənd imiş. Adamı içəridən və çöldən qovuran, bürkülü istisi ilə yoran yay elə bil bizə düşmən kəsilmişdi. Qızır, qızışır, üstümüzə təndir alovu səpələyirdi. O qədər isti olurdu ki, əhvalımız qarışır, ağlımız da əməlli-başlı çaşırdı.

Yay boyu göyün üzünə kiçik bir bulud da gəlmədi, sərin meh əsmədi, isti hava bir an olsun səngimədi. Sanki qızmar səma altında böyük bir cəza evində idik. Bilmədik ki, nə yedik, nə içdik. Yaşaya bilmir, istidən əzab, əziyyət içərisində sürünürdük. İlahi, bu yay, bu nə isti idi belə?! Tanrı sanki yerdəkilərin öz doğma övladları olduğunu unutmuşdu. Nə bilim, bəlkə də bizdən küsmüşdü. Pis əməllərimizə, etibarsız və artıq ona inanmadığımıza görə. Dualarımız, xeyirli, xoş sözlərimiz yaman azalmışdı...Tanrı istini od kimi, alov kimi üstümüzə yağdırırdı. İstisi ilə ondan uzaqlaşdığımıza, yadlaşdığımıza işarə edirdi bəlkə də. Təbiətin öz ovladı olan neçə insanın bu yay istidən ürəyi dayandı. Nəfəsi kəsilən çox oldu, neçə insan istinin qurbanı, yox oldu.

Başqa yerləri demirəm, Aran Ağcabədisi bu yay cəhənnəmin isti bucağı idi. Ulu Tanrı, günahımız çoxmu idi, öz övladının başına xəstəlik, xəstə olan bu qədər istini belə ”səxavət”lə bizə tuş edirdin. Axı, yaşaya bilmir, ölürdük günün günorta çağı. Təbiət kəsilmişdi bizə əsl yağı.

...Nə yaxşı ki, Tanrının yazığı gəldi sonda yerdəkilərə. Onları bağışladı göylərdəki narahat ruhumuza. Nə yaxşı ki, yellər əsdi, yağış yağdı. İstidən dodaqları cadar-cadar olan Torpağın üstünə yağış damcıları düşdü. Həyat da öz axarına düşdü. Sevinməyə, gülməyə başladıq. Yəni yaşamağa başladıq yenidən. Bir daha anladıq ki, Tanrı başımız üstündə olanda yaşaya bilirik. Hər şey ölsə də, ümid ölmür. Yaşamaq ümidi...

**Adil Misirli**

## Vaqif Mustafayev çəkdiyi filmdən danışdı: “Nənəm deyirdi ki...”



**”Biz ”Həyat, deyəsən, gözəldir” filmindəki döyüş səhnələrini dörd günə çəkmişik. Halbuki, əslində, bu, mümkün deyil”.**

Adalet.az xəbər verir ki, rejissor Vaqif Mustafayev bu sözləri Kulis.az-a müsahibəsində deyib. ”Bizə deyirdilər ki, bəlkə, özünüzü əziyyətə salmayasınız, haradasa yaxın bir yerdə səngər qazasınız? Razılaşmadım, çünki Hadrutda real səngərlər var və aktyorlar da, mən də özümüzü orada başqa cür hiss edirik. Ora hadisə yeridir. Minalanmış ərazi idi. Bir-birimizin izi ilə yeriyirdik, sola-sağa dönmək olmazdı. Bu da qərar idi. İstədim, dirəndim və elədim. Nənəm mənim haqqımda deyirdi ki, sən istədiyini almaq üçün adamı düşmən qapısına apararsan”.

**Emin**

# Şəhriyar Del Geraninin "Darıxmağın adı" kitabı

**Şair Şəhriyar Del Geraninin imzası oxuculara tanışdır. Onun özünəməxsus yaradıcılıq forması demək olar ki, təkcə həmyaşıdlarının deyil, eləcə də yaşlı nəsilin ədəbiyyat adamlarının diqqətini özünə çəkə bilib. Məhz bu səbəbdəndir ki, Şəhriyarın çap olunan hər bir şeiri müəyyən müzakirələrə səbəb olur.**

Bu günlərdə Şəhriyarın Qanun Nəşriyyatında yeni şeirlər kitabı, yəni ”Darıxmağın adı” işıq üzü görüb.”Darıxmağın adı” oxucularla xalq şairi, unudulmaz Vaqif Səmədoğlunun sözləri ilə təmasa başlayır. Belə ki, Vaqif Səmədoğlu yazır:

- ” Şəhriyar həbsxanaya düşüb azadlığını itirəndə də, həyata düşüb anasını itirəndə də onu ədəbiyyat qazanıb. O, sözün bütün mənalarında tək olmağı bacaran şairdi. Mənim qədər tənhalığı sevən bir adam onun darıxmağına qibtə edirəm. Ən əsası isə o, tənhalığını və darıxmağını ədəbiyyata çevirməyi bacarır...”

Düşünürəm ki, bu təqdimat oxucu önündə açılan qapıdı ... Və bu qapıdan keçən hər kəs Şəhriyarın şeir dünyasında öz istədiyini tapmaqda bir çaşqınlıq yaşamayacaq!

Belə ki, oxucu şerin səsini eşidir, misraları səs kimi görür...Və görüb eşitdiyi səs onu özünün həmsöhbətinə çevirir...Və bu anlaşma da hər iki tərəfin , necə deyərlər ürəyincə, istəyincə olur. Və nəhayət yenə VƏ - şeir də , oxucu da qazanır...Biri oxunduğu üçün, biri isə oxuduğu üçün!.. Bax bu məqamda




mən də səs eşidir və görürəm... O görüb eşitdiyim səs bu misralardı:

***Belə olmalı deyildi, dostum,***
***bunca hündür olmayacaqdı divarlar.***

***İndi mənim qısıldığım küncdən***
***heç kim görünmür.***
***Deyirəm ki, belə olmur...***

*Və yaxud:*

***Sevgi bir məzarlıq yermiş***
***gəzdirərsən bədənində.***
***Hamı- hamı sənə gülər,***
***amma sən***
***əvvəl-axır dəfn edərsən***
***özünü lap əvvəlinə - ana bətninə...***

Bəli, sizə təqdim etdiyim bu şeir, həm də görünən səs nümunələri ilə Şəhriyar Del Geraninin ”Darıxmağın adı” barədə qısa tanıtım etdim. Bundan sonrası sizin, yəni oxucuların ixtiyarındadı... Buyurun!..

**Əbülfət Mədətoğlu**

## “Xatirələrə sığmayan ömür”




**Tanınmıs və istedadlı jurnalist Daşdəmir Əjdəroğlunun yeni çapdan çıxmış kitabı belə adlanır.**

Azərbaycan şərqşünaslıq elminin inkişaf?nda böyük xidmətləri olmuş istedadlı alim, farsşünas, filologiya elmləri namizədi, professor, ömrünün çox hissəsini BDU-nun auditoriyasında keçirmiş Şülan Şirəliyevin əziz xatirəsindən bəhs edən bu kitabda dəyərli dostlarının, əzizlərinin,yaxınlarının, müxtəlif sahələrdə çalısan ziyalı insanların onun elmi, əmək fəaliyyəti,insanlığı, yüksək mənəvi keyfiyyətləri barədə maraqlı fikir və düsüncələri, bu ışıqlı elm xadimi ilə bağlı xatirələri toplanıb.

Kitabın məsləhətçisi BDU-nun xarici dillər kafedrasının dosenti Şölə Şirəliyeva, redaktoru BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi, filologiya elmləri namizədi, dosent Jalə Hüseynovadır. Düsünürük ki, kitab Şulansevənlər tərəfindən böyük sevgi ilə qarşılanacaq!

**Emil Faiqoğlu**

# Qarabağın sənətkarlar nəsli: Tarzən Asimin ulu babası Aşıq Valeh - I YAZI

**Bizim az yaşlı amma çox tanınmış bir qarabağlımız var! Tarı ustadlardan heç də əskik çalmır. Adı Asim, soyadı Pirimovdur. Mən onu şəxsən tanıyanda 11-12 yaşı olardı ya olmazdı. 2016-cı ildə Qara Qarayev adına ”Təhlil və İfa Edir Gənc Musiqiçilər” III Respublika Elmi-İfaçılıq Müsabiqəsində laureat adına layiq görüləndə bu haqda ilk yazan mən olmuşdum.**

Daha sonra bu balaca istedad 2017-ci ildə Türkiyənin Kocaeli şəhərində ”23 nisan Çocuklar Günü” münasibətilə diplomla təltif olundu.

Həmin il Gürcüstanın Kobuleti şəhərində keçirilən ”Harira” müsabiqəsində Azərbaycanı təmsil etdi burada birinci yerə və laureat adına layiq görüldü. 2018-ci ildə Bakıda italyanların keçirdiyi ”Testene Art Baku” müsabiqəsində iştirak etdi və ikinci yerə layiq görüldü. Burada da diplom və medalla təltif olundu. Uzun sözün qısası, Asimin ən xırda uğurunu yazdım.

Bir gün Asim təklif etdi ki, babam usta tarzən Qurban Pirimovla , onun nəticə olan məndən maraqlı bir yazı hazırlayın. Anladım nə deyir...Babasının yolunu davam etdirmək istəyini hamıya duyurmaq fikrindədir. Söz verdim ki, bir gün o yazını hazırlayacam. Və o gün bu gündür.

Deməli bu gün mənim yazımın 2 qəhrəmanı vaqr, biri tarixləşmiş ustad sənətkar, böyük tarzən Qurban Pirimov, digəri isə tara olan genetik sevgisi ilə yaşına uyğun olmayan uğurlara imza atan, nəticə tarzan Asim Pirimovdur.

Asimlə söhbət edəndə danışırdı ki, musiqiyə, tara böyük həvəsimi hələ balaca ikən evdə hamı bilirdi, 5 yaşımdaartıq valideynlərimə bir neçə musiqi aləti aldırmışdım. Nağara, qarmon, tütək... Amma evimizdə Qurban babam haqqında söhbətləri eşidəndən sonra marağım yalnız bir alətə- tara oldu. Bilirsiniz, Asim babası haqqında nələr eşidib bu yaşa qədər? Onda əvvəldən başlayaq...

Bilmirsinizsə, biz deyək siz dinləyin: Deməli, Qarabağın Abdal -Gülablı kəndində (Ağdam rayonu) Kərbəlayi Səfi adlı çox məşhur bir aşıq olur. El arasında onu Aşıq Valeh deyə çağırırmışlar. Bu aşıq doğulduğu 1722-ci ildən etibarən, yəni, körpə ikən səsi ilə Qarabağda ad çıxarmışmış. Səkkiz yaşlarında atası onu






öz kəndlərində yaşayan Molla Mahmudun yanına qoyur, mükəmməl savad verməsini xahiş edir. Sonra təhsilini Şuşa qəriyəsində alır. 14 yaşlarında ikən Quranı başa vurur, lakin molla olmaqdan imtina edir.

Özü demiş:

***Səkkizdə, doqquzda Quranı seçdim,***
***On yaşında yaxşı-yamanı seçdim.***
***On birimdə Quran kitabı seçdim,***
***On beşimdə sərim doldu sevdaya.***

Hansı sevdaya? Bunu da indi biləcəyik!

İlk sənət dərsini dövrünün tanınmış sənətkarlarından olan doğma babası şair Məhəmməddən və Aşıq Güllü ilə Aşıq Cünundan alır. Atasının razılığı ilə dövrünün hörmətli sənətkarlarından olan Aşıq Səmədin yanına gedir və ona şəyirdlik edir. Aşıq Səməd Valehin saza-sözə olan həvəsini nəzərə alaraq aşıqlıq sənətinin ən incə sirlərini belə ona öyrədir. Bundan sonra ustad öz istedadlı şagirdini məclislərə, mərəkələrə aparır, onu sınaqlardan çıxarır. Hətta deyilənə görə Valeh təxəllüsünü də şəyirdinə ustadı Aşıq Səməd vermişdir. Çünki Valeh -valeh olmaq, vurulmaq, sevmək mənasında olmaqla, gənc yaşlarında gözəl bir qıza bənd olması da şairin şeirlərində öz əksini tapır.

Tədqiqatçılar onu da nəql edirlər ki, 100 il (başqa məlumata görə 93 il) ömür sürmüş ustad Aşıq Valeh Molla Pənah Vaqifin müasiri və yaxın məsləkdaşı olmuş, eyni dövrdə yaşayıb və yaxın münasibətləri olub.

Bu sehirli səs-söz sahibi yenilməz bir saz və söz ustadı kimi deyişmə meydanlarında dəfələrlə sınanaraq qalib olduğu təsdiqlənir. Buna misal ”Valeh və Zərnigar” dastanı və onun qocalıq vaxtı İranda rəqibini bağlamasıdır. Onun bu deyişmələri aşıqlar tərəfindən dillər əzbərinə çevrilib,indi də ən maraqlı dastanlardan hesab olunur. Aşıq Xaspoladın dediyinə görə Aşıq Valehin külliyyatı 1905-ci ildə millət davasında ermənilər tərəfindən yandırılsa da , qorunub saxlanan əsərlərindən qalıb. Aşıq Valeh Aşıq Qurbanidən sonra aşıq havalarının bəstələyicisi kimi də tanınmışdır. Onun yaratdığı havalardan ”Zil qaytağı”, ”Qaytağı” (buna ”Qarabağ dubeyti” də deyirlər), ”Baş sarıtel”, ”Orta sarıtel”, ”Qarabağ şikəstəsi”, ”Qarabağ ləngəri”, ”Yeltək”, ”Bayramı” və b. adını çəkmək olar

Aşıq Valehin yaratdığı aşıq havalarını aşıqlarla bərabər Qarabağın şah sənətkarları olan Seyid Şuşinski, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Arif Babayev, Sara Qədimova, Səxavət Məmmədov və digər yüzlərlə xanəndə zərb muğamlarımızın ardınca və ya fərdi olaraq oxuyublar. Bu havaların hər biri könülləri riqqətə gətirən bir müsiqi kimi bu gün də gənc ifaçılarımız tərəfindən xalq mahnısı kimi səslənməkdədir.

Deməli, bu nəsil genetik olaraq özlərini incəsənətə həsr etmiş adamlardı. Beləki, Aşıq Valehin atası Məhəmməd, Məhəmmədin atası Mehdi, Mehdinin atası şair Məmməd, Məmmədin atası Aşıq Gülüm, Gülümün atası Aşıq Cünun, Aşıq Cünunun atası Nabati təxəllüslü ilə şöhrət tapmış Aşıq Fərman olub.

Əziz oxucularımız əgər Aşıq Valeh yaradıcılığı diqqətinizi çəkdisə Salman Mümtaz, Firudin Köçərli, Həmid Araslı, Əhliman Axundov, Məmmədhüseyn Təhmasib, Paşa Əfəndiyev, Famil Mehdi, Mürsəl Həkimov, Azad Nəbiyev, Məhərrəm Qasımlı, Mahmud Allahmanlı, Həsən Şıxavəndli, Almara Nəbiyeva, Məhərrəm Hüseyli və b.-nın aşıq haqqında tədqiqatlarını mütləq oxuyun!

***P.S. II yazımda bu gün dünyasını dəyişmiş ustad tarzən Qurban Pirimovdan da danışacağıq... Bizi izləyin!***

**Əntiqə Rəşid**

## Camaata ağıl öyrədən məsləhətçilər

**Neçə müddətdir ki, məsləhət influenserliyi edənlər tənqid edirəm. Çıxıb camaata ağıl verirlər ki, varlı olmaq üçün bunu elə, xoşbəxt olmaq üçün onu.**

Axır ki, elə ən zəngin adamlardan biri Acun İlıcalı da sözümə qüvvət verdi. O da deyib ki, hədəf qoymayın. Hədəf qədər yanlış bir şey yoxdur. Hədəfi bir



addım sonrasını yaşayaraq, addım-addım qurun. Sadəcə 1 addım sonranı hədəfləyin. Əvvəlcə ilk addımda xoşbəxt olacaqsan. Sevdiyin işdə çalışmalısan və oradan başlayaraq addımlamalısan. Sosial mediada insanlara çox zəngin olmağın yollarını izah edirlər. ”Varlı olmaq istəyirsən? Belə et, elə et. Zəngin olacaqsan”. Mənə nağıl danışma. Mən kasıb da oldum, varlı da. Zəngin olanda daha xoşbəxt olmursan. Amma kasıb olmamaq lazımdır, bunu anlat. Pulu belə əldə etməyin lazımdır deyirsən, bəs özün onu tapmısan? Kimin pulu ilə nə edirsən onu belə bilmirik.

**Bu çıxışını eşitdim, ürəyimdən tikan çıxdı. Biraz da Acunun mənimlə həmfikir olduğunu görüb sevindim. İndi həmfikirik, bəlkə sabah mənim də Acun qədər pulum oldu?!**

**Eminquey**

## SAZBƏNDLİK VƏ SAZBƏNDLƏRLƏ BAĞLI LAYİHƏ İCRA OLUNUR



**”Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentiliyinin maliyyə dəstəyi ilə həyata keçirilən ”Sazbəndlik və sazbəndlər” adlı layihə çərçivəsində işlər uğurla davam etdirilir.**

Bu barədə məlumat verən ”Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, dörd ay ərzində başa çatdırılması nəzərdə tutulan layihə əsasında ”Sazbəndlik sənəti və sazbəndlər” adlı kitab nəşr olunacaq. Artıq bu istiqamətdə işlərin əsas hissəsi görülüb: bir sənət sahəsi kimi sazbəndlik sənətinin tarixi, sazın hazırlanmasının əsas prinsipləri - alətin hazırlanacağı ağac materialının seçilməsi və emalı, simli musiqi aləti kimi sazın quruluşu və növləri və s. haqqında araşdırmaların nəticəsi olan geniş məlumatla yanaşı, xronolji ardıcıllıqla tanınmış sazbəndlərin həyat və yaradıcılıqları haqqında lazımı bilgilər toplanılıb.

Ümimilikdə, kitabda bir sənət sahəsi olaraq sazbəndliklə yanaşı, 70-ə yaxın sazbənd haqqında da məlumatın verilməsi nəzərdə tutulur.

Layihə çərçivəsində görülən işlərlə bağlı mütəxəssis rəyi alındıqdan sonra kitab yaxın günlərdə nəşr olunması üçün mətbəəyə təqdim olunacaq.

***Eminquey***

# Qadın maşinist

***Qadın maşinisti sükan arxasında telefonla danışdığı üçün işdən çıxarıblar.***

***Sosial şəbədəyə yenə lov düşüb.***

***Yenə cəbhələrə bölünüblər.***

***Barikadalar qurublar.***

***Atışmadır.***

***Bir tərəf deyir, guya kişilər telefonla danışmır?***

***Bir tərəf deyir, qadın nədir, maşinist olmaq nədir?***

***Bir sözlə, Həsən kişinin dəyirmanında yenə soxasox düşüb.***

***Burada əsas məsələ, bu sıradan bir hadisə olduğu halda, bunun ictimailəşdirilməsidir.***

***Ölkədə o qədər müəssisə, qurum var ki, ayda beş-on işçi azad olunur, hamısından xəbərimiz var?***

***Hamısını mətbuata car çəkirlər? Yox. Heç lazım da deyil axı.***

***İndi qadının işdən çıxarılmağı niyə car çəkildi? Bax maraqlı olan bu məqamdır...***

***Gəl indi bu anarxist feministkaların əlindən yaxanı qurtar, ay Metropoliten.***

***Şou düzəldəcəklər ki, yeganə qadın maşinist o xanım idi, ona qarşı bullinq-zad eləmisiniz.***

## Arzu Kəlbi: “Kişilər həmişə məni çox istəyib”



**Aparıcı Arzu Kəlbi açıqlaması ilə gündəm olub. Adalet.az xəbər verir ki, onun ”Qapqara” proqramında özü haqda yüksək fikri izləyicilərin marağına səbəb olub.**

Aparıcı Kamran Ağabalayevin ”nə yapışmısan bu milyonlardan?” sualına, ”mən özüm də milyonluğam. Reytinqlərim milyonluqdur. Bir gün gəlib mənim haqqımda da proqram hazırlayacaqlar: Arzu Kəlbinin milyonluq vertalyotu. Hər şey ola bilər. Beynimizi nəyə proqramlaşdırırqsa, o baş verir. Gərək xoşbəxt insanlara baxasan. Ki onlar sənə gəlsin. Milyonlara baxasan ki, onlar nə vaxtsa sənin qismətin olsun”. Peşəsindən ürək dolusu danışan aparıcı fikirlərini belə ifadə edib: ”Gözəl deyiləm, amma maraqlı qadınam. Doğrudan da bu belədir. Mövzularım maraqlı- çəkici olur. Adi bir gündəmsiz bir mövzunu partlayış edə bilərəm. Bunlardan əlavə qadın olaraq da çox maraqlıyam. Bunu deyib sözümün altından imzamı da çəkirəm (gülür). Məni həmişə qadınlar incidib. Kişilər həmişə məni çox istəyib. Mən də onları çox istəyirəm. Onlardan adama, pislik təhlükə gəlməz. Təbii ki, manyaklar istisnadır. Normal kişidən adama nə pislik gələ bilər ki?”

## Zarinanın gözləri görmür?...



**”Komedixana” ilə məşhurlaşan Zarina Qurbanova ”Qapqara” proqramında səhhətində olan problemlərdən danışıb.**

Adalet.az xəbər verir ki, aktrisa demək olar ki, heç nə görmədiyini etiraf edib: ”İki il əvvələ kimi demək olar ki, heç nə görmürdüm. İnsanları səs və qoxu ilə tanıyırdım. Mən bir pişiyəm *(gülür)*. Eynək istifadə etmirdim ki, eynəkli biri kimi yadda qalmayım. Artıq əməliyyat olmuşam, indi görürəm. Bəzən isə görməzdən gəlirəm. Düşünürəm ki, görməzdən gəlmək bəzən çox lazım olur.”

**Əntiqə**

# Yerin altında yaşayanlar

**Kuber Pedi Avstraliyanın cənubunda, Adelaida şəhərindən 846 km şimalda yerləşən şəhərdir. Burada demək olar ki, hamı yerin altında yaşayır. Jurnalist Kler Riçardson və fotoqraf Henninq Qoll insanlarla görüşmək üçün əraziyə gediblər. Kuber Pedi şəhəri haqqında maraqlı faktlar ortaya çıxarıblar.**

Cənubi Avstraliyanın cənubunda yerləşən Kuber Pedi Avstraliyanın opal mədən sənayesinin mərkəzində yerləşən bir şəhərdir. İndi Coober Pedynin yerli əhalisinin 60 faizi yerin altında yaşayır və şəhər davamlı həyatda lider olmaq yolundadır. Bəs Kuber Pedi şəhərini bu qədər maraqlı edən nədir?

Elə bir yer düşünün ki, yerin altına girdiyinizi hiss edirsiniz. Avstraliyanın cənub hissəsindəki kənd yerlərində yerləşən Kuber Pedi bu təsvirə uyğun gəlir və tez-tez yerli opal mədənlərinin incə qırmızı tozu ilə örtülür.

Daha sərin və yaşamaq üçün əlverişli bir iqlim əldə etmək üçün yerli insanlar bütün yaradıcılıqlarını köhnə mədənlərdə, hətta sığınacaqdan kilsəyə qədər yeraltı birlik yaratmaq üçün sərf etdilər. Bu gün Kuber Pedi əhalisinin təxminən 60 faizi yerin altında yaşayır.

Maraqlısı odur ki, Kuber Pedinin mənşəyi də yeraltıdır. Təxminən 100 il əvvəl bir gənc oğlan ərazidə bir neçə opal parçası aşkar etdi.

Buradan başlayan hekayə mədənçilərin bölgəyə axını ilə davam etdi, beləliklə, Coober Pedy qısa müddətdə dünyanın ən böyük opal mənbəyi oldu.

1970-80-ci illərdə şəhərdə 1000-ə yaxın mədənçi yaşayırdı. Bu gün Kuber Pedidə cəmi 100



mədənçi yaşayır.Opal cənnəti olan Kuber Pedinin xüsusiyyətləri və hekayəsi haqqında eşitmiş ola bilərsiniz. Lakin bu maraqlı yeraltı şəhərciyin son vaxtlar diqqəti cəlb etməsinin başqa səbəbi də var: onun elektrik enerjisi layihəsi. 2017-ci ildə təqdim edilən layihəyə görə, Coober Pedy-nin bərpa olunan enerjisi bölgənin günəşli və küləkli havasından yararlanaraq şəhərin ehtiyac duyduğu enerjinin 70 faizini istehsal edir. Beləliklə, şəhərin çox hissəsi bərpa olunan enerji ilə təmin edilirdi. Bundan əlavə, Coober Pedy-dəki günəş panelləri Avstraliyanı dünyada olanlar arasında fərqləndirməyə müvəffəq oldu. Yayda 53 dərəcə Selsiyə qalxdığı bilinən bir yerdə bu təmiz enerji mənbəyi şəhəri qızdırmaq üçün istifadə edilən dizel yanacağının istiliyindən və tüstüsündən azad olur. Təxminən 10 il əvvəl, opal mədən sənayesinin ortasında, Coober Pedy indi özünə rahatlıqla baxa bildiyi üçün yeni sakinləri cəlb edə bilir. Maraqlı şeylərlə dolu şəhərdə əhalinin 60 faizi yerin altında yaşayır. 53 ildir opal hasilatı ilə məşğul olan Con Dunstan BBC Travel adından bölgəyə gələn jurnalist Kler Riçardson və fotoqraf Henninq Qolla müsahibəsində Kuber Pedidə yaşadığından danışır: ”Yeraltı yaşamağa öyrəşdikdən sonra, bir daha normal evdə yaşamaq istəmirsən.

Heç vaxt isitmə və soyutmaya ehtiyacınız yoxdur, yerin altında yaşamaq dincdir. 2018-ci ilin yayında dərəcələrimiz 53-ə çatanda dözülməz dərəcədə isti idi. Xüsusən də şimaldan küləklər əsəndə sanki çörək sexindəsən. Amma bu istiliyi minimuma endirməklə özümüzü yeraltı evlərimizdə rahat hiss etdik”.

Digər Kuber Pedi sakini Ceyson Rayt yeraltı bunker adlandırdığı evini bu sözlərlə təsvir edir: ”Mədəndən çevrilmiş dörd otaqlı yeraltı bunkerin yuxarıda iki yataq otağı var. Coober Pedy, bərpa və dəyişikliklərin edilə biləcəyi, pul itirməkdənsə, qazandığınız yerdir. Çünki qazdığımız hər yerdən opal mina çıxır. Məlumdur ki, bu şəhər opal mədənləri ilə tanınır”.

Əsrarəngiz Kuber Pedi şəhəri Hollivud filmlərinin dəsti kimi tanınır. Bu əsrarəngiz şəhərin maraqlı quruluşundan təsirlənən prodüserlər və rejissorlar filmlərini bu unikal məkanda çəkməyə üstünlük verirlər. Xüsusilə, şəhərdə tərk edilmiş görkəmi ilə iri zəhərli ilanlara ev sahibliyi edən Ay düzü kino adamlarının sevimli məkanlarından biri kimi tanınır. Səthi dəniz qalıqları ilə qarışan bu yerin döşəməsi gipslə parlaq şəkildə parlayır.

Yeraltı kilsələr və sənət qalereyası Cooper Pedy-də görməli yerlər arasındadır. Şəhərdə mükafat qazanan bir otel də var.

**19 otağı yeraltı, 31 otağı yer üzərində olan Desert Cave Hotel yayda çöldə 45, oteldə 25, qışda 10, oteldə isə 17 dərəcə isti hiss edir.**

**Emin**

## Bakcell abunəçiləri “NaviMax”-la övladlarının təhlükəsizliyinə nəzarət edə biləcək

**Bakcell şirkəti ”NaviMax” tətbiqi ilə yeni xidmətini istifadəyə verir. ”Navimax” əsasən, uşaqların və ailə üzvlərinin fəaliyyətini izləmək üçün nəzərdə tutulan tətbiqdir.**

**Adalet.az xəbər verir ki, Bakcell abunəçiləri bu tətbiq vasitəsilə, övladlarını məktəb, bağça və digər yerlərdə rahatlıqla izləyə, onların təhlükəsizliyinə tam nəzarət edə biləcəklər.**

**Valideynlər övladlarının mobil cihazını öz dost obyektləri siyahısında qeydiyyatdan keçirməklə, onların hərəkət trayektoriyasından xəbərdar olacaqlar.**

**Valideynlər ”NaviMax”la övladlarının hərəkət radiusu üçün koordinatlar təyin edə, icazə verilən hərəkət poliqonundan uzaqlaşma anında mobil bildiriş alma imkanına sahib olacaqlar. Xidmətin aktivləşdirilməsi və deaktivləşdirilməsi tətbiq vasitəsilə həyata keçirilir.**

**Bakcell abunəçiləri 3020 qısa nömrəsinə SMS göndərməklə, tətbiqlə bağlı məlumat və link əldə edə bilərlər. Xidməti deaktiv etmək üçün isə, 3020 qısa nömrəsinə ”STOP” yazıb göndərmək kifayətdir.**

**Bakcell abunəçiləri tətbiqdən 1 həftə pulsuz istifadə edə biləcəklər. Pulsuz istifadə dövrü başa çatdıqdan sonra, ödənişli abunəlik avtomatik aktivləşdirilir. Tətbiqə abunəlik haqqı aylıq (30 gün) 1 AZN təşkil edir.**

**Bakcell şirkəti hazırda ”Bakcell ilə ən sürətli ol” şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.**

**Xatırladaq ki, şirkət NEQSOL Holding-in tərkibinə daxildir.**

Faiq Qismətoğlu **Şamil İsmayılova** qardaşı
**İlyas İsmayılovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 144
Çapa imzalanmışdır: 31.08.2023